**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN ELMİ-TƏDQİQAT KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI VƏ TƏŞKİLİ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELDƏNİZ MƏZAHİR OĞLU MƏHƏRRƏMOV**

# AQRAR SAHƏDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş

**DİSSERTASİYA İŞİ**

Elmi rəhbər: i.e.d.professor S.V.Salahov

**BAKI – 2016**

# MÜNDƏRİCAT

**GİRİŞ**.........................................................................................................3

**I FƏSİL. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin elmi-nəzəri əsasları**.........................................................................................................10

1.1. Aqrar sahənin inkişafının dövlət tənzimlənməsi sistemi və onun transformasiyası.........................................................................................................10

1.2. Aqrobiznes fəaliyyətinin dəstəklənməsinin forma və metodları.........................19

1.3. Aqrar bölmədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin ümumi xarakteristikası.........................................................................................................30

**II FƏSİL. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin iqtisadi tənzimlənmə sisteminin mövcud vəziyyətinin təhlili**...................................................................46

2.1. Regionlarda aqrar bölmədə sahibkarlıq subyektlərinin istehsal-satış fəaliyyətinin qiymətləndirilməsi.........................................................................................................46

2.2. Sahibkarlığın inkişafına dövlət dəstəyinin əsas istiqamətləri və onun inkişaf meylləri.........................................................................................................64

**III FƏSİL. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi**.........................................................................84

3.1. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsində qiymət mexanizminin rolu............84

3.2. Sahibkarlıq fəaliyyətində zəmanət mexanizminə dövlət yardımının prioritet istiqamətləri.........................................................................................................103

3.3. Sahibkarlıq subyektlərinin mikromaliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi.........................................................................................................116

**NƏTİCƏ**......................................................................................................... 127

**İstifadə olunmuş ədəbiyyat**.........................................................................135

# GİRİŞ

***Mövzunun aktuallığı.*** Azərbaycanda aqrar bölmənin kompleks formada inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Bu məqsədlə ölkə prezidenti İ.H.Əliyev cənabları kənd təsərrüfatının gələcək inkişaf taleyini və milli iqtisadi mənafelərin reallaşdırılmasında onun rolunu nəzərə alaraq göstərmişdir ki, "əgər bizdə ixrac bazarlarına böyük çıxışlar olmasa, gələcəkdə bu kənd təsərrüfatının inkişafını məhdudlaşdıra bilər". Ölkə başçısının bu strateji göstərişinə əsaslanaraq qeyd etmək olar ki, gələcəkdə kənd təsərrüfat istehsalı respublikaya daha çox xarici valyuta gətirən sferaya çevrilməlidir. Kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyin təmin edən strateji sahələrdən biridir. Bunu nəzərə alaraq dövlət başçısı tərəfindən 2015-ci il "Kənd təsərrüfatı ili" elan olunmuş və bu sahənin inkişafına ciddi təkan verilmişdir.

Azərbaycanda kənd təsərrüfat istehsalının prioritet üstünlüyə malik olmasını və bu sferada sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini şərtləndirən əsas arqumentlər bunlardır:

- kənd təsərrüfatı iqtisadiyyatının digər sahələrindən fərqli olaraq il boyu əhalini ərzaq məhsulları ilə və sənayeni xammalla təmin edir;

- ölkə əhalisinin xeyli hissəsi kənd yerlərində məskunlaşmış və onlar yerli təbii-iqtisadi resurslardan məqsədyönlü surətdə istifadə etmək imkanlarına malikdirlər;

- kənd təsərrüfatı məhsulları bazarlarında əsasən yerli ərzaq məhsulları üstünlük təşkil edir;

- kənd təsərrüfatı strateji sahə kimi regionların tarazlı inkişafıda xüsusi rol oynayır;

- kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin digər sahələrə nisbətən özünəməxsus xüsusiyyətləri vardır və bu sahədə sahibkarlığın stimullaşdırılmasına dövlət tərəfindən mütəmadi olaraq dəstək verilir;

- kənd təsərrüfatında sahibkarlar rəqabətqabiliyyətli və ixracyönümlü məhsulları istehsal etdikləri zaman tez-tez çətin maliyyə problemləri ilə qarşılaşdıqlarına görə onlara Sahibkarlığa Kömək Milli fondu tərəfindən güzəştli kreditlər verilir və bir sıra vergilərdən azad olunur;

- kənd təsərrüfatında digər sahələrə nisbətən istehsal sahibkarlığına daha çox üstünlük verilir.

Hazırda Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının 99%-ə qədəri özəl bölmənin payına düşür. 2015-ci ildə kənd təsərrüfatında məhsul istehsalı əvvəlki illərlə müqayisədə dəyər ifadəsində 6,6 faiz artmışdır. Eyni zamanda həmin ildə bitkiçilikdə artım səviyyəsi 11,3 faiz, heyvandarlıqda 2,5 faiz təşkil etmişdir. Bunlarla yanaşı taxıl, ət, süd, kartof, meyvə-tərəvəz məhsullarının istehsalında da yüksək nəticələr əldə olunmuşdur. Belə ki, il ərzində kənd təsərrüfatında meyvə-tərəvəz məhsullarının ixracının həcmi 7,3 faiz artaraq 312 milyon ABŞ dolları olmuşdur. Qeyd olunan bütün müsbət nəticələr bir neçə illər ərzində ölkənin kənd təsərrüfatında həyata keçirilən səmərəli aqrar islahatların təsiri altında baş vermişdir. Dövlətin qeyri-neft sektorunun inkişaf strategiyasında kənd təsərrüfatı sahələrinə xarici və daxili investisiyaların cəlb olunması prioritet üstünlüyə malikdir. 2014-cü ildə kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyaların həcmi 17618,6 milyon manat, ovçuluq və meşə təsərrüfatında isə 363,9 milyon manat təşkil etmişdir.

Bunları nəzərə alaraq dövlət aqrar sferanı daimi dəstəkləyir və stimullaşdırıcı mexanizmlərdən istifadə edir. Belə ki, 2015-ci ildə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti dövlət büdcəsindən ayrılan 70,6 milyon manat və öz fəaliyyəti zamanı əldə etdiyi 39,4 manat vəsait hesabına kənd təsərrüfatı istehsalçılarını mineral gübrələr, pestisidlər, texnika, texnoloji avadanlıqlarla təmin etmiş və və aqrotexniki xidmətlər göstərmişdir. Dövlət tərəfindən daha səmərəli tədbirlərin həyata keçirilməsi nəticəsində kənd təsərrüfat məhsullarının həcminin artırılmasına, onun rəqabətqabiliyyətinin yüksəldilməsinə, əhalinin ərzaq məhsulları ilə təmin

olunmasının yaxşılaşdırılmasına və həmin məhsulların ixrac potensialının genişləndirilməsinə əlverişli şərait yaradılır.

Son dövrdə kənd təsərrüfatında müxtəlif sahibkarlıq subyektləri fəaliyyət göstərir və onlar arasında rəqabət mühiti yaradılmışdır. Sahibkarlar dövlət dəstəyinə əsaslanaraq kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin müasir və səmərəli modellərindən istifadə etmək imkanı əldə edirlər. Artıq bir sıra rayonlarda pilot layihə kimi "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiqinə başlanılması innovasiya sahibkarlığının inkişafına təkan verəcəkdir.

Qeyd olunan bütün problemlərin vaxtında həyata keçirilməsi kənd təsərrüfatında sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsindən daha çox asılıdır. Bu baxımdan dövlət aqrar bölmədə sahibkarlıq fəaliyyətinin inzibati və iqtisadi metodlarla tənzimlənməsinə daha çox üstünülük verir.

**Problemin öyrənilmə vəziyyəti:** Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın aparıcı sahəsi kimi kənd təsərrüfatının hərtərəfli inkişaf istiqamətləri müəyyən edildi. Bu sahə özünün çətin dövrünü yaşasa da, son illərdə xarici və daxili investisiya qoyuluşları nəticəsində mühüm irəliləyişlər baş vermişdir. Ölkədə sənayenin xammala və əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək məqsədləri kənd təsərrüfatında yeni iqtisadi inkişaf strategiyasını irəli sürdü. Ayrı-ayrı dövrlərdə kənd təsərrüfatının mövcud vəziyyətinin təhlili və araşdırılmasına dair Azərbaycanın bir sıra görkəmli və tanınmış iqtisadçı-alimləri tərəfindən fundamental əsərlər yazılmış, tədqiqatlar aparılmış və səmərəli nəticələr əldə olunmuşdur. Bunlara: Z.Ə.Səmədzadəni, Ə.Nuriyevi, Ə.Əlirazyevi, A.F.Abbasovu, E.Quliyevi, E.İbrahimovu, A.Abbasovu, R.Cəfərova,F.Məmmədovu, S.Salahovu, Q,Manafovu, F.İsgəndərovu, B.Ataşovu, P.İsgəndərovu, A,Əhmədovu, A.Şəkərəliyevi, İ.Alıyevi, A.Məhərrəmovu, V.Abbasovu, A,Həsənovu və s. aid etmək olar. Xarici iqtisadçı alimlərdən C.M.Keyns, E.N.Krılatıx, B.L.Rayzberq, Y.B.Serova, I.Q.Uşaçev, A.V.Petrikov, U.S.Stroyev və digərləri tərəfindən aqrar sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin bu və ya digər məsələləri tədqiq edilmişdir.

Lakin, aparılan tədqiqatlarda aqrar sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi problemi kompleks şəkildə tədqiqat predmeti kimi araşdırılmamışdır.

Bu baxımdan aqrar sahədə müasir dövrün tələbləri səviyyəsində sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi probleminin kompleks formada tədqiq olunması qarşıya qoyulmuşdur.

***Tədqiqatın məqsədi və vəzifələri.*** Tədqiqatın məqsədi Azərbaycanın kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin mövcud vəziyyətini təhlil etmək və onun dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürməkdir.

Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Ölkənin aqrar bölmədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin elmi və metodoloji aspektlərini müəyyən etmək;
- Aqrar sahənin dövlət tənzimlənməsi sisteminin transformasiyası və ona təsir edən amilləri aşkar etmək;
- Kənd təsərrüfatından sahibkarlığın inkişafına təkan verən aqrobiznes fəalilyyətinin forma və metodlarının təkmilləşdirilməsi yollarını göstərmək;
- Kənd təsərrüfatında sahibkarlığın inkişafına dövlət dəstəyinin və yardımının maliyyə mənbələrini araşdırmaq;
- Kənd təsərrüfatında əlverişli sahibkarlıq və rəqabət mühitinin yaradılması mexanizmlərini müəyyən etmək;
- Kənd təsərrüfatında sahibkarlıq subyektlərinin maliyyə nəticələrini təhlil etmək;
- kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sığortalanma mexanizminə dövlət yardımının prioritet istiqamətlərinə dair təkliflər vermək;
- kənd təsərrüfatında sahibkarlıq subyektlərinin mikromaliyyələşdirilməsi variantlarını əsaslandırmaq.

***Tədqiqatın predmeti:*** Tədqiqatın predmetini aqrar sahədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və bu barədə praktiki əhəmiyyətli təkliflərin irəli sürülməsi təşkil edir.

***<u>Tədqiqatın obyekti</u>*:** Tədqiqatın obyektini respublikanın kənd təsərrüfatı və bu sahədə fəaliyyət göstərən sahibkarlıq təsərrüfatları təşkil edir.

***<u>Tədqiqatın nəzəri və metodoloji əsasları</u>*:** Tədqiqat işinin nəzəri metodoloji əsasını aqrar bölmənin inkişafına dair Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq hüquqi-normativ aktları, respublikanın və xarici ölkələrin iqtisadçı-alimlərinin aqrar sahənin investisiyalaşdırılması və bu sahədə dövlət tənzimlənməsi ilə bağlı əsərləri təşkil etmişdir.

Dissertasiya işinin yerinə yetirilməsində iqtisadi-statistik, müşahidə, təhlil və sintez üsullarından istifadə edilmişdir.

***<u>Tədqiqatın məlumat bazası</u>*:** Dissertasiya işinin yerinə yetirilməsi zamanı Azərbaycan Respublikası Iqtisadi Inkişaf Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarından, eləcə də Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının Iqtisadiyyatı və Təşkili Institutunun hesabatlarından geniş şəkildə istifadə edilmişdir. Tədqiqat işində internet şəbəkəsinə, onun informasiya bazasındakı məlumatlarına istinad olunmuşdur.

***<u>Tədqiqat işinin elmi yeniliyi</u>*** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- müasir dövrdə aqrar sahənin dövlət tənzimlənməsi sisteminin transformasiyası və ona təsir edən təşkilati-iqtisadi amillər aşkar olunmuşdur;
- kənd təsərrüfatında daha gəlirli istehsal sahələrində sahibkarlığın inkişafına dövlət dəstəyinin daha səmərəli metodlarının tətbiq olunmasına dair konkret təkliflər irəli sürülmüşdür;
- qeyri-neft sektorunun inkişafının mühüm sahəsi kimi kənd təsərrüfatında rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalının dövlət tərəfindən maliyyələşdirilməsi mənbələri müəyyən edilmişdir;
- ölkədə regionların tarazlı sosial-iqtisadi inkişafında kənd təsərrüfatının mövcud resurslarından istifadə imkanları araşdırılmışdır;

– aqrar bölmədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin daha səmərəli və elmi cəhətdən əsaslandırılmış mexanizmlərindən istifadə olunmasının potensial imkanları müəyyən edilmişdir;
– aqrar sahədə sahibkarlıq fəaliyyətinə əlverişli rəqabət mühitinin yaradılmasında dövlətin daha səmərəli iqtisadi tənzimlənmə vasitələrindən istifadə olunması yollar göstərilmişdir;
– kənd təsərrüfatında milli iqtisadi inkişaf modelinə uyğun olaraq sahibkarlığın daha mütərəqqi formalarından istifadə olunması istiqamətləri göstərilmişdir;
– aqrar sferada sahibkarlıq subyektlərinin sığortalanmasında dövlət tənzimlənməsinin roluna dair bir sıra konkret təkliflər irəli sürülmüşdür;
– kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qarşılaşdıqları mövsümü xərclərin ödənilməsində mikromaliyyələşdirmə tədbirlərindən istifadə olunması yolları göstərilmişdir.

***Dissertasiya işinin təcrübi əhəmiyyəti*** aşağıdakılardan ibarətdir:
– kənd təsərrüfatında sahibkarlıq subyektlərinin gəlirlərinin artırılmasında dövlətin rolu və imkanları müəyyən edilmişdir;
– aqrar sferada sahibkarlıq fəaliyyətində alternativ məşğulluq imkanları aşkar edilmiş və ona əməl olunması yolları göstərilmişdir;
– kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətləri müəyyən olunmuşdur.

***Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi:*** Dissertasiya işinin əsas müddəaları və nəticələri Bakı şəhərində keçirilən Beynəlxalq elmi konfranslarda və Az.ETKTİ və Tİ-da keçirilən elmi-praktik konfransda və seminarda məruzə edilmiş və bəyənilmişdir. Dissertasiya işinin əsas nəticələri on elmi məqalədə öz əksini tapmışdır.

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi mövzusunda yazılmış dissertasiya işinin mövzusunun əsas nəticələri Lənkəran Aqrar Elm Mərkəzində istifadə üçün qəbul edilmişdir (məktub №16 14.01.2011-ci il).

***<u>İşin həcmi və quruluşu:</u>*** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş 103 sayda ədəbiyyat siyahısından ibarət olmaqla 142 səhfəni əhatə edir. Dissertasiya işində 12 cədvəl və 2 sxem göstərilmişdir.

# I FƏSiL: SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

## 1.1. Aqrar sahənin inkişafının dövlət tənzimlənməsi sistemi və onun transformasiyası

Azərbaycan Dövlət müstəqilliyi əldə etdikdən sonra iqtisadiyyatın bütün sferalarında durğunluq və ləngimə prosesləri baş verdi. Bu prosesin müəyyən dövr ərzində baş verməsi ciddi maliyyə çətinlikləri yaratdı və əhalinin ərzaq məhsulları ilə təmin olunmasında arzuolunmaz nəticələr baş verdi. Lakin dövlətin həyata keçirdiyi makroiqtisadi siyasət tədbirləri nəticəsində xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması nəticəsində aqrar bölmənin inkişafında da müəyyən dərəcədə irəliləyiş baş verməyə başladı. Xüsusilə, bazar münasibətlərinin formalaşması kiçik və orta sahibkarlığın inkişafına təkan verdi və son nəticədə iqtisadiyyatın transformasiyasına təsir göstərdi.

Təbii ki, transformasiya prosesi bütövlükdə ölkənin təsərrüfat həyatında köklü dəyişikliklərin baş verməsinə səbəb oldu. Həmin dövrdə Azərbaycan gənc milli dövlət kimi daxili bazarın yerli məhsullarla təmin olunmasına yönəldilmiş iqtisadi siyasət həyata keçirməyə başladı. Bu iqtisadi siyasətin başlıca məqsədi müəyyən dövr ərzində ölkədə kiçik və orta sahibkarlığın üstünlüklərdən istifadə etməklə milli kapitalın formalaşmasına nail olmaq idi. Azərbaycana kiçik və orta sahibkarlıq strategiyasının reallaşmasında neft strategiyasının mühüm rolu olmuşdur. Belə ki, bir neçə il ərzində xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunması neft sənayesində kənd təsərrüfatında tikintidə, xidmət sferasında sahibkarlığın inkişafına əlverişli mühit yaratdı. Bu dövrdə daxili bazarın yerli məhsullarla təmin olunmasında, yeni iş yerlərinin yaradılmasında və əhalinin gəlirlərinin artırılmasında mühüm addımlar atılmışdır.

Son dövrdə Azərbaycanda sahibkarlıq strategiyası bütün fəaliyyət sferalarını əhatə etmiş və onun dövlət tənzimlənməsi sistemində əsaslı dəyişikliklər baş vermişdir. Milli iqtisadiyyatın formalaşması və onun sahə strukturunun formalaşması daha çox xarici və daxili investisiya qoyuluşlarından asılıdır. Investisiya qoyuluşları Azərbaycanda uzunmüddətli dövr üçün iqtisadiyyatın tarazlı inkişafına və bütün istehsal sahələrinin qarşılıqlı surətdə əlaqələndirilməsinə təsir göstərir. İnvestisiya

qoyuluşları əsasında özünün inkişaf yoluna qədəm qoyan sahələrdən biri də kənd təsərrüfat istehsalıdır. Bu baxımdan dövlət aqrar sahədə dövlət tənzimlənməsi sistemində rəqabətqabiliyyətli məhsul istehsal edən sahibkarlıq təsərrüfatlarının inkişaf etdirilməsinə daha çox üstünlük verir.

Buna nail olmaq məqsədilə aqrar sahədə dövlət tənzimlənməsinin aşağıdakı istiqamətləri həyata keçirir:

- Aqrar sahədə sahibkarlıq fəaliyyətinin reallaşmasının institutsional bazasının formalaşması;
- Kənd təsərrüfatında çalışan istehsalçıların gəlirlərinin artırılmasının dövlət tənzimlənməsinə xüsusi diqqət yetirilməsi;
- Aqrar sferada qiymətlərin mövzusunu olaraq tənzimlənməsi;
- Kənd təsərrüfat istehsalında sahibkarlığın inkişafına maliyyə dəstəyi kimi dövlət tərəfindən subsidiyaların verilməsi və yaradım göstərilməsi;
- Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənmə mexanizminin təkmilləşdirilməsi;
- Kənd təsərrüfat məhsulları bazarının daha çox Rusiya bazarlarına inteqrasiyasının gücləndirilməsi;
- Kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfatlara güzəştli kreditlərin verilməsi mexanizminin təkmilləşdirilməsi;
- Kənd təsərrüfatında əhalinin məşğulluğunun dövlət tərəfindən tənzimlənməsi və s.

Respublikada kənd təsərrüfat istehsalının dövlət tənzimlənməsinə dair bir sıra tədbirlər həyata keçirilmiş və dövlət proqramları qəbul olunmuşdur. Bunlara 2004-2008, 2009-2013, 2014-2018-ci illər üçün Dövlət Proqramlarını, 2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramını, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə" Dövlət Proqramını (2002-2005-ci illər), "2003-2005-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə" Dövlət Proqramlarında aqrar sahənin bunun sferalarının hərtərəfli inkişafına dövlət dəstəyi verilməsi məsələləri ön plana çəkilmişdir. Kənd təsərrüfatı sənayedən sonra ölkənin ikinci strateji sahəsi kimi dövlət

tərəfindən daim dəstəklənir və onun hərtərəfli inkişafına investisiya qoyulur. Dövlət tərəfindən kənd təsərrüfatında sahibkarlığı inkişaf etdirmək məqsədilə fermerlərə öz dəstəyini göstərir. Ölkə prezidenti İ.H.Əliyev cənabları kənd təsərrüfatının inkişafına dəstək verilməsi ilə əlaqədar göstərmişdir ki, bir neçə ildir ki, fermerlərə kömək məqsədilə dövlət tərəfindən texniak, cins mal-qara alınmasına şərait yaradılır. Ərzaq təhlükəsizliyi ilə əlaqədar olaraq kənd təsərrüfatında institutsional islahatlar aparılır, aqroparklar salınır və subsidiyyaların verilməsi prosesi təkmilləşdirilir.

Fermer təsərrüfatlarında məhsuldarlığı artırmaq, daxili bazarı həmin məhsullarla təmin etmək və sonra isə dünya bazarına rəqabətqabiliyyətli məhsulları çıxarmaq strateji məqsədə çevrilmişdir. Son dövrdə iyirmiyə yaxın fermer təsərrüfatlarında məhsuldarlıq səviyyəsi xeyli dərəcədə artmışdır. Belə ki, kənd təsərrüfatının mühüm sahəsi olan taxılçılıqda məhsuldarlıq səviyyəsi 20 faiz artmışdır. Əgər əvvəlki illərdə hər hektardan 22 sentner taxıl məhsulu götürülür, hazırda bu artım 30 sentnerə çatdırılmışdır.

Bunları nəzərə alaraq dövlət tərəfindən kənd təsərrüfat istehsalının aşağıdakı istiqamətlərdə tənzimlənməsi nəzərdə tutulur:

- Kənd təsərrüfat məhsullarının keyfiyyətinin və rəqabətqabiliyyətlinin artırılması;
- Kənd təsərrüfatında idxalı əvəz edən məhsulların istehsalı;
- İxrac yönümlü kənd təsərrüfatı məhsullarının dünya standartlarına uyğunlaşdırılması;
- Kənd təsərrüfatı məhsullarının elektron uçot sisteminin yaradılması;
- Rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxarılmasını həyata keçirmək məqsədilə Azad iqtisadi zonaların yaradılması.

Aqrar sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi kənd təsərrüfatı istehsalında yeni struktur dəyişikliklərinin baş verməsinə ərazi əməık bölgüsü sisteminin genişləndirilməsinə və iqtisadi regionlar üzrə məhsuldar qüvvələrin səmərəli surətdə yerləşdirilməsinə təkan verəcəkdir. Bunları nəzərə alaraq dövlət fermerləri bir sıra vergilərdən azad etmiş, faiz dərəcələrini aşağı salmaqla onlara güzəştli kreditlər verilmişdir. Bu prosesdə Sahibkarlığa Kömək Milli fondunun rolu daim artır və

sahibkarların inkişafına dəstək verilir. Belə əlverişli şəraitin nəticəsidir ki, artıq Azərbaycanda çox güclü sahibkarlar təbəqəsi yaranmışdır və onlar arasında sağlam rəqabət mühiti formalaşmışdır. Aqrar sferada fəaliyyət göstərən bütün iş adamları, fermerlər, fərdi təsərrüfatlar, ailə təsərrüfatları, ev təsərrüfatı üzvləri, aqrofirmalar və digər təsərrüfat subyektləri dövlətdən dəstək alır və daha keyfiyyətli kənd təsərrüfat məhsullarının istehsalında maraqlı olurlar.

**İqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatında çalışan işçilərin gəlirləri aşağı olduğuna görə aqrar sahənin dövlət tərəfindən müdafiə olunması və onun tənzimlənməsi məsələləri ön plana çəkilir.** Belə ki, dövlət tərəfindən zəruri tənzimlənmə tədbirləri nəticəsində aqrar sferada çalışan işçilərin gəlirləri elə təmin edilməlidir ki, onların kənd təsərrüfatı istehsalı ilə məşğul olmaq maraqları artmış olsun. Aqrar bölmədə çalışan işçilərin gəlirlərinin formalaşmasında kənd təsərrüfat məhsullarının qiymətlərinin dəyişməsi də mühüm rol oynayır. Kənd təsərrüfatı məhsulları bazarında qiymətlər tələb və təklif mexanizmləri əsasında tənzimlənir. İlin fəsillərindən asılı olaraq, həmin qiymətlər tez-tez dəyişir və məhsulları istehsal edən təsərrüfat subyektlərinə fərqli gəlir gətirir.

**Son dövrdə bir sıra streteji xarakter daşıyan kənd təsərrüfat məhsullarının istehsalı dövlət tərəfindən tənzimlənir və fermerlərə dövlət sifarişi verilir. Onlara taxıl, pambıq, tütün, üzüm və digər məhsulları aid etmək olar.** Göstərilən məhsullara təminatlı qiymətlər müəyyən edilir və istehsalçılarnın maraqları artırılır. Hazırda kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsində dünya ölkələrinin təcrübəsindən istifadə olunur. Belə ki, aqrar sahədə qiymət disparitetinin mövcud olması daha çox gəlir itkisinə səbəb olur. Bu prosesə kənd təsərrüfatında mövcud olan inhisarçı mövqelər daha çox öz təsirini göstərir. Dövlət kənd təsərrüfatı məhsullarının qiymətlərini tənzimləmək məqsədilə qiymətlərin "müdafiəsinə" ayrılmış büdcə vəsaitlərindən istifadə edir.

Bütövlükdə aqrar sahənin dövlət tənzimlənməsi iqtisadiyyatın şaxələndirilməsinə də sahibkarlığın bütün formalarının hərtərəfli inkişafına təkan verəcəkdir. Bazar münasibətləri şəraitində Sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi daha çox iqtisadi metodlarla həyata keçirilməlidir. Bu baxımdan

dövlətin iqtisadi vasitələrlə tənzimləmə siyasətinin elmi-nəzəri əsaslarının işlənib hazırlanması və onun yerli şəraitə uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsi ilk növbədə sahibkarlıq və investitsiya mühitinin yaxşılaşdırılmasını və sahibkarlıq fəaliyyətinə dövlət yardımının həyata keçirilməsini özündə əks etdirir. Makro iqtisadi tənzimləmə vasitələrinin aktivləşdirilməsi yolu ilə maliyyə bazarlarına, o cümlədən infrastruktur sisteminə, bazarın fəaliyyətinə, rəqabət mühütünə və antiinhisar mexanizminin təkmilləşdirilməsinə təsir göstərilir.

Azərbaycanın görkəmli iqtisadçı-alimi akademik Z.Ə.Səmədzadə öz çıxışlarında qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının aparıcı rola malik olmasını, həmin sahənin məhsullarının rəqabətqabiliyyətliliyinin və ixracyönümlülüyünün artırılmasını və onun xaricdən daha çox valyuta gətirən sferaya çevrilməsini, iqtisadi rayonlarda sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsini və stimullaşdırılmasını, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsini və ondan səmərəli istifadə olunmasını, real sektorun inkişafında bankların daha da fəallaşmasını qeyd etmiş və onun reallaşma istiqamətlərini göstərmişdir. Sahibkarlıq və investitsiya mühütünün yaxşılaşdırılması, ilk növbədə davamlı iqtisadi inkişafın təmin edilməsinə və daxili bazarda yerli istehsalın xüsusi çəkisinin möhkəmləndirilməsinə əlverişli şərait yaradır. Bu baxımdan cəmiyyətdə biznes və dövlət strukturları arasında səmərəli qarşılıqlı münasibətlərin formalaşdırılması, xüsusi sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaradılması, xarici kapitalın yerli istehsal sektorlarına cəlb edilməsi, səmərəli makroiqtisadi tənzimləmə mexanizmlərinin genişləndirilməsi ilə qarşılıqlı surətdə əlaqədardır. Hazırda sahibkarlıq qurumları ilə biznes strukturları arasında qarşılıqlı mənəvi-etik münasibətlər, cəmiyyətdə mövcud olan ənənələrlə sıx bağlıdır. Ümumiyyətlə adı çəkilən fundamental dəyərlər və ənənələr mahiyyət etibarilə, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin prinsiplərinə və bütövlükdə bu prosesin fəlsəfəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. [33, 115] Sahibkarlıq mühütü əslində dövlət tərəfindən iqtisadiyyata müdaxilənin forma və metodlarından, pul-kredit siyasətindən, büdcə vergi siyasətindən və gömrük siyasətindən daha çox dərəcədə asılıdır.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin normal gedişi əlverişli və azad sahibkarlıq mühitinin formalaşması ilə bilavasitə bağlıdır. Beləki, bazar münasibətləri şəraitində bütün təfərrüat subyektləri bir-birindən tədric olunmuş şəraitdə deyil, sahibkarlıq mühiti çərçivəsində qarşılıqlı asılılıqda (vəhdətdə) fəaliyyət göstərir ki, bu da onların hər birinin müstəqil yerini və mövqeyini müəyyən etmiş olur.

Ölkədə sahibkarlıq fəaliyyətinin normal gedişi üçün siyasi mühit formalaşdırılmalıdır. Sahibkarlıq fəaliyyətində siyasi mühit ölkənin sosial-iqtisadi vəziyyətinə, təsərrüfat subyektlərinin fəallığına və mövqelərinə birbaşa təsir göstərir. Sahibkarlığın inkişafı Azərbaycanda dvlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə mikroiqtisadi sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab olur. Bu məqsədlə son illərdə Azərbaycanda siyasi və mikroiqtisadi sabiyliyə nail olunması, sahibkarlığın inkişafı üçün əlverişli mühit yaratmışdır.

Ölkənin bütün vətəndaşlarının azad sahibkarlıq hüququ Azərbaycan Respublikasının Konsititutsiyasında təsbit olunmuşdur. Respublikada sahibkarlığın inkişafı üçün vacob olan qanunvericilik bazası yaradılmış, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir.

Dövlət sahibkarlığın inkişafına əlverişli mühit yaratmaq və regionlarda investisiya qoyuluşunu həvəsləndirmək məqsədilə bir sıra tədbirlər (güzəştli vergi, kredit və s.) həyata keçirmişdir. Beləki, son dövrdə Azərbaycanın rayonlarında mənfəət vergisinin dərəcəsi xeyli dərəcdə azaldılmışdır.

Sahibkarlıq fəaliyyətində demoqrafik mühitin nəzərə alınması ölkədə məşğulluq səviyyəsinin müəyyən olunmasına imkan verir. Sahibkarlar öz fəaliyyətində ölkənin və əhalinin milli maraqlarını nəzərə almaq məqsədilə əhalinin sayına, artım səviyyəsinə, onların miqrasıyasına, yəni iş qüvvəsinin beynəlxalq hərəkətinə diqqətlə yanaşmalıdırlar. Respublikada keçid dövründə əmək qabiliyyətli əhalinin xeyli hissəsinin işsiz vəziyyətdə olması, onların yoxsulluq həddində yaşaması amilləri gənclərin ölkə ərazisini tərk edərək yaxın və uzaq xarici ölkələrə köçüb getməsinə təsir göstərir. Bəzən də bu amil hər bir ailədə doğum əmsalının aşağı düşməsilə şərtlənir. Sahibkarlar belə bir vəziyyəti qabaqcadan dərk edərək dövlətin demoqrafiya

siyasətinin tələblərinə daha ehtiyatla yanaşır və bu prosesin təxirəsalınmaz məsələ olduğunu nəzərə alırlar. Bir cəhətə də xüsusi diqqət yetirmək lazımdır ki, demoqrafiya mühiti dövlətlə sahibkarların qarşılıqlı münasibətləri əsasında müxtəlif mexanizmlər vasitəsilə stimullaşdırılmalıdır. Demoqrafiya mühiti sahibkarların ümumi məqsədlərinin mühüm tərkib hissəsinə çevrilməlidir.

Respublikada demoqrafiya mühitinin zəif olması bütün regionlarda əmək resurslarından istifadə olunmasına təsir edir ki, bu da həmin regionlarda sosial problemlərin ciddi xarakter almasına səbəb olur.

Ümumiyyətlə, respublikanın makro və mikroiqtisadi mənzərəsinə diqqət yetirdikdə belə məlum olur ki, əlverişli sahibkarlıq mühiti formalarını vaxtında təmin etmədən normal və davamlı (uzunmüddətli) sahibkarlıq fəaliyyətindən danışmaq mümkün deyildir. Yəni, ölkədə azad sahibkarlıq mühitinin formalaşması və ona təsir göstərən daxili və xarici amillərin düzgün tənzimlənməsi sahibkarlıq strategiyasının reallaşmasının mühüm şərtidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətlə sahibkarlıq subyektləri arasında qarşılıqlı münasibətlərin təzahürü, özünü daha çox iqtisadiyyatın ən mühüm və strateji sahəsi olan kənd təsərrüfatında daha çox büruzə verir. İqtisadiyyatın kənd təsərrüfatı bölməsi ilə dövlət arasında qarşılıqlı münasibətlər adətən müxtəlif formada özünü təzahür etdirir ki, bu təzahürlərə də ilk növbədə iqtisadiyyata dövlətin müdaxiləsi, iqtisadiyyatın dövlət tənzimlənməsi, dövlətin iqtisadi fəaliyyəti, dövlətin iqtisadi siyasəti, dövlət sahibkarlığı və iqtisadiyyatın dövlət sektoru və digər bu kimi sahələr aid edilir. Yuxarıda adı çəkilən qarşılıqlı münasibətlərin özünəməxsus spesifik xüsusiyyətləri vardır. Onlara aşağıdakılarıaid etmək olar:

-iqtisadiyyata dövlət müdaxiləsi, əsas etibarilə dolayı yolla iqtisadi vasitələri özündə əks etdirir.

-iqtisadiyyatın bu və ya digər sferalarında, o cümlədən istehsal, bölgü, mübadilə və istehlak sferalarında bütün fəaliyyəti, əsas etibarilə dövlət sektoru vasitəsi ilə həyata keçirilir.

Dövlətin bilavasitə və dolayı iqtisadi fəaliyyəti son nəticədə cəmiyyətdə dövlətlə iqtisadi fəaliyyət sahələri arasında qarşılı münasibətlərin genişlənməsinə təsir göstərir.

Makroiqtisadi tənzimləmə nəzəriyyəsinin banisi olan C.M.Keyns tərəfindən iqtisadiyyatın bütün sferalarında məcmu tələb və məcmu təklif amillərinin tarazlığının təmin olunması nəzəriyyəsi irəli sürülmüşdür. C.M.Keynsin bu modeli əsasında dünynın bir sıra ölkələrində makroiqtisadi tənzimlənmə sistemində istifadə olunur. Azərbaycanda aqrar sferanın inkişafında da dövlətin makroiqtisadi tənzimlənməsi mexanizmlərindən istifadə olunur. Xüsusilə təsərrüfat subyektlərinin fəaliyyətində həm tələb, həm də təklif amillərinin reallaşmasına əlverişli şərait yaradılır. Aqrar sahədə tələb amillərinə əsasən pul gəlirləri, alıcılıq qabiliyyəti, istehlak səviyyəsi, inflyasiya, qiymət, reklam və s. aiddir.

Göstərilən tələb amillərindən istifadə olunması bazara çıxarılan kənd təsərrüfat məhsullarının rəqabətqabiliyyətinin astmasına səbəb olacaqdır.

Bunlarla yanaşı, bazarda kənd təsərrüfatı məhsullarına olan tələbatı ödəmək üçün istehlakçı davranışına əməl olunmalıdır ki, bu da məhsulların istehlak seçiminə təsir göstərəcəkdir. Aqrar sahədə təsərrüfat subyektlərinin fəaliyyətində təklif amillərinin reallaşmasına da şərait yaradılır. **Təklif amillərinə: tələbin həcminin dəyişməsi, vergi dərəcələrinin dəyişməsi, istehsal xərclərinin səviyyəsinin dəyişməsi, investisiya, dövlətin iqtisadi siyasətinin dəyişməsi və s. daxildir. Aqrar sahədə təklif amilləri sahibkarların fəaliyyəti ilə daha çox bağlıdır. Bunları nəzərə alaraq dövlət tərəfindən sahibkarların fəaliyyəti ilə bağlı olan təklif amillərinin reallaşmasına daha çox təsir göstərilir.** Aqrar sahədə dövlətin daimi olaraq bütün problemlərin həllini öz üzərinə götürür. Kənd təsərrüfatı digər sahələrə nisbətən çətin və kapital tutumlu sahə olduğuna görə Dövlətin aqrar siyasətində qarşıda duran çətin problemlərin həll olunmasına xüsusi diqqət yetirilir.

Aqrar sahədə mövcud olan problemlərin həll olunmasında dövlət tənzimlənməsi siyasəti aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- kənd təsərrüfat məhsulları bazarda tarazlığın yaradılmasına təsir edən müdaxilələrin aradan qaldırılması;

- məqsədli dotasiyalar və güzəştli kreditlər vasitəsilə istehsalda struktu dəyişikliklərinin dəstəklənməsi;

- daxili ərzaq bazarının inhisarçı təsirlərdən qorunması;

- ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi;

- iqtisadi rayonlarda kənd təsərrüfatı istehsalının ixtisaslaşma səviyyəsinin arıtırılmasına və tarazlı inkişafına dövlət dəstəyinin artırılması;

- qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan kənd təsərrüfatı istehsalına investisiya qoyuluşlarının həcminin artırılmasına dövlət tərəfindən dəstək verilməsi;

- kənd təsərrüfatında müxtəlif təsərrüfat formalarının səmərəli fəaliyyətinə dövlət tərəfindən əlverişli şərait yaradılması.

Aqrar sferada dövlət tənzimlənməsində vergiqoyma, sığorta, qiymət, kömrük kreditləşdirmə və digər mexanizmlərdən istifadə olunur. Bunlarla yanaşı, biznes fəaliyyətinin tənzimlənməsində iqtisadi metodlar içərisində maliyyə və pul-kredit mexanizmi mühüm əhəmiyyət kəsb edir. Bazar münasibətləri şəraitində inzibati tənzimləmə metodlarından da istifadə edilir. İnzibati mexanizmlər hüquqi tənzimlənmə vasitələrini də özündə əks etdirir. Bundan əlavə, inzibati tənzimləmə alətlərinə həm də infrastruktur sisteminin formalaşdırılması ilə bağlı təşkilati strukturların yaradılması daxil edir. İnzibati tədbirlər sistemi daha çox məhdudiyyətlər sisteminin tətbiq edilməsi ilə şərtlənir ki, bu tədbirlərə qadağalar, lisenziya və məcburiyyət formalarını aid etmək olar. İnzibati tədbirlərin funksiyaları ilk növbədə rəqabət mühütünün müdafiə edilməsi, işgüzar mühütün yaradılması stabil hüquqi mühütün formalaşması, mülkiyyət hüququnun qorunub saxlanılması, iqtisadi qərarların qəbil edilməsi ilə bağlı seçim imkanlarının müəyyən olunması daxildir. İnstitusional tədbirlərə daha çox dövlət hakimiyyətinin icra strukturlarının formalaşdırılması, iqtisadi proqnozların və iqtisadi proqramların hazırlanması, məsləhətlərin göstərilməsi ilə bağlı zəruri institutların yaradılması daxildir.

Kənd təsərrüfatı məhsulları istehsalının həcminin artırılmasında daha çox iqtisadi metodlardan istifadə olunur. Lakin tənzimlənmənin inzibati metodlarından istifadə olunması iqtisadi metodların rolunun artırılmasına bilavasitə təsir göstərir. Ölkədə kənd təsərrüfatı istehsalının tənzimlənməsində dövlətin başlıca funksiyası aqrar islahatların müvəffəqiyyətlə həyata keçirilməsi və yeni təsərrüfatçılıq formalarına

əlverişli şəraitin yaradılmasıdır. Azərbaycan sənaye və aqrar yönümlü ölkə olduğuna görə həmin sahələrin bir-biri ilə əlaqələndirilməsinə dövlət dəstəyi gücləndirilməlidir.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, transformasiya prosesinin uğurla başa çatdırılması baxımından sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, onların rəqabət qabiliyyətinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Səmərəli dövlət tənzimlənməsi nəticəsində respublikamızda kənd təsərrüfatı az gəlirli sahələrindən çıxaraq yeni inkişaf mərhələsinə daxil olacaqdır.

## 1.2 Aqrobiznes fəaliyyətinin dəstəklənməsinin forma və metodları

Müxtəlif ölkələrdə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahənin dövlət tənzimlənməsinin konkret forma və metodları fərqli xarakter daşıyır. Belə ki, həmin ölkələrdə sahibkarlıq və biznes fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi yolları və mexanizmləri bir-birindən fərqlənir. Müasir bazar iqtisadiyyatı şəraitində aqrobiznes fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin məqsəd və istiqamətləri müxtəlifdir. Bu onunla əlaqədardır ki aqrobiznes fəaliyyətinin həyata keçirilməsi çoxşaxəli problemlərin həllindən daha çox asılıdır.

Kənd təsərrüfatının dövlət tənzimlənməsi və bu sahəyə yardım göstərilməsi, mahiyyət etibarilə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Bu proses inzibati, iqtisadi və təşkilati tənzimlənmə metodlarının qarşılıqlı surətdə əlaqələndirilməsi ilə şərtlənir. Kənd təsərrüfatında makro iqtisadi tənzimləmənin ən mühüm tərkib hissəsini aqrobiznes strukturlarına yardım göstərilməsi təşkil edir. Aqrobiznes strukturları prinsip etibarilə, kənd təsərrüfatı məhsullarının istehsalçılardan istehlakçılara çatdırılmasına qədərki bütün mərhələləri özündə əks etdir və səmərəli kommersiya fəaliyyətinin nəticəsi kimi səciyyələnir. [60, 139]

Aqrobiznes fəaliyyətində ərzaq məhsullarının daha səmərəli formada bazarlar vasitəsilə istehlakçılara çatdırılması və onların rəqabətqabiliyyətli məhsullarla təmin olunması başlıca rol oynayır. Kənd təsərrüfatı istehsalçıları daimi olaraq öz məhsullarının reallaşdırılması problemi ilə üzləşirlər. Həmin problemi həll etmək üçün

aqrobiznes fəaliyyəti ilə məşğul olan strukturların təkmilləşdirilməsinə və onların fəaliyyətinin genişləndirilməsinə üstünlük verilməlidir.

Bazar iqtisadiyyatının şərtlərinə uyğun gələn yeni bölgü sisteminin olmaması bu sahədə müasir marketinqin tətbiq edilməməsinə təsir göstərir ki, bu da maklerlərin, blokerlərin, komisionerlərin, küçə ticarətçilərinin sistemsiz fəaliyyətlərini aradan qaldırır. Ölkədə müasir aqrobiznes fəaliyyəti ərzaq məhsullarının, kənd təsərrüfatı xammalının topdan ticarətinin və əmtəə hərəkətinin təşkilinin yeni yollarının tapılmasını tələb edirdi.

Aqrar sahədə sahibkarlığın inkişafı şəraitində aqrobiznesin təşkilinin ən mühüm forması topdan ərzaq bazarlarının təşkili, topdan və pərakəndə ticarət müəsisələri və fərdi ticarətçilər tərəfindən rəqabət qabiliyyətli kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının alqı-satqısının həyata keçirilməsidir. Dünyanın bir-sıra ölkələrində, o cümlədən Fransada, Yaponiyada, Portuqaliyada topdan kənd təsərrüfatı məhsullarının satışı, yarmarkası və əmtəə (xammal) birjaları arasında orta mövqe tutan topdansatış bazarları fəaliyyət göstərirlər. Lakin, həmin ölkələrin aqrobiznes fəaliyyətində topdansatış ərzaq bazarına xidmət edən xüsusi anbar təsərrüfatları vardır. Topdan satış ərzaq bazarları kənd təsərrüfatı məhsullarının səmərəli ticarətində mühüm rol oynayır. Kənd təsərrüfatında topdansatış ərzaq bazarlarının yerinə yetirdiyi funksiyaları aşağıdakı kimi təsnifləşdirmək olar:

-il boyu əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması və kənd təsərrüfatı məhsullarının itkisinin azaldılması;

-kənd təsərrüfatı məhsullarını bazara çıxaran subyektlərin sabit bazar imkanlarının təşviq edilməsi;

-kənd təsərrüfatı və ərzaq məhsullarının alqı-satqısı üzrə sövdələşmələrin həyata keçirilməsi üçün vahid normal məkanın təyin olunması;

-iri şəhərlərdə sənaye mərkəzlərində və respublikanın ayri-ayri bölgələrində ərzaq məhsulları təchizatının və bölgüsünün səmərəliliyinin artırılması;

-yeni iş yerlərinin açılması, kənd yerlərindən əhalinin axınının azaldılması [58, 236].

Göstərilən funksiyaların reallaşdırılması istehsalçılar, alıcılar və vasitəçilər üçün rəqabət əsasında topdansatış əməliyyatlarının həyata keçirilməsi və tədavül xərclərinin azaldılması, kənd təsərrüfatı məhsulları və ərzaq üzrə əmtəə hərəkət sisteminin optimallaşdırılması, nəqiliyyat və informasiya təminatı üzrə zəruri şəraitin yaradılmasına imkan verir. Həmçinin topdansatış ərzaq bazarları və kənd təsərrüfatı məhsullarının istehsalçılarının fəaliyyətini nizamlamağa şərait yaradır. Topdansatış ərzaq bazarlarının tərkibinə, əsas etibarilə ərazi əlamətləri üzrə formalaşmış bazarlar, ixtisaslaşmış topdansatış ərzaq bazarları və müxtəlif məhsulların reallaşdırılması ilə bağlı universal bazarlar şamil edilir. İri ərazi topdan satış ərzaq bazarlarının fəaliyyətini təmin etmək üçün onların nəzdində xüsusi xidmət bölmələrinin yaradılması, o cümlədən informasiya-hesablama, maliyyə, hüquq, ictimai iaişə, mehmanxana təsərrüfatı, nəqiliyyat, həmçinin sertifikatlaşdırılma və məhsulun keyfiyyətinə nəzarət üçün dövlət xidmətinin formalaşdırılması zəruridir. Hazırda aqrobiznes strukturlarının optimal şəkildə fəaliyyət göstərməsi üçün bu sahəyə dövlət yardımının gücləndirilməsi və sahibkarlığın inkişafına mənfi təsir göstərən vasitələrin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Ölkədə aqrar sahədə kiçik biznesin inkişafında mövcud olan spesifik çətinliklər, istehsalçıların maraqlarının qorunması, bu sahədə inhisarçılığın və bürokratik manelərin aradan qaldırılması dövlət tərəfindən tənzimlənməlidir. Dövlət hazırkı şəraitdə sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı kənd təsərrüfatında mövcud olan inzibati bariyerlərin aradan qaldırılmasına, sağlam rəqabət mühitinin inkişaf etdirilməsinə əlverişli şərait yaradır. Belə ki, kənd təsərrüfatında kommersiya fəaliyyətinin inkişaf etdirilməsi inzibati-iqtisadi menaların aradan qaldırılması, son nəticədə transaksion xərclərin aşağı salınmasına və brotto risklərin azaldılmasına təsir göstərir. Dövlətin aqrar sferanın inkişafına daim diqqət yetirməsi və bu sahədə aqrarbiznesin üstünlüklərindən istifadə olunması ölkənin iqtisadi siyasətinin ana xəttini təşkil edir. İqtisadçı-alim B.A.Raizberqin fikrincə dövlət tərəfindən aqrar sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin aşağıdakı formalarını təsnifləşdirmək mümkündür:

- iqtisadi proses və obyektlərin dövlət tərəfindən idarə olunması;
- vergi tənzimlənməsi;

- pul-kredit tənzimlənməsi;
- büdcə tənzimlənməsi;
- dövlət proqramları və dövlət sifarişlərinin formalaşdırılması yolu ilə sosial-iqtisadi proseslərin tənzimlənməsi;
- qiymət tənzimlənməsi;
- əmək şəraitinin, əmək münasibətlərinin və əmək haqqının tənzimlənməsi;
- sosial tənzimlənmə;
- ətraf mühütün və ekoloji münasibətlərin dövlət tənzimlənməsi;
- müəyyən məhdudiyyətlər və qadağalar sistemi vasitəsi ilə sosial-iqtisadi proseslərə təsir göstərilməsi. [83, 97]

Sosial-iqtisadi proseslərdə dövlət iştirakının formaları bilavasitə dövlətin iqtisadi tənzimlənməsinin bir-başa və dolayı metodları vasitəsi ilə reallaşdırılır. İqtisadçı-alim R.Kamayevin fikrincə dövlət tərəfindən tənzimləmə tədbirləri əslində bir-başa təsir metodlarının məcmusunu özündə əks etdirir. Dövlət tərəfindən tənzimləmədə istifadə olunan bir-başa metodlar, əsas etibarilə iqtisadi seçim zamanı bir-başa qərarların qəbul edilməsinə istiqamətlənir. Dolayı müdaxilə vasitələri isə, əsas etibarilə qəbul edilən qərarlara bir-başa təsir göstərmək imkanında olmasa da, nəticə etibarilə, dolayı təsir imkanlarını özündə saxlayır. Bir-başa təsir metodlarına əsas etibarilə, subsindiyaları, dövlət sifarişlərini, qiymətləri, investitsiyaları və digərlərini aid etmək olar. Dolayı təsir metodlarına isə maliyyə, vergi, qiymət tənzimləyiciləri aid edilir. Bütövlükdə götürdükdə bu cür yanaşma inkişaf etmiş ölkələrin praktikasında kifayət qədər geniş yayılmış və ümumi xarakter daşıyır.

İqtisadçı-alimlərdən V.P.Areşin və L.Q.Xorev dövlət tənzimlənməsində aşağıdakı vasitələrdən istifadə edilməsini, o cümlədən iqtisadi proqnozlaşdırmanı, iqtisadi inkişafın proqramlaşdırılmasını, büdcə maliyyələşdirilməsini və indiqativ planlaşdırmanı vacib hesab edirlər. İqtisadi ədəbiyyatlarda milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin tənzimlənməsi və bu sahəyə dövlət yardımının iqtisadi formalarının fərqləndirilməsi kifayət qədər geniş yayılmışdır və bu zaman maliyyə kredit tədbirləri xüsusilə mühüm əhəmiyyət kəsb edir. Dövlət tənzimlənməsinin və dövlət yardımının iqtisadi problemləri xarici iqtisadçılardan P.Xininin, S.Briyonun, M.Fridmenin,

E.Polanın və digər xarici iqtisadçıların əsərlərində geniş şəkildə araşdırılmışdır. P.Xininin və M.Blauqa əsas etibarilə dövlətin iqtisadi tənzimləmə tədbirlərinin həyata keçirilməsində daha çox xalq təsərrüfatının ayri-ayri sahələrinin dəstəklənməsinə üstünlük verilməsini məqbul hesab edirlər. Dövlətin sahibkarlıq fəaliyyətində maliyyə vasitələri ilə iqtisadi cəhətdən dəstəklənməyə daha çox üstünlük verir.

Həmin vasitələrə aşağıdakıları aid etmək olar:

-sahə və sahələrarası məqsədli proqramlar çərçivəsində asniqnasiyaların həyata keçirilməsi;

-istehsal və sosial infrastrukturun inkişafına kapital qoyuluşunun maliyyələşdirilməsi;

-ayrı-ayrı məhsul növlərinin istehsalına kompensasiyaların verilməsi və maddi texniki resursların əldə edilməsi ilə bağlı əlavə xərclərin maliyyələşdirilməsi;

-təbii fəlakətdən yaranan itkilərin qarşısının alınması ilə bağlı maliyyələşmə tədbirlərinin həyata keçirilməsi;

-kredit borclarının silinməsi;

-proqressiv və güzəştli vergiqoyma sisteminin, lizinq sisteminin maliyyələşdirilməsinin həyata keçirilməsi;

-qiymət və tarif siyasətinin həyata keçirilməsi:

-subvensiyalar və subsidiyalar. [69, 121]

İqtisadçı-alimlərdən P.Masse və E.Dolan öz əsərlərində aqrobiznesin tənzimlənməsində daha çox pul-kredit tədbirlərinə üstünlük verilməsinə təklif edirlər. Bütövlükdə götürdükdə aqrobiznes fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi sistemində kredit yardımları sisteminin özünəməxsus xüsusiyyətləri vurğulanır. Bunlara aşağıdakıları aid etmək olar:

-kiçik müəsisələr üçün kreditlərin faiz stavkalarının kompensasiya edilməsi;

- büdcədən və büdcədən kənar xüsusi fondlardan istehsalçılara verilən vəsaitlərin artırılması;

- faiz dərəcələri arasında fərqin kompensasiya edilməsi;

- müəssisələrin götürdüyü kreditin faiz dərəcəsi də nəzərə alınmaqla qaytarılması;

Dövlət orqanlarının təminatı əsasında kreditləşdirmə modeli istər inkişaf etmiş ölkələrin təcrübəsində uzun müddətdir ki, tətbiq edilməlidir. Kreditləşdirmənin bu modeli bir qayda olaraq o zaman tətbiq edilir ki, borclu müəsisə bütövlükdə götürülən kreditlə bağlı etibarlı girov tətbiq edə bilmir. Bu prosesin baş verməsinin başlıca səbəbi müəsisənin daşınmaz əmlakı olan torpağın qiymətinin kifayət qədər aşağı olması və digər əmlakın isə aşağı likvitliyə malik olması ilə bağlıdır.

Təminatlı kredit sistemi vasitəsi ilə dövlət bir sira vəzifələrin həllini təmin etmək imkanına malik olur ki, bunlara aşağıdakılar aid etmək olar:

-kreditlərə tam və qismən təmininat verilməsi yolu ilə müəsisənin rəqabətə davamlılığının yüksəldilməsi;

-iqtisadiyyatın bu və ya digər sahələrini kreditləşdirən bank qurumlarının fəaliyyətinin genişləndirilməsi;

-kredit risklərinin bölüşdürülməsi;

-büdcə xərclərinin bu və ya digər şəkildə məhdudlaşdırılması;

-kreditləşmə bazarında rəqabət mühütünün formalaşması.

İxtisaslaşdırılmış kredit institutlarının yaradılması, mahiyyət etibarilə bu və ya digər sahələrin kreditləşdirilməsinə əlverişli şərait yarada bilər. İxtisaslaşdırılmış banklar vasitəsi ilə kreditləşdirmə fəaliyyəti, aqrar sahənin maliyyələşdirilməsində daha geniş yayılmışdır. Bu cür kredit institutları dünyanın bütün ölkələrində yayılmışdır. Belə bankların mühüm fərqləndirici cəhətlərindən biri ondan ibarətdir ki, onlar praktik olaraq kredit koperativlərinin bazasında yaradılır.

Ümumiyyətlə ixtisaslaşdırılmış kredit institutlarının formalaşdırılması vəsaitlərin davamlı olaraq dövriyyəsini təmin etməklə yanaşı, eyni zamanda aqrar sahədə maliyyə və pul-kredit tənzimlənməsi siyasətinin də həyata keçirilməsinə əlverişli şərait yaradır. Eyni zamanda kreditləşmə strukturları aqrar sahədə geniş təkrar istehsalın fasiləsiz şəkildə təmin edilməsinə də xidmət edir.

İqtisadçı-alim V.V.Basarovun fikrincə kiçik biznesin dəstəklənməsinin əsas mənbəələrini daxili və xarici dəstəkləmə mənbələri təşkil edir. Bu zaman daxili mənbəədən olan dəstəklər əsas etibarilə xüsusi vəsaitlərdən istifadə edilməsi, xalis gəlir və omartizasiya ayırmaları daxildir [58, 237].

Digər iqtisadçılardan M.V.Karpının fikrincə kiçik biznesin dəstəklənməsində istifadə olunan xarici mənbəələrə, əsas etibarilə dövlət büdcəsindən ayrılan vəsaitlər, maliyyə-kredit təşkilatlarının və vətəndaşların vəsaitləri daxildir [65, 216].

Kiçik biznesin və o cümlədən sahibkarlıq fəaliyyətinin dəstəklənməsində daha çox borc vəsaitlərindən istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Borc vəsaitlərindən istifadə edilməsi, əsas etibarilə özünü iki formada göstərir ki, bunlardan birincisi, cəlb olunmuş kapitalın qısa müddətli xarakter daşıması, ikincisi isə cəlb olunmuş kapitalın uzun müddətli xarakter daşıması; Kapitalın cəlb edilməsinin qısa müddətli forması dedikdə ilk növbədə dövriyyə aktivlərinin maliyyələşdirilməsi mənbəələri nəzərdə tutulur. Bu zaman əmtəə material ehtiyatlarının başa çatmamış istehsal və mövsümü xərclərinin maliyyələşdirilməsi əsas götürülür. Qısa müddətli kapitalın cəlb edilməsi zamanı əsasən kreditin kommersiya, bank, veksel kreditlərindən, təminatlı kreditlərdən, faktorinqlərdən və digər subsidiyalardan istifadə edilir. Uzun müddətli cəlb olunmuş vəsaitlər isə qeyri-maddi aktivlərin əldə edilməsinə və əsas vəsaitlərin yeniləşdirilməsinə istiqamətlənir. Bu zaman aşağıdakı mənbəələrdən istifadə edilir ki, bu mənbəələrə korporativ istiqrazlarının emusiyasını, uzun müddətli ipoteka kreditlərini, uzun müddətli borcları, maliyyə lizinqlərini və digər kreditləri göstərmək olar. Uzun müddətli kapital, əsas etibarilə kapital qoyuluşları formasında cəlb edilir.

İqtisadçı-alimlərdən N.A.Kalesnikovanın fikrincə kiçik biznesin kreditləşdirilməsində mühüm mənbəələrdən biri də əhalinin vəsaitləridir. M.Tresenin fikrincə, mahiyyət etibarilə əksər təsərrüfatların maliyyələşdirilməsində əhalinin vəsaitləri mühüm rol oynayır. Belə maliyyələşmə mənbəyi kənd təsərrüfatında çalışan işçilərin gəlirlərinin səviyyəsinin artırması ilə daha çox bağlıdır. İqtisadiyyatın aqrar sektorunda sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və bu sahəyə yardım göstərilməsi sistemində aşağıdakı əlamətlərin təsnifləşdirilməsi mühüm əhəmiyyət kəsb edir:

-yaranma mənbəələri üzrə;

-təsərrüfat fəaliyyəti obyektləri üzrə;

-tənzimlənmə tədbirləri üzrə;

-tənzimləmə və dəstəklənmə istiqamətləri üzrə;

-təsir vasitələri üzrə;

-təzahür formaları üzrə;

Aqrobiznes fəaliyyətinin dəstəklənməsi ilə bağlı yuxarıda adı çəkilən mənbəələrlə yanaşı ictimai strukturların vəsaitləri də mühüm rol oynayır. İctimai strukturların vəsaitləri dedikdə qeyri-kommersiya fəaliyyət ilə məşğul olan qrumların və eləcədə beynəlxalq təşkilatların vəsaitləri nəzərdə tutulur. Həmin ictimai qrumalar və beynəlxalq təşkilatlar iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında öz kapitalları ilə iştirak edirlər. Lakin, belə ictimai strukturların mənbələri gənc milli dövlətlər üçün kifayət qədər geniş yayılmışdır. Bir sıra hallarda xarici ölkələrin təcrübəsindən yararlanmaqla aqrobiznesin inkişafına nail olmaq mümkündür.

Yuxarıda qeyd olunan cəhətləri ümumiləşdirən aqrobiznes və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və ona yardım göstərilməsini aşağıdakı kimi təsnifləşdirmək olar:

Subyektlərin növləri üzrə:

-dövlət;

Bazar münasibətlərinin subyektləri üzrə:

-ictimai strukturlar;

-beynəlxalq təşkilatlar;

-əhali;

Fəaliyyət müddəti üzrə:

-qısa müddətli (bu zaman yardım və tənzimləmə sistemləri 1 il müddəti əhatə edir.);

-uzun müddətli (bu zaman tənzimləmə və yardım tədbirləri sistemi, əsas etibarilə 1 ildən yuxarı dövrü əhatə edir);

-müddətsiz ( bu zaman yardım və tənzimləmə tədbirlərinin konkret fəaliyyət müddəti müəyyənləşdirilmir. );

Yardımların verilməsi ardıcıllığı üzrə:

- mövsümü (bu zaman istehsalın mövsümü xarakterinə uyğun olaraq yardımlar da mövsümü şəkildə verilir);

- davamlı (bu zaman istehsalın həcmindən və digər amillərdən asılı olmayaraq davamlı şəkildə yardım tədbirləri həyata keçirilir.)

- eyni vaxtda (bu zaman yardımlar birdəfəlik şəkildə göstərilir.)

Zərurilik dərəcəsi üzrə:

- məcburi;

- könüllü;

Ödəniş dərəcəsinə görə:

- pullu;

- pulsuz;

- güzəştlərin verilməsi yolu ilə;

Qaytarılmaq dərəcəsinə görə.

Bu zaman yardımlar qaytarılmaq və qaytarılmamaq şərti ilə verilir. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və bu sahəyə yardım göstərilməsi sisteminin təsnifatı, aşağıdakı sxemdə göstərilmişdir.

**Sxem 1**. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və bu sahənin dəstəklənməsi sisteminin təsnifləşdirilməsi



Aqrar sahədə sahibkarlıq və biznes fəaliyyətinin dəstəklənməsi digər sahələrin inkişafına da təsir göstərir. Belə ki, ölkə iqtisadiyyatının bütün sahələrinin kompleks formada inkişafı, daxili və xarici bazarların fəaliyyətinin səmərəlilik prinsipi əsasında qurulması əhalinin zəruri ərzaq məhsullarına olan tələbatın ödənilməsi və aqrar sferada ardıcıl olaraq struktur siyasətinin aparılması dövlətin aqrar siyasətinin strateji xəttidir. Aqrar sahədə biznes mühitinin formalaşması kənd təsərrfatı məhsullarının marketinq imkanları əsasında reallaşdırılmasına təkan verir. Aqrar biznesin inkişafı istehsal, tədarük, emla və istehlakçılar arasında qarşılıqlı bir sistem yaradır. Aqrar sahədə aqrobiznesin genişlənməsi aqrar bazarın fəaliyyətindən daha çox asılıdır.

Azərbaycanda gələcək dövr üçün aqrobiznesin təkmilləşdirilməsi məqsədilə aşağıdakı istiqamətlərə diqqət yetirilməlidir:

- aqrobiznesin inkişafı və ona dəstək verilməsi üzrə xüsusi dövlət proqramlarının hazırlanmasına xüsusi diqqət yetirilməlidir;

- aqrar sahədə vergi siyasətinin ardıcıl olaraq təkmilləşdirilməsi sisteminə daha çox üstünlük verilməlidir;

- kənd yerlərindən əhalinin alıcılıq qabiliyyətini stimullaşdırmaq məqsədilə aqrobiznesin və sahibkarlığın bütün formalarından istifadə olunmalıdır;

- aqrobiznes fəaliyyətinin xarici əlaqələr sistemində rolunan artırılması dövlət tərəfindən tənzimlənməlidir;

- aqrobiznes fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması təmin olunmalıdır;

- aqrobiznesin gələcəkdə azad iqtisadi zonalarla əlaqələndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Azad iqtisadi zonalarda fəaliyyət göstərən müxtəlif biznes subyektlərinin hər birinin özünəməxsus maraqları vardır. Bunu aşağıdakı cədvəldən görmək olar:

Cədvəl 1.1.

| **Biznes subyektləri** | **Işgüzar maraqlar** | **Biznesin əsasları** |
|---|---|---|
| Sahibkarlar | Gəlirlərin əldə edilməsi | İstehsal vasitələri üzərində şəxsi mülkiyyət |
| İstehlakçılar | İstehlak tələbatlarının ödənilməsi | İstehlak vasitələri üzərində şəxsi mülkiyyət |
| Muzdla işləyənlər | Şəxsi gəlirlər | Şəxsi mülkiyyət |
| Dövlət strukturları | Ümumi dövlət proqramlarının reallaşdırılması | İstehsal vasitələri üzərində dövlət mülkiyyəti |

Azad iqtisadi zonaların inkişafında kiçik və orta biznesin rolu olduqca böyükdür. Kiçik biznesin inkişafını şərtləndirən mühüm cəhətlərdən biri onun mobilliyi, çevikliyi və iri şirkətlərin fəaliyyəti ilə qarşılıqlı əlaqədə olmasıdır. Azərbaycanda aqrobiznesin fəaliyyətində vençur biznesinin inkişafına daha çox üstünlük verilməlidir. Vençur biznesində elmtutumlu sahələrin inkişafına xüsusi diqqət yetirilməli və texniki, maliyyə, iqtisadi və siyasi risklər ön plana çəkilməlidir.

Aqrar bazar tənzimləmə mexanizmi ilə dövlət tənzimlənməsi metodlarının optimal şəkildə uyğunlaşdırılması kənd təsərrüfatı məhsullarının istehsalında və reallaşdırılmasında mövcud olan problemlərin aradan qaldırılmasına əlverişli şərait yarada bilər.

İqtisadçı-alim S.V.Ksilyovun fikrincə aqrar sahənin tənzimlənməsinin mühüm formalarından biri aqrar proteksianizm prinsipindən istifadə edilməsi hesabına dövlət yardımlarının həyata keçirilməsi ilə bağlıdır. Bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələrdə aqrar sahənin səmərəli fəaliyyətinin təmin edilməsində aqrar proteksianist tədbirlərdən də geniş şəkildə istifadə edilir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, aqrar böhranlardan çıxışın ən başlıca vasitəsi kimi aqrar protaksianist vasitələrindən istifadə olunmalıdır. Aqrarbiznes fəaliyyətində proteksionist tədbirlər ilk növbədə kənd təsərrüfatı məhsullarının qiymətlərinin tez-tez dəyişməsi ilə bağlıdır. Bu baxımdan ardıcıl olaraq  digər sahələrlə müqayisədə kənd təsərrüfatı məhsullarının qiymətlərinin dəyişməsi tənzimlənməlidir.

İ.e.d professor S.V.Salahov öz tədqiqatında aqrar iqtisadiyyatın dövlət tənzimlənməsində aqrar proteksianizm prinsipinə üstünlük verir. Aqrar proteksianizm siyasətinin başlıca məqamlarından biri ölkənin ərzaq asılılığının qarşısının alınmasına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmanət yaratmaqdan ibarətdir. Aqrar proteksianizmin prinsipinin səmərəli tətbiqi əsasən dövlət tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi vasitəsi ilə reallaşdırılır. Bu prinsipin kompleks şəkildə reallaşdırılması təkcə kənd təsərrüfatının deyil, həm də iqtisadiyyatın digər sferalarının səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır. Aqrar proteksianizmin tərkibinə təkcə yerli kənd təsərrüfatı məhsullar istehsalının daxili aqrar bazarın müdafiə edilməsi deyil, eyni zamanda aqrar bölmənin bütün sahələrinin

iqtisadi cəhətdən etibarlı şəkildə qorunması da daxildir. Odur ki, dövlət tərəfindən həyata keçirilən təşkilati iqtisadi tədbirlər aqrar bölmədə istehsal edilən bütün məhsullarının, həmçinin aqrar bölməyə xidmət edən kənd təsərrüfatı maşınqayırma sənayesinin, kənd təsərrüfatının maddi texniki bazasının təmin olunmasının müdafiə olunmasını əhatə edir.

Aqro proteksianizm siyasətinin tərkibində əsas xüsusi çəkini ərzaq proteksianizmi təşkil edir. Ərzaq proteksianizmi, ərzaq məhsulları bazarının qorunmasına xidmət edir. Ərzaq kompleksində proteksianist meyllər, ölkənin öz əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində heç bir xarici dövlətdən asılı olmamasına yönəldilmiş olur. Tarixən aqrar proteksianizm siyasəti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş tədbirlərdən biri olmaqla, bütövlükdə ölkənin milli təhlükəsizliyinin qorunmasına xidmət etmişdir. (45, 236).

## 1.3. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin ümumi xarakteristikası

İqtisadiyyatın ən mühüm  və strateji əhəmiyyətli sahələrindən biri olan kənd təsərrüfatının hər bir ölkə üçün özünəməxsus tənzimlənmə və dəstəklənmə siyasəti mövcuddur. Bu siyasət ilk növbədə iqtisadi sistemin xarakterindən, dövlətin iqtisadi siyasətinin prioritetlərindən və ən nəhayət ölkənin təbii etnik xüsusiyyətlərindən bilavasitə aslıdır. Lakin bununla belə bütövlükdə kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi və tənzimlənməsi prosesinin özünəməxsus ümumi cəhətləri mövcuddur ki, bu cəhətlər də ilk növbədə bu sahədə vəsaitlərin nisbətən ləng dövriyyəsi və kredit risklərinin yüksək olması ilə sıx bağlıdır. Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı dövlət tərəfindən hər tərəfli dəstəkləndiyi şəraitdə səmərəli fəaliyyət göstərmək imkanına malik olur. Kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsində ilk növbədə kiçik və orta sahibkarlığın dəstəklənməsi ön plana çəkilməlidir. Kiçik və orta sahibkarlığın inkişafında dövlət siyasətinin ən mühüm prinsiplərindən biri də qarşıya qoyulan məqsəd və vəzifələrin mövcud olan reallıqlara tam mənası ilə uyğunlaşdırılmasıdır. Bu hər şeydən əvvəl iqtisadiyyatın

mövcud durumu, büdcə siyasətinin vəziyyəti, istehsal münasibətlərinin xarakteri, mülkiyyət münasibətlərinin vəziyyəti, infrastruktur sisteminin vəziyyəti və s. amillərlə bağlıdır [65, 95].

Kənd təsərrüfatında kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi dedikdə, ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının səmərəli fəaliyyət göstərmələri və bütövlükdə aqrar sahənin davamlı inkişafının təmin edilməsi məqsədi ilə, iqtisadi, hüquqi və təşkilati mühütün yaradılması nəzərdə tutulur. Bu sistemə respublika, region və yerli səviyyədə müxtəlif qanunverici və icraedici hakimiyyəti strukturları şamil edilir.

Ölkənin milli iqtisadiyyatın inkişafında və onun tənzimlənməsində investisiya qoyuluşlarınında mühüm rolu vardır.

Azərbaycanın müstəqil milli iqtisadiyyatının formalaşmasında xarici və daxili investisiya qoyuluşlarının mühüm rolu vardır. Son dövrdə Azərbaycan dünya ölkələri içərisində investisiya alan ölkədən, investisiya qoyan ölkəyə çevrilmişdir. Buna görə də hazırda ölkədaxili sərmayələrin ən böyük hissəsi məhz Azərbaycanın özünə məxsusdur. Bu problem ölkənin bütün regionalarında da özünü qabarıq surətdə büruzə verir. Dövlətin məhz səmərəli investisiya siyasəti nəticəsində regionlarda çoxsaylı işgüzar müəssisələri yaradılmış və sosial-iqtisadi inkişafda əsaslı irəliləyiş baş vermişdir. Hər bir sahədə olduğu kimi investisiya fəaliyyəti ilə bağlı həyata keçirilən bütün tədbirlər dövlətin investisiya siyasətinin təzahürü kimi xarakterizə olunur. Dövlətin investisiya siyasəti başlıca olaraq əlverişli investisiya mühitinin yaradılması ilə bağlıdır.

Qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasında investisiya fəaliyyətinin dövlət tənzimlənməsində başlıca məqsəd vahid iqtisadi, elmi – texniki və sosial siyasətin yeridilməsindən ibarətdir.

Azərbaycanda uzunmüddətli dövr üçün dayanıqlı və tarazlı inkişafın təmin ediliməsində inestisiya qoyuluşlarından səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. İnvestisiya qoyuluşlarının kim tərəfindən həyata keçirilməsindən asılı olaraq onun dövlət, şəxsi, xarici növləri fərqləndirilir. Daxili mənbələr əsasən dövlət və yerli büdcə vəsaitlərindən, təsərrüfat subyektlərinin bütün

növ fəaliyyətindən əldə olunan gəlirdən, həmçinin ayrı-ayrı fiziki şəxslərin vəsaitlərindən ibarətdir.

Bəzən zəruri hallarda investisiyaların cəlb edilməsi üçün dövlət daxili və xarici mənbələrdən istifadə edir ki, bu da milli iqtisadiyyatın formalaşmasında və inkişafında öz rolunu oynayır. Milli iqtisadiyyatın istər sahə strukturunun, istərsə də texnoloji strukturunun təkmilləşməsində daxili və xarici investisiya qoyuluşlarından hərtərəfli istifadə olunur. İnvestisiya qoyuluşu milli iqtisadiyyatın hər hansı bir sahəsinin mənfəətlilik səviyyəsilə müəyyən edilir. Eyni zamanda investisiya üstünlüyü sahə və regionların potensial imkanlarından hansı səviyyədə istifadə olunması imkanları ilə müəyyən olunur. Ona görə də milli iqtisadiyyatın inkişafında tətbiq oluna investisiyalar təyinatından asılı olaraq onlar müxtəlif mənfəətlilik səviyyəsinə malik olurlar. Belə ki, dövlət ə qeyri-dövlət mənbələrindən tətbiq olunan investisiyalar öz dövriyyə sürətinə görə və mənfəətlilik səviyyəsinə görə fərqləndirilir. İnvestisiyaların qeyri-dövlət mənbələri hər şeydən əvvəl kapitalın sürətli dövriyyəsilə seçilən yüksək rentabelli sahələrdir.

İqtisadiyyatın aşağı rentabelli sahələrinə daxili və xarici investisiyaların tətbiq olunması qeyri məqsədə uyğundur. Lakin buna baxmayaraq investisiyaların tətbiqi və onların həddi milli mənafelərin reallaşması ilə uzlaşmamalıdır. Belə ki, həddindən artıq investisiyaların qoyuluşu inflyasiya prosesinin güclənməsinə və iqtisadiyyatda həddindən artıq gərginliyin yaranmasına səbəb olur. Digər tərəfdən isə lazım olduğundan az investisiya qoyuluşu isə deflyasiyaya gətirib çıxarır. Bunu nəzərə alaraq milli iqtisadiyyatın inkişafı və formalaşması ilə əlaqədar həyata keçirilən iqtisadi siyasət tətbiq olunacaq daxili və xarici investisiyaların optimal həcmini müəyyənləşdirməlidir. Belə bir şəraitdə dövlət tərəfindən tətbuq olunan vergi dərəcələri, dövlət məsrəfləri, pul-kredit və büdcə-vergi sahəsində həyata keçirilən tədbirlərin səmərəli strategiyası özünü göstərir.

Azərbaycan iqtisadiyyatının davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsidir. Artıq bir neçə ildir ki, Azərbaycan iqtisadiyyatında mütərəqqi irəliləyişlər baş vermişdir. Belə ki, son illərdə çoxsaylı Dövlət Proqramına uyğun olaraq ölkənin sosial-iqtisadi

inkişafında baş verən dəyişikliklər bir daha qeyri-neft sektoruna yönəldilən xarici və daxili investisiyaların səmərələlik dərəcəsi ilə müəyyən olunur Artıq son dövrdə Azırbaycan dünya ölkələri tərəfindən investisiya yönümlü ölkə kimi tanınmışdır. Ölkədə “Xarici investisiyaların qorunması” haqqında və “İnvestisiya fəaliyyəti” haqqında Azərbaycan Respublikası qanunlarının tələb və prinsiplərinə uyğun olaraq iqtisadiyyatın bütün sferalarında xarici və daxili investisiya qoyuluşları öz səmərələlik imkanlarını büruzə vermişdir. 2004-cü ildən bu günə qədər ölkə iqtisadiyyatına 90 milyard dollardan çox investisiya qoyulmuşdur. Təkcə 2012-ci ildə iqtisadiyyatın müxtəlif sahələrinə yatırılan investisiyaların məbləği 16 milyard dollara çatmışdır. Belə bir sərmayenin il ərzində qoyulması böyük əhəmiyyət kəsb edir. Son illər Sahibkarlığa Kömək Milli Fondu xətti ilə iqtisadiyyatın inkişafına 100 milyon manatdan çox vəsait ayrılmışdır. Bu məbləğ il ərzində 200 milyon manat təşkil etmişdir. Növbəti 2013-cü il ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan vəsaitin məbləğinin 300 milyon manata çatdırılması nəzərdə tutulur. Ölkədə xarici və daxili investisiya qoyuluşlarının həcminin müntəzm olaraq artırılması iqtisadiyyatın daha da şaxələndirilməsinə və real sektorun hərtərəfli inkişafına təsir göstərir. Ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcminin mütəmadi olaraq artırılmasının başlıca məqsədi dövlətin investisiya siyasətinə uyğun olaraq dövlətlə özəl sektor arasında əlaqə və münasibəti daha da gücləndirilməkdir. Belə ki, Sahibkarlığa Kömək Milli Fondunun xətt ilə həyata keçirilən layihələrin hamısı dövlətin və özəl sektorun kapitalı hesabına həyata keçirilir. Eyni zamanda iqtisadi inkişafda sahibkarın rolu onların qoyduqları investisiyaların həcminə görə müəyyən edilir. Hazırda iqtisadiyyatın inkişafının təkcə neft gəlirlərinin hesabına deyil, qeyri-neft sektorunun formalaşması hesabına təmin edilməsi dövlətin başlıca strateji məqsədinə çevrilmişdir. Dövlətin iqtisadi siyasətində neftdən əldə olunan gəlirlərin hesabına qeyri-neft soktorunun inkişaf etdirilməsi başlıca yer tutur. Eyni zamanda dövlət qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi məqsədilə digər maliyyə mənbələrini aşkar edir və prioritet üstünlüyə malik olan sahələrin formalaşmasına yönəldir. 2013-cü il ərzində qeyri-neft sektorunun inkişafı 10,5 % təşkil etmişdir.

Son dövrdə Azərbaycanın bir neçə xarici ölkələrlə iqtisadi və elmi-texniki əlaqələri daha da genişlənmiş, ikiqat vergi tutma aradan qaldırılmış və Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb olunmasına əlverişli mühit yaranmışdır. Bunun nəticəsidir ki, 1995-2013-cü illərdə ölkə iqtisadiyyatına 119 milyard dolları investisiya qoyulmuşdur ki, bunun da 63 milyardını xarici investisiyalar təşkil edir. 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 25,5 milyard dolları qeyri-neft sektorunun, 37,5 milyard dollar isə neft sektorunun inkişafına yönəldilmişdir.

Son illərdə daxili və xarici investisiyaların həcmində qeyri-neft sektorunun inkişafına ayrılan vəsaitlərin məbləğində nisbətən azalma meyli müşahidə olunur ki, bunun da bir sıra təşkilati, iqtisadi və idarəetmə ilə bağlı olan səbəbləri vardır. Ölkədə qeri-neft sektorunun inkişafında bir sıra prioritet üstünlüyə malik olan məsələlərə xüsusi diqqət yetirilməlidir. Onlara aşağıdakıları aid etmək olar:

- Qeyri-neft sektorunun inkişafında rəqabət qabiliyyətli məhsulların istehsalına investisiya qoyuluşları dövlət tərəfindən tənzimlənməlidir;
- qeyri-neft sektorunun inkişafında ixrac yönümlü məhsul istehsal edən sahələrə investisiya qoyuluşlarının həcmi daha da artırılmalıdır;
- qeyri-neft sektoru sahələrinin tarazlı (balanslı) və proporsional inkişafına qoyulan inestisiyalar dövlət tərəfindən tənzimlənməlidir;
- Daxili resurs sərfi əmsalının (DRS) tələblərinə uyğun olaraq potensial rəqabət qabiliyyətli məhsulların istehsalına investisiya qoyuşlarının həcmi artırılmalıdır (aqrar bölməyə, sənayeyə, tikintiyə aid olan sahələr);
- Ölkə iqtisadiyyatına müasir texnika və texnologiya, lizinq, innovasiya, nou-haular formasında birbaşa xarici investisiyaların cəlb olunmasına daha çox üstünlük verilməlidir;

- Dünya bazarında rəqabətə davamlı və beynəlxalq keyfiyyət standartlarına cavab verən məhsulların istehsalına daha çox investisiya yönəldilməlidir.

Göstərilən tövsiyyələr bir daha ölkədə qeyri-neft sektorunun hərətərfli inkişafına və həmin sahələrdən əldə olunan gəlirlərin artmasına təsir göstərəcəkdir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafında reogionların tarazlı və proporsional inkişafı da mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair (2004-2008-ci illər və 2009-2013-cü illərdə) Dövlət Proqramlarının tələblərinə uyğun olaraq ölkənin bütün rayonlarının sosial-iqtisadi inkişaf istiqamətində mühüm addımlar atılmışdır. Müasir infrastruktur sistemi formalaşmış, yeni istehsal və xidmət sahələri yaranmış, əhalinin məşğulluq səviyyəsində xeyli dərəcədə irəliləyiş baş vermişdir.

2009-cu ildən başlayaraq regionlarda sahibkarlığın hərtərəfli inkişafına qoyulmuş xarici və daxilu investisiyaların həcmi ardıcıl olaraq artmışdır. 2013-cü ildə ÜDM-də özəl sektorun 85,2% təşkil edir. Son ildə ölkədə yeni açılmış iş yerlərinin 96,3%-i özəl sektorun payına düşür. 2004-2013-cu illərdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlıq və biznes fəaliyyətinə 700 milyon manat həcmində güzəştli kreditlər verilmişdir. Həmin kreditlərin 80%-i regionların payına düşür. 2013-cü ildə regionlarda 170-dən çox yeni müəssisə istifadəyə verilmiş və hazırda 450-dən çox müəssisələrin yaradılması davam etdirilir.

Xarici investisiyalardan istifadə etməklə regionlarda investisiya qoyuluşunun daha da gücləndirilməsinə daha çox üstünlük verilməlidir. Bu öz fəaliyyətini dayandırmış yerli müəssisələrinin dirçəldilməsinə, milli məhsuluna istehsalına yardımçı olardı. Regionlarda investisiya qoyuluşunu həyata keçirərkən xarici dövlətlərdən və beynəlxalq maliyyə qurumlarından alınmış kreditlərdən istifadə olunmasına üstünlük verilməlidir. Bunların vasitəsilə müxtəlif mülkiyyət formalarının inkişafına, xüsusi təsərrüfat formalarının yaradılmasına, azad sahibkarlığın genişlənməsinə nail olmaq olar. Digər tərəfdən kreditlər hesabına respublikasnın iqtisadi və sosial infrastrukturu formalaşır və regionlar arasında səmərəli iqtisadi əlaqələr qurular.

Gələcək dövr üçün xarici investisiya hesabına iqtisadiyyatın digər sahələrinin inkişafı və dirçəlməsinə daha çox diqqət yetirilməlidir. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

1. Regionlarda aqrar sektorun inkişafına xüsusi fikir verilməli və xarici investisiyaların bu sektora yönəldilməsi təmin edilməlidir. Bu proses regional inkişafın prioritet üstünlüyə malik olmasını bir daha təsdiq etmiş olar.

2. Neft sənayesinə qoyulmuş xarici investisiyalardan gələn mənfəətin digər sahələr də qoyulması üçün həvəsləndirici tədbirlər görülməli, buna əlverişli şərait yaradılmalıdır. İstehsal müəssisələri ilə yanaşı emal müəssisələrinin də fəaliyyət göstərməsinə investisiya qoyulmalıdır.

3. Azərbaycanın milli iqtisadiyyatının vahidliyinə, tamlığına nail olmaq üçün regionlar arasında iqtisadi əlaqələrin optimallığı təmin olunmalı və ərazi əmək bölgüsü sistemi daha da dərinləşməlidir.

4. Qeyri-neft sektorunun inkişafına yönəldilən investisiya qoyuluşlarının artırılmasına dövlət himayəsi güclənməlidir.

5. Ölkədə qarışıq bazar iqtisadiyyatı modelinin üstünlüklərindən daha çox istifadə olunmalıdır. Belə ki, dövlət sektoru ilə özəl sektorun birgə fəaliyyət proqramlarının və iqtisadi tənzimləmə mexanizmlərinin işlənib hazırlanmasına daha çox üstünlük verilməlidir.

Dövlətin qeyri-neft sektorunun inkişafına yönəldilmiş səmərəli siyasətinin reallaşdırılmasında sahibkarlıq fəaliyyətinin mühüm rolu vardır.

Ümumiyyətlə, respublikanın bütün rayonlarında da dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verilir ki, bu da həmin regionlarda istehsal, sosial və bazar infrastruktur sisteminin hərtərəfli inkişafına təkan verir. Azərbaycanda milli iqtisadi inkişaf modelinin müxtəlif bloklarına nəzər saldıqda, əsas aparıcı amil kimi sahibkarlıq fəaliyyətinə xüsusi önəm verilməlidir. Bu baxımdan dövlət ölkənin mikroiqtisadi sferalarında sahibkarlığın bütün növlərinin (istehsal, ticarət, xidmət və s.) hərətərəfli inkişafına xüsusi diqqət yetirir və ona maliyyə dəstəyi verir. Son illərdə ölkənin milli iqtisadi inkişaf modelinin reallaşmasında sahibkarlıq fəaliyyətinin daha da aktivləşməsi nəticəsində ümumi

daxili məhsulda özəl sektorun xüsusi çəkisi 85,0% təşkil etmişdir. Azərbaycanın milli-iqtisadi inkişaf modelində qeyri-neft sektoru sahələrində sahibkarlığın hərtərəfli inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Bu baxımdan qeyri-neft sektoru sahələrində sahibkarlıq fəaliyyətinin inkişafına istiqamətləndirilmiş uzunmüddətli investisiya qoyuluşu proqramı (layihələri) işlənib hazırlanmışdır.

Gələcəkdə Azərbaycanda milli-iqtisadi inkişaf modelinin reallaşmasında sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi məqsədilə aşağıdakı təklif və tövsiyyələrin nəzərə alınması daha məqsədəuyğun olardı:

- milli iqtisadi inkişaf modelini reallaşdırmaq məqsədilə dövlət əmlakının özəlləşdirilməsi prosesi sürətləndirilməli və ona təsir edən maneələr aradan qaldırılmalıdır;

- ölkə iqtisadiyyatına xarici və daxili investisiya qoyuluşları sahə və regionlar üzrə müvazinətli (tarazlı) qaydada aparılmalıdır;

- daxili bazarı qorumaq və onun milli məhsullarla bolluğunu təmin etmək məqsədilə iqtisadiyyatı bütün sahələrinin inkişafına investisiya qoyuluşu siyasətinə üstünlük verilməlidir;

- ölkədə istehsal sahibkarlığının dövlət tərəfindən daha geniş fəaliyyətinə maliyyə dəstəyi verilməli, onlara şəffaf rəqabət mühiti yaradılmalıdır;

- milli iqtisadi inkişaf modelində regional sahibkarlığın hərtərəfli inkişafına daha çox üstünlük verilməlidir.

Göstərilən təklif və tövsiyyələrin vaxtında nəzərə alınması milli iqtisadi inkişaf strategiyasının səmərəli formada reallaşmasına əlverişli təsir göstərə bilər.

Kənd təsərrüfatında kiçik və orta sahibkarlığın inkişafına münasibətdə dövlətin tənzimləmə fəaliyyətinin qarşısında duran vəzifələrə aşağıdakıları aid etmək olar:

-aqrar iqtisadiyyatda rəqabət mühütünün qorunub saxlanılması və inkişaf etdirilməsi;

-kənd təsərrüfatında kiçik və orta sahibkarlığın yaranması və inkişaf etməsi üçün dövlət tərəfindən əlverişli şərait yaradılması;.

-öz biznesi üçün məsuliyyəti öz üzərinə götürən hər bir işgüzar subyektlərin fəaliyyətinin bərabər hüquqlu formada fəaliyyətinin təmin edilməsi;

-sahibkarlıq fəaliyyətində yeni iş yerlərinin açılmasına üstünlük verilməsi;

- kənd təsərrüfatında kiçik və orta biznesin davamlı inkişaf etdirilməsinə dair dövlət proqramlarının işlənib hazırlanması və onun reallaşdırılma istiqamətlərinin müəyyən olunması;

-sahibkarlığın inkişaf istiqamətlərinin müəyyən olunması və ona dövlət dəstəyi verilməsi.

Kənd təsərrüfatında innovasiyaların müdafiə edilməsi, ilk növbədə elit toxumçuluğun və cins maldarlığın inkişaf etdirilməsini özündə əks etdirir. Bundan əlavə, kənd təsərrüfatı ilə qarşılıqlı əlaqəyə malik olan sahələrin, o cümlədən emal sənayesində mütərəqqi texnalogiyaların tətbiqi, nəticə etibarilə, əmək məhsuldarlığının yüksəldilməsinə, məhsulun keyfiyyətinin artırılmasına və məhsul vahidinə sərf olunan istehsal xərclərinin səviyyəsinin aşağı salınmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan kənd təsərrüfatında innovasiyaların dəstəklənməsi müasir şəraitdə dövlət tənzimlənməsinin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir. Bu baxımdan kənd təsərrüfatında elmi texniki tərəqqinin ən yeni nəaliyyətlərinin istehsalda tətbiqinin stimullaşdırılması, nəticə etibarilə, rəqabətə davamlı istehsalın yenidən qurulmasının başlıca ilkin şərti kimi çıxış edir. [73, 225]. Kənd təsərrüfatının dövlət tənzimlənməsində ilk növbədə kiçik və orta sahibkarlıq mühütünün inkişaf etdirilməsi, ərzaq bazarında azad rəqabət mühütünün dəstəklənməsi üçün ümumi əlverişli şəraitin yaradılması hazırki dövrün tələbidir. Bunları nəzərə alaraq sahibkarlığa mane olan inhisarçılıq meylləri və əsassız müdaxilələr aradan qaldırılmalıdır. Daha doğrusu məhsul bazarlarında mövcud olan inhisarçılıq meylləri nəticə etibarilə, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatında əmtəə istehsalçılarının bazara çıxış imkanlarını məhdudlaşdırır. Bu isə son nəticədə bazarda qiymətlərin səviyyəsinə öz təsirini göstərir və qiymətlərin səviyyəsində bahalaşma meylləri özünü göstərir ki, belə halda istehlakçılar zərər çəkir. Odur ki, ərzaq bazarında azad rəqabət mühütünün dəstəklənməsi məqsədi ilə, kənd təsərrüfatında əmtəə istehsalçılarının bazara çıxış

imkanları üçün bərabər hüquqlu şərait yaradılmalı, bazarın inhisarçı qrumlardan təmizlənməsi məqsədi ilə, dövlət strukturları və hakimiyyət orqanları tərəfindən zəruri tədbirlərin işlənib hazırlanmalıdır. Bu məqsədlə ölkə başçısı İ.H.Əliyev cənəblarının "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması" haqqında fərmanında qeyd edilir ki, hazırda ölkədə ümumi daxili məhsul istehsalının 71 faizi, o cümlədən sənayedə 50 faizi, kənd təsərrüfatında və ticarətdə 99 faiz özəl bölmənin payına düşür. Lakin sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə baxmayaraq bu sahədə bir sıra problemlər hələ də tam aradan qaldırılmamışdır. Bu gün sahibkarlığın dövlət tənzimlənməsini həyata keçirən bir sıra mərkəzi şəhər və rayon İcra Hakimiyyəti orqanlarının işi qənaətbəxş sayıla bilməz.

Təhlil göstərir ki, kənd təsərrüfatında mövcud olan problemlərin, xüsusilə ərzaq bazarında özünü göstərən ən mühüm problemlərin yaranmasının başlıca ilkin şərtlərindən biri də aqrar bazar infrastrukturların zəif inkişaf etməsidir. Aqrar bazar infrastrukturları xüsusilə məhsulun daşınması, saxlanması, istehlakçılara çatdırılması ilə bağlı zəruri funksiyalar yerinə yetirir. Lakin, təəssüf ki, respublikamızda kiçik və orta biznesin inkişafı sahəsində zəruri infrastruktur sistemi hələ də yaradılmamış və bu sahədə kifayət qədər ləngliyə yol verilmişdir. Hal-hazırda kənd təsərrüfatı da əmtəə istehsalçılarının səmərəli təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, mövsüm zamanı qiymətlərin səviyyəsinin sabitləşdirilməsi və idxalın əhəmiyyətli şəkildə əvəzlənməsi üçün saxlanma kameralarının yaradılması olduqca zəruridir. Saxlanma kameralarının yaradılması üçün təxminən 500-800 min dollar arasında vəsaitin olması tələb olunur. Bütövlükdə götürdükdə həmin vəsait hesabına kənd təsərrüfatında bu və ya digər məhsulu 6 aydan, 2 ilə qədər saxlamaq mümkündür ki, bu da son nəticədə məhsulun keyfiyyəti şəkildə istehlakçılara çatdırılmasında və qiymətlərin səviyyəsinin sabitləşdirilməsində və ən başlıcası idxalın əvəz edilməsində mühüm rol oynaya bilər. Aqrobizneslə məşğul olan bütün sahibkarlar il boyu ərzaq məhsullarını saxlamaq imkanına malikdirlər [79, 151].

Kənd təsərrüfatının təbii iqlim şəraitindən asılı olması bu sahədə sahibkarlığın digər sahələrə nisbətən fərqləndirici xüsusiyyətlərini meydana çıxarır (84.215).

Kənd təsərrüfatında sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri daha çox kənd təsərrüfat texnikasının alınması, suvarma sisteminin qurulması, toxum sortlarının əldə olunması əksinə yararlı sahələrin stimullaşdırılması, gübrələrin əldə olunması, hazır məhsulların reallaşdırılması, heyvandarlıq və quşçuluq təsərrüfatlarının yaradılması və idarə olunması və digər işlərlə məşğul olurlar.

Kənd təsərrüfatında aqrotexniki tədbirlərin müəyyən zaman kəsiyində yerinə yetirilməsi, toxumların, müxtəlif materialların, yemlərin, neft məhsullarının, ehtiyat hissələrinin və az qiymətli inventarların mövcudluğundan bilavasitə asılıdır. Dövriyyə vəsaitləri, eləcədə əsas istehsal fondlarının olmadığı və çatışmamazlığı şəraitində kənd təsərrüfatında geniş təkrar istehsalı tam həcmdə bərpa etmək mümkün olmur. Artıq ehtiyatlar da, nəticə etibarilə, vəsaitlərin dövriyyəsini ləngidir, bu və ya digər təsərrüfatçılıq subyektinin iqtisadi cəhətdən səmərəli fəaliyyət göstərmək imkanlarını məhdudlaşdırır və vəsaitlərin dövriyyəsini ləngidir. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və bu sahəyə yardım göstərilməsi sisteminin inkişaf etdirilməsi, ilk növbədə iqtisadi bazaya əsaslanmalıdır. Məhz belə bir şəraitdə əsas fondların dövriyyə sürətinin yüksəlməsi bütövlükdə pul, istehsal və əmtəə formasında məhsulların bir-birinə çevrilməsinə əlverişli şərait yaradır. L.Lişanskinin və I.B.Maslovanın fikrincə heyvanların və bitkilərin böyüməsi və məhsul verməsi kimi təbii proseslər, son nəticədə kənd təsərrüfatı əmtəə istehsalçılarının vəsaitlərinin dövriyyəsinin spesifik xüsusiyyətlərini özündə əks etdirir. Bu xüsusiyyətlərə ilk növbədə dövriyyə vəsaitlərinin ləng dövriyyəsini qeyri-sabit xərclərinin həcminin artmasını əks etdirir (153, 174).

Yuxarıda göstərilən cəhətlər bir daha təsdiq edir ki, bazar iqtisadiyyatı şəraitində inkişaf edən əksər ölkələrində, o cümlədən Almaniya, Hollandiya və Norveçdə kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri nəzərə alınmaqla dövlət tənzimlənməsi və sahibkarlığın dəstəklənməsi sistemi yaradılmalıdır. Adı çəkilən sistemin başlıca vəzifələrinə aşağıdakıları aid etmək olar:

- kənd təsərrüfatında stabil iqtisadi situasiyanın dəstəklənməsi;
- bazar konyukturunun və sahədə gəlirlərin tərəddüdlərinin sabitləşdirilməsi;
- ərzaq təhlükəsizliyinə dair dövlət siyasətinin reallaşdırılması;

-istehsalın həcminin məhdudlaşdırılması ilə bağlı proqramların maliyyələşdirilməsi;

- yeni şəraitə uyğun kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması;.

- daxili bazarın xarici təsirlərdən qorunması və müdafiə edilməsi;

- kənd təsərrüfatı əmtəə istehsalçılarının daxili və xarici bazarda rəqabət qabiliyyətinin təmin edilməsi, onların beynəlxalq əmək bölgüsünə və eləcədə beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyasının təmin edilməsi.

Kənd təsərrüfatının dövlət tənzimlənməsi və sahibkarlıq subyektlərinə dövlət dəstəyinin verilməsi, kompleks və məqsədli proqramların işlənib hazırlanmasını tələb edir. Sahibkarlığın kənd təsərrüfatında dövlət tənzimlənməsində aşağıdakı istiqmaətlərə diqqət yetirilməlidir:

- kənd təsərrüfatında və ərzaq məhsulları bazarının səmərəli formada fəaliyyətinin təmin edilməsi;

- maliyyələşmə, kreditləşdirmə, sığorta və güzəştli vergiqoyma sisteminin formalaşdırılması;

- yerli əmtəə istehsalçılarının xarici iqtisadi fəaliyyət zamanı maraqlarının müdafiə edilməsi;

- kənd təsərrüfatı istehsal sferasında elmi yaradıcılıq fəaliyyətin inkişaf etdirilməsi və fundamental elmin inkişafına dövlət qayğısının gücləndirilməsi;

- kəndin sosial sferasının hərtərəfli inkişaf etdirilməsi;

Yuxarıda qeyd edildiyi kimi, kənd təsərrüfatının uğurlu fəaliyyəti kiçik və orta biznesə birbaşa və dolayı yolla dövlət dəstyinin verilməsindən daha çox asılıdır. Dövlət dəstəyi, əsas etibarilə büdcə və qeyri-büdcə mənbəələrindən formalaşır. Məlum olduğu kimi, birbaşa dövlət dəstəyi məqsədli proqramlar, investitsiyalar, subsidiyalar və subvensiyalar, xərclərin kompensasiya edilməsi ilə həyata keçirilir. Güzəştli kreditlər, vergilər, təminatlı qiymətlər və tariflər, eləcədə sığorta sistemi, mahiyyət etibarilə kənd təsərrüfatına dövlət dəstəyinin dolayı formasını özündə əks etdirir.

Kənd təsərrüfatında əmtəə istehsalçılarına dövlət yardımının göstərilməsi ilə bağlı əsas tədbirlərin prioritet istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- kənd təsərrüfatında yeni texnika və avadanlıqların, o cümlədən toxum sortlarının və damazlıq heyvanların alınması ilə bağlı investitsiya fəaliyyətinə yardım göstərilməsi və federal məqsədli proqramların işlənib hazırlanması;

- kənd təsərrüfatında torpaqların münbütlüyünün yüksəldilməsi, mineral gübrələrdən istifadə olunması, dövlət mineralasiya sisteminin inkişaf etdirilməsi, eləcədə kənd təsərrüfatında zərərvericilərə və xəstəliklərə qarşı mübarizə tədbirlərinin aparılması, karantin və baytarlıq xidmətinin işinin yenidən qurulması;

- kənd təsərrüfatında ətraf mühütün qorunması və ekoloji təmiz məhsul istehsalı ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, elmi tədqiqat işlərinin genişləndirilməsi;

- aqrobiznes sferasında sığorta və kreditləşdirmə fəaliyyətinin yenidən qurulması;

- kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının maddi texniki resurslarının əldə edilməsi ilə bağlı xərclərin müəyyən hissəsinin kompensasiya edilməsi, damazlıq, heyvandarlıq sisteminin dəstəklənməsi ilə bağlı datasiyaların verilməs, elit toxumçuluq və hibrit kənd təsərrüfatı bitgilərinin istehsalına əlverişli şərait yaradılması;

- kənd təsərrüfatı və ərzaq məhsulları bazarının inkişaf etdirilməsi və dəstəklənməsi;

- kənd təsərrüfatında ixtisaslı kadrların hazırlanması işinin yenidən qurulması.

Kənd təsərrüfatında dövlət tənzimlənməsinin etibarlı və çevik formada həyata keçirilməsi ilk növbədə dövlət tənzimlənməsinin səmərəli mexanizminin formalaşdırılmasından daha çox asılıdır. Kənd təsərrüfatında kiçik və orta sahibkarlığın dövlət tərəfindən müdafiə edilməsi dövlət tənzimlənməsinin aktiv şəkildə həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Bu baxımdan dövlət tənzimlənməsinin mexanizmlərinə aşağıdakıları aid etmək olar:

- kənd təsərrüfatında dövlət tənzimlənməsinin hüquqi-normativ bazasının yaradılması;

- inhisarçılıq meyllərinin və inzibati maniələrin aradan qaldırılması;

- kənd təsərrüfatında azad rəqabət mühütünün dəstəylənməsi, kiçik və orta sahibkarlığın kredit, maliyyə və investitsiya vasitələri ilə müdafiə olunması;

- kənd təsərrüfatında sahibkarlıqda təsir göstərən təhlükəsizlik tədbirlərinin görülməsi.

Kənd təsərrüfatında dövlət tənzimlənməsinin qanunvericilik sahəsindəki mövcud mexanizmləri, ilk növbədə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirilən fiziki şəxslərin və kiçik sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi və bu prosesdə vahid pəncərə sisteminin tətbiq edilməsinin sürətləndirilməsi bir sıra  güzəştlərin tətbiq edilməsi ilə sıx bağlıdır. Bundan əlavə, icazə verilən və razılaşdırılan inzibati qaydaların sayının azaldılması da kənd təsərrüfatının dövlət tənzimlənməsinin hüquqi normativ aktları siyahısına aid edilir. Kənd təsərrüfatında sahibkarlığa və kiçik biznesə münasibətdə nəzarət funksiyalarını həyata keçirərkən kompleks prinsipindən istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin bazara daxil olması iqtisadi və inzibati normalar çərçivəsində həyata keçirilir və rəqabətin aradan qaldırılması ilə bağlı hadisələr normativ hüquqi aktlar əsasında tənzimlənir. Bunlarla yanaşı kənd təsərrüfatında sahibkarlıq subyektlərinə dövlət büdcəsi vəsaiti hesabına müsabiqə əsasında dövlət zəmanəti verilir. Kənd təsərrüfatında kiçik və orta sahibkarlığın müdafiə olunmasının ən mühüm istiqamətlərindən biri  də onların informasiya təminatının reallaşdırılmasıdır. Belə ki, bazar kanyukturunda baş verən dəyişikliklərlə bağlı kənd təsərrüfatında əmtəə istehsalçılarının davamlı olaraq məlumatlandırılması və informasiya məsləhət xidmətlərinin yenidən qurulması zəruridir. Məhs bütün bunlar sahibkarların informasiyadan, eləcədə risklərdən qoruması, idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsi inkişafın strategiyası və taktikasının seçilməsi, konkret alqı-satqı əməliyyatlarının rəsmiyyətə salınması, kredit alınması, bazarlarda öz mövqeylərinin möhkəmləndirilməsi üçün vacibdir. Kənd təsərrüfatında sahibkarlıq subyektlərinin informasiya cəhətdən müdafiə olunması ilk növbədə kiçik biznes sahəsində müvafiq içtimai təşkilatların yaradılmasını və onlardan istifadə olunmasını tələb edir. Bütün

regionlarda sahibkarlar arasında təcrübə mübadiləsinin genişləndirilməsinə və onların müxtəlif fəaliyyət növləri ilə məşğul olmalarına hüquqi təminat verilməlidir.

Kənd təsərrüfatında tənzimlənmə tədbirlərinin və eləcədə dövlət dəstəyinin çoxsaylı qanunvericilik elementlərində boşluqlarına rast gəlinir ki, bu da istehsalçılarının gələcək faliyyəti istiqamətlərinə öz təsirini göstərir. Bundan əlavə, dövlət yardımlarının növləri üzrə maliyyələşmənin həcmi konkret olaraq müəyyənləşdirilmir. Həmçinin bir sıra hallarda kənd təsərrüfatı əmtəə istehsalçılarının intensiv texnalogiyalarla təminatı o, cümlədən məhsuldar toxum və heyvan cinsləri ilə təchizatı sistemində problemlər qalmaqdadır. Problemi aktuallaşdıran ən mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, dövlət tənzimlənməsinin bu və ya digər formaları arasında uyğunsuzluq nəzərə çarpır. Aqrar sferada bazarda anti-inhisar tənzimlənməsi tədbirlərinin vaxtında və çevik şəkildə həyata keçirilməməsi son nəticədə həm istehsalçıların, istehlakçıların maraqlarına mənfi təsir göstərir. Bütövlükdə kənd təsərrüfatının xarici iqtisadi faliyyəti ilə bağlı inhisarçılıq meylləri özünü göstərir. Xüsusi ilə idxal kanallarında inhisarçılığın mövcudluğu nəticə etibarilə, yerli istehsalın maraqlarına mənfi təsir göstərir.

Kənd təsərrüfatında sahələrarası rəqabət münasibətləri sistemində də qeyri-ekvivalent mövqe nəzərə çarpır. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin effektiv mexanizminin formalaşdırılması ilk növbədə prioritet sahələrin maliyyələşdirilməsi ilə sıx bağlıdır. Bu zaman ilk növbədə taxılçılığın ökənin ərzaq təhlükəsizliyinin təmin etməsində əhəmiyyətli rol oynamasını nəzərə alaraq kənd təsərrüfatında taxıl istehsalının artırılmasına, yeni toxum sortlarının əldə olunmasına əlverişli şərait yardılmalıdır. Bundan əlavə yerli qoyunçuluğun inkişaf etdirilməsi üçün damazlıq heyvanların gətirilməsi ilk növbədə kənd təsərrüfatı heyvanlarının yem bazasının yaxşılaşdırılması mühüm problemlərdən biridir. Ümumiyyətlə kənd təsərrüfatında sığorta sisteminin yenidən qurulması, sığorta ilə bağlı xərclərin müəyyən hissəsinin dövlət büdcəsindən kompensasiya edilməsi, mineral gübrələrin, kimyəvi mühafizə vasitələrinin alınmasına çəkilən xərclərin ödənilməsi, kompensasiya olunması və baytarlıq pereparatları fondlarının yaradılması diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatında məhsulların qiymətləri tez-tez dəyişir və onun tənzimlənməsində dövlət bir sıra tədbirlər həyata keçirir. Belə ki, dövlət tərəfindən mütəmadi olaraq kənd təsərrüfat məhsullarının yarmarkaları təşkil olunur, istehsalçıların hüquqları qorunur, topdansatış ticarətindən istifadə olunur, yerli və regionlararası bazralar yaradılır və s.

# FƏSIL II. AQRAR SAHƏDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ TƏNZİMLƏNMƏ SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. Regionlarda aqrar bölmədə sahibkarlıq subyektlərinin istehsal-satış fəaliyyətinin qiymətləndirilməsi

Azərbaycanın müstəqil milli iqtisadiyyatının formalaşmasında sahibkarlıq subyektlərinin rolu daha genişlənir və onların fəaliyyəti şaxələndirilir. Son dövrdə ölkədə çoxsaylı fəaliyyət növləri ilə məşğul olan sahibkarlar təbəqəsi yaranmışdır. Sahibkarlar yüksək səviyyədə bacarığa, intellektual imkanala malik olan, risketmə qabiliyyəti və məşğuliyyəti ilə fərqlənən yaradıcı insanlardır. Bazar münasibətləri şəraitində sahibkarlara daim yeni ideyalar axtarır, bazarların fəaliyyətini tez mənimsəyir və son nəticədə yüksək mənfəət (gəlir) əldəetmək məqsədinə xidmət edir. Azərbaycan Respublikasında dövlət tərəfindən sahibkarlıq fəaliyyətinə qanun qəbul olunmuş və çoxsaylı qanunvericilik aktları və normativ sənədlər mövcuddur. Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının əsas atributudur. Yəni həmin fəaliyyəti baş vermədən iqtisadiyyat tələb olunan səviyyədə inkişaf edə bilməz. Lakin sahibkarlar yüksək maliyyə nəticələri əldə etmək məqsədilə iqtisadiyyatın daha gəlirli sahələrinə kapital yönəltmək arzusunda olur. Buna görə də sahibkarlar arasında daim rəqabət baş verir.

Sahibkarlara dövlət tərəfindən dəstək verildiyinə görə onlar risk edərək iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yönəltmək arzusunda olurlar. Son dövrdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyinə görə strateji sahə kimi kənd təsərrüfatında da sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə xüsusi diqqət yetirilir. Kənd təsərrüfatı iqtisadiyyatın digər sahələrinə nisbətən təbii-iqlim şəraitilə bağlı olan çətin və əməktutumlu sahələrdən biridir. Bu sahənin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində və sənayenin xammala olan tələbatının ödənilməsində böyük rolu vardır. Bu baxımdan kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlar bütün bacarıq və imkanlarından istifadə edərək dövlətin aqrar siyasətinin reallaşmasında iştirak edirlər. Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların

başlıca məqsədi həm daxili, həm də xarici bazarlar üçün rəqabətqabiliyyətli məhsulları istehsal etmək və yüksək maliyyə nəticələri əldə etməkdir.

Regionlarda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə dair üç dövlət proqramı qəbul olunmuş və rayonlarda iqtisadiyyatın bütün sahələrində sahibkarlığın inkişaf istiqamətləri göstərilmişdir.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra regionların sosial-iqtisadi inkişafına yönəldilmiş səmərəli siyasət istiqamətlərini müəyyən etdi. Ardıcıl olaraq regionların sosial-iqtisadi inkişafına dair bir sıra Dövlət Proqramları qəbul edildikdən sonra rayonlarda istehsal və sosial infrostruktur sisteminin yaradılmasında xeyli dərəcədə irəliləyiş baş verdi. Xüsusilə regionlarda yerli təbii iqtisadi və elmi – texniki potensialdan daha səmərəli istifadə etmək məqsədilə Azərbaycan Rüspublikası regionlarının 2004-2008, 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildi. Bu proqramın tələbinə uyğun olaraq rayonlarda istehsal imkanlarının ardıcıl olaraq genişləndirilməsi və bu məqsədlə həmin sahəyə yönəldilən daxili və xarici investisiya qoyuluşunun həcminin artırılmasına diqqət yetirildi. Azərbaycanda rəqabət qabiliyyətli məhsulları istehsal edə bilən müəssisələrin yaradılması dövlətin regional siyasətinin ana xəttini təşkil edir. Dövlət Proqramında bir daha qeyd edildi ki, yerli istehsal müəssisələrini daha da gücləndirmək məqsədilə təkcə xaricdə istehsal olunan texnika və texnologiyadan deyil, yerli istehsal imkanlarından da istifadə olunmalıdır. Ölkədə yerli rəqabət qabiliyyətli istehsal müəssisələrinin yaradılması həm ölkənin daxili tələbatını ödəyər, həm də ixrac potensialının artırılmasına təsir göstərə bilər.

Dövlətin regional siyasətinin əsas istiqamətlərindən biri də sahibkarlığın tarazlı və hərtərəfli inkişaf etdirilməsidir. Dövlət proqramında davamlı iqtisadi inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın fəaliyyətin daha da genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Dövlət Proqramına uyğun olaraq dövlət büdcəsindən kiçik və orta sahibkarlığın inkişafına ayrılan vəsaitlərin həcminin daha da artırılması nəzərdə tutulur. 2009-2013-cü və 2014-2018-ci illərdə ayrı-ayrı regionlarda sahibkarlığın inkişafı üçün dövlət investisiya şirkətinin xətti ilə iri layihələr maliyyələşədiriləcək və sahibkarlığa kömək milli fondu vasitəsilə güzəştli kreditlərin

verilməsinə xüsusi diqqət yetiriləcəkdir. Göstərilən dövlət vəsaitlərindən səmərəli istifadə olunaraq sahibkarlığın bütün növlərinin (istehsal, kommersiya, innovasiya, vençur, maliyyə və s.) hərtəfəli inkişafına əlverişli mühit yaranacaqdır.

**Dövlətin regional siyasətinin başlıca istiqamətlərindən biri də aqrar bölmənin hərtərəfli inkişaf etdirilməsidir.** Ölkə əhalisinin kənd təsərrüfat məhsullarına, sənayenin isə xammala olan tələbatının ödənilməsində aqrar bölmə mühüm yer tutur. Xüsusilə, Azərbaycanda emal sənayenin daha da inkişafı və genişləndirilməsi aqrar bölmənin inkişafından daha çox asılıdır. Artıq ölkəmizdə kənd təsərrüfatı məhsullarının emalı üzrə çoxsaylı aqrofirmalar, kombinatlar, məhdud məsuliyyətli cəmiyyətlər, fərdi kəndli təsərrüfatları fəaliyyət göstərir və onların rəqabət qabiliyyəti gündən – günə artır və daxili tələbatı ödəyir.

Son dövrdə dövlət kənd təsərrüfatının hərtərəfli inkişafını maliyyə cəhətdən stimullaşdırılır. Güzəştli kreditlər verilir, subsidiyalar ayrılır, yeni emal müəssisələri yaradılır, soyuducu saxlama kameraları və kombinatlar yaradılır, taxıl ambarları (terminal) tikilir və s. iri miqyaslı işlər görülür. Rayonlarda dövlətin həyata keçirdiyi strateji məqsədli işlər daha geniş və əhatəlidir.

2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tələblərinə uyğun olaraq iqtisadiyyatın bütün sferalarında daha səmərəli işlər görüləcəkdir.

Bunlarla yanaşı dövlətin regional siyasətinin reallaşdırlmasında qeyri-neft sektoru sahələrinin də inkişafı daha mühüm rol oynayacaqdır. Bu regionlarda sənaye, kənd təsərrüfatı, xidmət, ticarət və digər sahələrin inkişafına təsir göstərəcəkdir.

Ölkəmizdə müasir ictimai əmək bölgüsü sistemi əsasında milli iqtisadiyyat formalaşır və onun bütün sahələrində sahibkarlıq fəaliyyətinin üstünlüklərindən istifadə edilir. Son illərdə Azərbaycanda ölkə başçısı İ.H.Əliyevin həyata keçirdiyi sahibkarlıq strategiyası və konsepsiyası iqtisadiyyatın bütün sferalarının tarazlı və dinamik inkişafına təkan vermişdir. Ölkə Prezidenti İ.H.Əliyevin həyata keçirdiyi sahibkarlıq strategiyasının tərkib hissələrindən biri də regional sahibkarlıq siyasətinin həyata keçirilməsidir. Regional sahibkarlıq siyasəti respublikanın bütün rayonlarında iqtisadiyyatın tarazlı (balanslı) inkişafının təmin edilməsinə və

məhsuldar qüvvələrin səmərəli surətdə yerləşdirilməsinə yönəldilmişdir. Bu məqsədlə ölkə başçısı tərəfindən Azərbaycanda regional sahibkarlıq siyasətinin ardıcıl olaraq həyata keçirilməsinə xidmət edən üç dövlət proqramı qəbul olunmuşdur.

Birinci – 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı", ikinci – 14 aprel 2009-cu ildə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramı", üçüncü Dövlət Proqramı 2014-2018-ci ildə qəbul olunmuşdur.

Dövlət Proqramında tələblərinə uyğun olaraq ölkədə makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi məqsədilə daxili və xarici investisiyaların həcminin artırılması, sosial-iqtisadi xarakterli yeni regional layihələrin hazırlanması, regionlarda müasir infrastruktur sisteminin yaradılması, regional sahibkarlığın bütün formalarının tarazlı inkişafı, üstün rəqabət qabiliyyətli regional iqisadiyyatın formalaşması və s. məsələlərin hyata keçirilməsinə nail olunmuşdur. Əgər Dövlət proqramının icrasına qədər ölkənin regionlarda iqtisadi, sosial, infrastruktur, enerji, rabitə, səhiyyə, məşğulluq və digər problemlərin həllində ciddi çətinliklər özünü göstərmişdirsə, həmin proqramın reallaşması nəticəsində adları çəkilən problemlər tədricən öz həllini tapmağa başladı.

Ölkə prezidenti İ.H.Əliyev Dövlət Proqramının icarasına həsr olunmuş nitqində bir daha göstərdi ki, "Dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir, sahibkarlara siyasi dəstək verir, onları müdafiə edir, hər il onlara güzəştli şərtlərlə təxminən yüz milyon dollar həcmində kreditlər ayırır. Infrastruktur layihələrini həyat keçirir və bölgələrində sosial infastrukturun möhkəmləndirilməsi üçün fəal iştirak edir ki, insanlar bölgələrdən şəhərlərə gəlməsinlər". Dövlət başçısının irəli sürdüyü bu strateji məqsəd regional sahibkarlığın inkişafına olduqca təkan verir, rayonlarda yeni istehsal sahələri yaradılır və əhalinin şəhərlərə doğrumiqyası (axını) tədricən aradan qalxır.

Göstərilən Dövlət Proqramlarının səmərəli formada həyata keçirilməsi məqsədilə ölkə başçısı tərəfindən "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanı imzalanmışdır. Bu fərman əsasən ölkədə

sahibkarlığın inkişafını daha da sürətləndirmək və ona mane olan əsassız müdaxilələrin qarşısının alınmasına yönəldilmişdir.

Regional sahibkarlıq siyasətinin reallaşmasında “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramının” mühüm rolu olmuşdur. Bu proqram ölkənin bütün iqtisadi rayonlarının kompleks sosial-iqtisadi inkişafı nəzərdə tutur. Dövlət Proqramında irəli sürülən başlıca məqsəd ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın diversifikasiyalaşdırılması, regionların tarazlı (balanslı) və davamlı sosial – iqtisadi inkişafa nail olması, əhalinin məşğulluq və həyat səviyyəsinin daha da yaxşılaşdırılması, əlverişli sahibkarlıq mühitinin yaradılması, mövcud infrastruktur sisteminin yenidən qurulması və s. məsələlərdən ibarətdir.

2009-cu ildən başlayaraq regionlarda sahibkarlığın hərtərəfli inkişafına qoyulmuş xarici və daxili investisiyaların həcmi ardıcıl olaraq artmışdır. Təkcə 2005-ci ildə ölkə iqtisadiyyatına 15,5 milyard sərmayə qoyulmuşdur ki, bu da bütövlükdə sahibkarlıq və biznes mühitinin formalaşmasına daha güclü təkan vermişdir.

Hazırda Respubilika iqtisadiyyatının bir sıra sahələrinin məhsulları, xüsusilə sənaye, kənd təsərrüfatı, tikinti, rabitə və s. həm daxili, həm də xarici bazarlarda rəqabət üstünlüyünə malikdir. Azərbaycanda sahə və regional sahibkarlığın inkişafı özəl sektorun ixrac yönümlü sferya çevrilməsinə əlverişli şərait yaratmışdır. 2014-cü ildə yeni müəssisələrin 61,6%-i Bakıda, 10,3%-i Aran, 7,6%-i Abşeron, 5,3%-i Gəncə, Qazax iqtisadi rayonlarda, qalanları isə digər bölgələrdə yaradılmışdır. Hazırda ölkədə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin 17,2%-ni hüquqi şəxslər, 82,8% -ni isə fiziki şəxslər təşkil edir. Son dövrdə respublikada sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və onların dövlət tənzimlənməsi mexanizmini təkmilləşdirilməsi məqsədilə ölkə prezidentinin 15 fevral 2011-ci il tarixli 383 nömrəli fərmanı ilə, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması forması və aparılması qaydası haqqında Əsasnamə” təsdiq edilmiş, həmin ilin 1 may tarixində fəaliyyətə başlamışdır.

Respublikanın iqtisadi rayonları üzrə sahibkarların inkişafında intensiv xarakter daşımasında Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı vəsaitlərin və

güzəştli kreditlərin mühüm rolu olmuşdur. Ümumiyətlə, 2014-cü ildə Sahibkarlığa Kömək Milli fondunun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə respublikanın 57 şəhər və rayonu üzrə 1643 sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə 138 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir.

2014-2018-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının tələb və prinsiplərinə uyğun ölkədə əsaslı dərəcədə irəliləyiş və dinamik artım özünü göstərsə də, gələcəkdə iqtisadiyyatın prioritet üstünlüklərindən daha səmərəli istifadə etmək məqsədilə bir sıra təklif və tövsiyyələrin nəzərə alınmasını məqsədəuyğun hesab etmək olar.

- Respublikanın bütün iqtisadi rayonlarında istehsal sahibkarlığının inkişafına və onun maliyyələşədirilməsinə dövlət dəstəyi daha da gücləndirilməlidir;
- Regional infrastruktur sisteminin formalaşması və əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəldilmiş dövlət siyasətinə daha çox üstünlük verilməlidir;
- Investorların regionlara dah çox cəlb olunması və onların potensial imkanlarından səmərəli istifadə edilməsi üçün əlverişli investisiya mühiti yaradılmalıdır;
- Regional sahibkarlığın inkişafına təkan vermək məqsədilə Azad İqtisadi Zonaların (AİZ) yaradılmasına xüsusi diqqət yetirilməlidir;
- Regional iqtisadi təhlükəsizliyin təmin edilməsi dövlətin regional siyasətinin ana xəttini təşkil etməlidir.

Ölkədə iqtisadiyyatın hərtərəfli inkişafının prioritet istiqamətlərindən biri qeyri-neft sektoruna investisiya qoyuluşlarıdır.

Qeyri-neft sektorunun inkişafında sahə və regionalarası istehsal əlaqələrinin genişlənməsinə xüsusi diqqət yetirilməlidir. Yeni istehsal və emal müəssisələri yaradılarkən onların tarazlığının təmin olunmasına və regional siyasətinə uyğun olaraq məhsuldar qüvvələrin ərazi üzrə səmərli yerləşdirilməsinə və demoqrafik vəziyyətin gərginliyinin qarşısının alınmasına səy göstərilməlidir. Sahələrarası

əlaqələr və sahibkarlığın inkişafı elə təmin edilməlidir ki, iqtisadiyyatın ictimai əmək bölgüsü sistemində normal fəaliyyət göstərilməsinə nail olunsun. Bu zaman istehsal olunmuş məhsulların rəqabət qabiliyyətli olması və daxili bazarın xarici təsirlərdən qorunub saxlanılması təmin edilməlidir.

Göstərilən problemlərin həll olunmasında xarici investisiyalardan səmərəli istifadə olunmasının xüsusi rolu vardır.

On il ərzində ölkə iqtisadiyyatına 160 milyard dollar investisiya qoyulmuşdur ki, bu sahə və regional sahibkarlığın inkişafına mühüm təsir etmişdir. Təkcə 2015-ci ildə Azərbaycan iqtisadiyyatına 16 milyard dollar investisiya qoyuluşu hıyata keçirilmişdir ki, bu da əvvəlki illərlə müqayisədə xeyli dərəcədə çoxdur. Həmin investisiya qoyuluşlarının 17,5 milyard dolları daxili sərmayələrin payına düşür. Son dövrdə daxili investisiyalar xarici investisiyaları daha çox üstələyir. Eyni zamanda daxili investisiyaların ümumi həcmində dövlət sərmayeləri və özəl sektor daha çox aparıcı rola malikdir.

Xarici və daxili investisiyalar əsasən xammal istehsal edən müəssisələrə deyil, son məhsul buraxan müəssisələrə tətbiq olunmalıdır. Istehsal edilmiş məhsullar təkcə daxili tələbatların ödənilməsinə deyil, xarici bazara çıxmaq imkanına da malik olmalıdır. Belə bir vəziyyət xarici valyutaların ölkəyə gətirilməsinə və milli valyutanın iqtisadi gücünün artmasına səbəb olacaqdır.

Xarici investisiyalardan istifadə etməklə regionlarda investisiya qoyuluşunun daha da gücləndirilməsinə daha çox üstünlük verilməlidir. Bu öz fəaliyyətini dayandırmış yerli müəssisələrin dirçəldilməsinə, milli məhsulun istehsalına yardımçı olardı. Regionlarda investisiya qoyuluşunu hıyata keçirərkən xarici dövlətlərdən və beynəlxalq maliyyə qurumlarından alınmış kreditlərdən istifadə olunmasına üstünlük verilməlidir. Bunların vasitəsilə müxtəlif mülkiyyət formalarının inkişafına, xüsusi təsərrüfat formalarının yaradılmasına, azad sahibkarlığın genişlənməsinə nail olmaq mümkündür. Digər tərəfdən kreditlər hesabına respublikanın iqtisadi və sosial infrastrukturu formalaşar və regionlar arasında səmərəli iqtisadi əlaqələr qururlar.

Regionların sosial-iqtisadi inkişafı ölkədə ictimai əmək bölgüsünün daha da genişlənməsinə, milli iqtisadiyyatın vahid bir orqanizm kimi təşəkkül tapmasına şərait yaradır.

Son dövrlərdə milli iqtisadiyyatın inkişafı üçün lazım olan xarici investisiyaların cəlb edilməsində xeyli işlər görülmüşdür. Təkcə 1994-2013-cü illər ərzində Azərbaycana 130 milyard xarici investisiya cəlb olunmuşdur. Lakin bu istiqamətdə daha ardıcıl və məqsədyönlü siyasət yeridilməsinə nail olunmalıdır. Əks halda, bu proses mənfi nəticə verə bilər.

Qeyd etmək olar ki, hazırda məşğul əhalinin 40 faizi kənd təsərrüfatının payına düşür. Bu, məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsündə ən yüksək göstəricidir. Fermerlər üçün səmərəli kredit sistemi tətbiq olunmuşdur. Kənd təsərrüfatı istehsalını stimullaşdırmaq məqsədilə vergi sistemi təkmilləşdirilmişdir. Kənd təsərrüfatında Sahibkarları stimullaşdırmaq məqsədilə 2001-ci ildən torpaq vergisi istisna olmaqla 2018-ci ilin sonuna qədər digər vergilərdən azad olunmuşdur. Kənd təsərrüfatında servis xidməti yaxşılaşdırılmışdır. Aqrar sektorda istehsal edilən məhsulların ixracına dövlət tərəfindən hərtərəfli yardım göstərilmişdir. 2008-2014-cü illərdə kənd təsərrüfatı istehsalçılarına 726,3 milyon manat məbləğində subsidiya verilmişdir. Təkcə 2014-cü ildə dövlət büdcəsinin vəsaiti hesabına kənd təsərrüfat istehsalçılarına 107,2 manat subsidiya verilmişdir ki, bu da 2008-ci ildə müqayisədə 13,4 faiz çoxdur. Kənd yerlərində sənaye müəssisələri şəbəkəsi genişləndirilmişdir.

Regionlarda aqrar sahədəki çətinliklərin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər reallaşdırılmışdır. Belə ki, kənd təsərrüfatı istehsalçılarına vergi güzəştlərinin müddəti 2011-ci ilədək uzadılmışdır. Fermerlərin texnika və gübrə ilə təchizatı məqsədilə “Aqrolizinq” Səhmdar Cəmiyyəti və onun yerlərdə bölmələri yaradılmışdır. Texnikanın və gübrələrin alınmasına böyük məbləğdə vəsait ayrılmışdır.

İqtisadiyyatın davamlı inkişafına müsbət təsir göstərən amillərdən biri odur ki, son dövrdə investisiya qoyuluşlarının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Ölkənin maliyyə imkanlarının genişlənməsi nəticəsində daxili investisiyalar xarici investisiyalara nisbətən xeyli artmışdır. Bütün bunlar isə yerli sərmayədarların

potensialının güclənməsini, onların investisiya qoymaq imkanlarının genişlənməsini göstərir. Eyni zamanda, büdcə gəlirlərinin artması da dövlətin investisiya imkanlarını gücləndirir, nəticədə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək infrastrukturun yenidən qurulmasına əlverişli şərait yaranır.

Bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində olduqca münbit bir şərait yaradılıb. Qəbul olunan dövlət proqramları Azərbaycanın ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasını həyata keçirir. Kənd təsərrüfatının intensiv yüksəlişi, yeni heyvandarlıq komplekslərinin, quşçuluq təsərrüfatlarının yaradılması və kənd təsərrüfatı məhsullarının saxlanması infrastrukturunun yaradılması bu sahənin inkişafına yeni töhvələr verməklə yanaşı bölgələrin də inkişafını sürətləndirir. Yəni, kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı rayonların ümumi inkişaf tempini artırır.

Kənd təsərrüfatında istehsalın artımı aqrar ərzaq bazarlarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə də öz təsirini göstərmişdir. Ölkənin kənd təsərrüfatında məhsul istehsalının intensiv texnologiyaların hesabına artırılması hazırda qarşıda duran ən mühüm vəzifələrdən biridir. Son dövrlərdə Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm irəliləyişlər baş vermişdir. Bunu bitkiçili inkişafı heyvandarlıq sahələrinin və əsas fondlardan necə istifadə olunması səviyyəsi ilə müəyyən etmək olar.

2004-2014-cü illərdə Azərbaycanda kənd təsərrüfatının inkişafının əsas göstəriciləri (faktiki qiymətlərlə, mln AZN)

Cədvəl 2.2.

| Illər | Əhali min nəfər | Kənd təsərrüfa-tına ya-rarlı sahə 1000 ha | Adambaşına k/t yaralı torpaq sahəsi düşür, ha | Əkin yeri 1000, ha | O cümlədən adam başına, ha | Çoxillik əkinlər 1000 ha | Bicənək və otlaqlar | Meşələr, 1000 ha |
|---|---|---|---|---|---|---|---|---|
| 2006 | 8661,1 | 4756,0 | 0,55 | 1795,5 | 0,21 | 221,1 | 2693,6 | 1037,8 |
| 2007 | 8779,9 | 4756,5 | 0,54 | 1808,4 | 0,21 | 224,7 | 2677,8 | 1038,8 |
| 2008 | 8897,0 | 4756,7 | 0,53 | 1818,4 | 0,20 | 227,5 | 2669,0 | 1038,8 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 2009 | 8997,6 | 4757,2 | 0,53 | 1832,5 | 0,20 | 227,0 | 2656,2 | 1039,0 |
| 2010 | 9111,1 | 4766,8 | 0,52 | 1842,7 | 0,20 | 227,4 | 2655,3 | 1040,7 |
| 2011 | 9235,1 | 4768,7 | 0,52 | 1843,8 | 0,20 | 227,2 | 2655,8 | 1040,8 |
| 2012 | 9356,5 | 4768,3 | 0,51 | 1855,0 | 0,20 | 230,9 | 2640,6 | 1040,8 |
| 2013 | 9477,1 | 4769,8 | 0,50 | 1884,3 | 0,20 | 230,3 | 2614,2 | 1040,2 |
| 2014 | 9593,0 | 4769,7 | 0,50 | 1885,6 | 0,20 | 233,5 | 2609,8 | 1040,3 |

Cədvəl ADSK-nın məlumlatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəldən göründüyü kimi 2004-2014-cü illərdə kənd təsərrüfatının inkişafı üzrə verilmiş göstəricilərdə artım meyli baş vermişdir. Eyni zamanda kənd təsərrüfatında ümumi məhsulun orta illik artım sürəti 12,7 faiz olmuşdur. Bunlarla yanaşı, kənd təsərrüfatında bitkiçilik məhsullarının inkişafında da xeyli dərəcədə irəliləyiş baş vermişdir.

Cədvəl 2.3.

2005-2014-cü illərdə Kənd təsərrüfatı bitkilərinin ümumi yığımı və məhsuldarlığı
(bütün təsərrüfat kateqoriyalarında)

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Ümumi məhsul, min ton | | | | | | |
| Taxıl | 2126,7 | 2000,5 | 2458,4 | 2802,2 | 2955,3 | 2383,3 |
| Pambıq | 196,6 | 38,2 | 66,4 | 57,0 | 45,2 | 40,9 |
| Tütün | 7,1 | 3,2 | 3,6 | 4,3 | 3,5 | 2,8 |
| Şəkər çuğun-duru (sənaye emalı üçün) | 36,6 | 251,9 | 252,9 | 173,8 | 187,9 | 173,2 |
| Dən üçün günəbaxan | 16,1 | 15,5 | 19,6 | 19,7 | 17,7 | 19,8 |
| Kartof | 1083,1 | 953,7 | 938,5 | 968,5 | 992,8 | 819,3 |
| Tərəvəz | 1127,3 | 1189,5 | 1214,8 | 1216,2 | 1236,3 | 1187,6 |
| Bostan məhsulları | 363,8 | 433,6 | 478,0 | 428,0 | 429,8 | 440,8 |
| Meyvə və giləmeyvə | 625,7 | 729,5 | 765,8 | 810,0 | 853,8 | 850,8 |
| Üzüm | 79,7 | 129,5 | 137,0 | 151,0 | 154,1 | 147,7 |
| Yaşıl çay yarpağı | 0,7 | 0,54 | 0,53 | 0,57 | 0,57 | 0,4 |
| Ümumi yığım sahəsinin məhsuldarlığı, sent/ha | | | | | | |
| Taxıl | 26,5 | 20,7 | 25,4 | 27,2 | 27,5 | 24,0 |
| Pambıq | 17,5 | 12,7 | 15,5 | 19,5 | 19,3 | 17,9 |
| Tütün | 25,7 | 24,0 | 24,9 | 27,9 | 28,4 | 25,8 |
| Şəkər çuğun-duru (sənaye emalı üçün) | 313,6 | 304 | 346 | 332 | 334 | 312 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Dən üçün günəbaxan | 14,8 | 17,2 | 17,5 | 17,9 | 19,4 | 17,3 |
| Kartof | 149 | 145 | 144 | 147 | 152 | 133 |
| Tərəvəz | 140 | 142 | 146 | 150 | 154 | 152 |
| Bostan məhsulları | 121 | 137 | 144 | 143 | 151 | 157 |
| Meyvə və giləmeyvə | 73,9 | 70,6 | 71,7 | 73,8 | 74,3 | 72,0 |
| Üzüm | 61,8 | 74,7 | 81,5 | 88,6 | 91,5 | 82,5 |
| Yaşıl çay yarpağı | 2,5 | 9,4 | 9,8 | 10,5 | 12,0 | 10,1 |

Cədvəl ADSK-nın materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin təhlili göstərir ki, 2005-ci illə müqayisədə 2014-cü ildə taxılın ümumi yığımı 54,7%, şəkər çuğunduru 3,7 dəfə, kartof 78,4%, üzüm 92%, tərəvəz 52,1%, bostan məhsulları 68,9% meyvə və giləmeyvə 78,3%, artmış, pambığın ümumi yığımı isə 2,2 dəfə azalmışdır. 2014-cü ildə ölkə üzrə 2383,3 min ton taxıl, 40,9 min ton pambıq, 2,8 min ton tütün, 19,8 min ton dən üçün günəbaxan, 173,2 min ton şəkər çuğunduru, 819,3 min ton kartof, 1187,6 min ton tərəvəz, 440,8 min ton bostan məhsulları, 850,8 min ton meyvə, 147,7 min ton üzüm, 0,4 min ton çay yarpağı istehsal edilmişdir.

Müqayisə olunan dövrdə taxılın məhsuldarlığı 26,5 sent/ha-dan 24,0 sent/ha-dək – 0,8% artmış, pambığın məhsuldarlığı 12,7 sent/ha-dan 19,3 sent/ha-dək 7,8%, şəkər çuğundurunun məhsuldarlığı 313,6 sent/ha-dan 312 sent/ha-dək 1,4 dəfə, kartofun məhsuldarlığı 144 sent/ha-dan 133 sent/ha-dək – 1,6 dəfə, tərəvəzin məhsuldarlığı 140 sent/ha-dan 152 sent/ha-dək 14,2%, bostan məhsullarının məhsuldarlığı 121 sent/ha-dan 157 sent/ha-dək 60,2%, meyvə və giləmeyvə 73,9 sent/ha-dan 72,0 sent/ha-dək 16,3 %, üzüm 61,8 sent/ha-dan 82,5 sent/ha-dək 2,3 dəfə, yaşıl çay yarpağı 2,5 sent/ha-dan 10,1 sent/ha-dək 5 dəfə yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, mülkiyyətin özəlləşdirilməsi, aqrar islahatların başa çatması heyvandarlığın inkişafına da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, mal-qaranın kəndlilərə paylanması nəticəsində 2005-ci illə müqayisədə 2014-cü ildə iri buynuzlu mal-qaranın baş sayı 2021,5 min başdan 2697,4 min başa qədər –33,4%, inək və camışların baş sayı 925,8 min başdan 1299,2 min başadək – 40,3%, qoyun və keçilərin baş sayı 5773,8 min başdan 8645,4 min başadək 49,7% yüksəlmişdir. Donuzların baş sayı isə müqayisə olunan dövrdə 19,7 min başdan 6,1 min başadək – 3,2 dəfə azalmışdır. Təbiidir ki, mal-qaranın baş sayının artımı heyvandarlıq

məhsullarının istehsalının artırılmasına da öz təsirini göstərir. Əsas növ heyvandırlıq məhsullarının istehsalı aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2.4.

2000-2014-cü illərdə bütün təsərrüfat kateqoriyaları üzrə əsas heyvandarlıq məhsullarının istehsalı

| İllər | Ət (kəsilmiş çəkidə), min ton | Süd | Yumurta, mln. əd. | Yun (fiziki çəkidə) | Barama |
|---|---|---|---|---|---|
| 2005 | 205,0 | 1251,9 | 874,6 | 13,1 | 0,1 |
| 2010 | 253,8 | 1536,2 | 1178,6 | 15,6 | 0,01 |
| 2011 | 263,7 | 1622,3 | 1011,0 | 16,2 | 0,004 |
| 2012 | 285,6 | 1719,6 | 1226,7 | 16,5 | 0,003 |
| 2013 | 297,9 | 1820,5 | 1401,5 | 16,8 | 0,001 |
| 2014 | 291,2 | 1855,8 | 1562,7 | 16,7 | - |

Cədvəl ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin təhlili göstərir ki, 2000-2014-cü illərdə ət istehsalı 1,9 dəfə, süd istehsalı 1,8 dəfə, yun istehsalı 1,5 dəfə, yumurta istehsalı isə 2,8 dəfə artmışdır. 2014-cü ildə ölkə üzrə bütün təsərrüfat kateqoriyalarında 291,2 min ton ət, 1855,8 min ton süd, 1562,7 mln ədəd yumurta, 16,7 min ton yun istehsal edilmişdir.

Məhsul istehsalının artımı nəticə etibarilə təsərrüfat vahidlərinin maliyyə nəticələrinin yaxşılaşmasına da əhəmiyyətli dərəcədə təsir göstərir.

Son illər fərdi sahibkarlıq təsərrüfatlarının, o cümlədən keçmiş hüquqi şəxs statuslu kəndli-fermer təsərrüfatlarının əsas iqtisadi göstəricilərində də müsbət tendensiyalar müşahidə edilmişdir ki, bu da bütövlükdə aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

Cədvəl 2.5.

Fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri

| **Göstəricilərin adı** | **2000** | **2005** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|
| Təsərrüfatları sayı, vahid | 3248 | 2681 | 2618 | 2593 | 2451 | 2334 | 1624 |
| o cümlədən: | | | | | | | |
| gəlirlə işləyənlər | … | 2670 | 2544 | 2565 | 2448 | 2321 | 1598 |
| zərərlə işləyənlər | … | 11 | 74 | 28 | 3 | 13 | 26 |
| Mənfəətin məbləği, min manat | … | 2854 | 8111 | 9814 | 8645 | 8712 | 7015 |
| Zərərin məbləği, min manat | … | 4 | 590 | 71 | 2 | 36 | 172 |
| Balans gəliri (-zərəri), min | … | 2848 | 7521 | 9743 | 8643 | 8676 | 6843 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| manat | | | | | | | |
| Satışdan əldə edilən pul gəliri, min manat | 5008 | 6811 | 18890 | 25427 | 22468 | 24007 | 19058 |
| Bütövlükdə satışdan əldə edilən gəlir (-zərər), min manat | … | 2848 | 5087 | 7327 | 6683 | 6557 | 5469 |
| o cümlədən: | | | | | | | |
| bitkiçilikdə | … | 1861 | 3051 | 5180 | 4576 | 4413 | 3620 |
| heyvandarlıqda | … | 987 | 2021 | 2125 | 2085 | 2108 | 1768 |
| Məhsul istehsalında iştirak edən ailə üzvlərinin sayı, nəfər | 14376 | 11474 | 10536 | 10694 | 10264 | 9451 | 6592 |
| Kənardan cəlb edilmiş işçilərin sayı, nəfər | 2605 | 2059 | 2311 | 2055 | 1694 | 1762 | 1807 |
| Kənd təsərrüfatının ümumi məhsulu, (müvafiq illərin faktiki qiymətləri ilə), min manat | 4980 | 10183 | 24887 | 31022 | 29588 | 31468 | 24755 |
| Əmək məhsuldarlığı-bir işçiyə düşən ümumi məhsul, manat | … | 733 | 2362 | 2901 | 2883 | 3330 | 3755 |
| Əsas fondların mövcudluğu, min manat | 9615 | 13474 | 31933 | 32011 | 30356 | 26708 | 24911 |
| ondan: | | | | | | | |
| kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları, min manat | 8965 | 13199 | 22060 | 23578 | 22773 | 20818 | 19594 |
| Kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri, min manat | ... | 12979 | 21088 | 22799 | 22079 | 20193 | 19047 |
| Ümumi torpaq sahəsi, ha | 62216 | 23493 | 47314 | 43691 | 48466 | 44267 | 34101 |
| ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha | 30431 | 22577 | 45735 | 41575 | 47271 | 43072 | 33224 |
| o cümlədən: | | | | | | | |
| əkin yeri, ha | 25652 | 16112 | 33764 | 28919 | 35584 | 33280 | 24032 |
| Orta hesabla bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha | 9,4 | 8,4 | 17,5 | 16,0 | 19,3 | 18,5 | 20,5 |

Cədvəl ADSK-nın mıəlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəldən göründüyü kimi 2014-cü ildə ölkə üzrə mövcud olan 1624 fərdi sahibkarlıq təsərrüfatının 1598-i və ya 98,1%-i özəl fəaliyyətini gəlirlə başa çatdırmışdır. Gəlirlə fəaliyyət göstərən fərdi sahibkarlıq təsərrüfatlarının əldə etdiyi mənfəətin məbləği 7015 min manat təşkil etmişdir. Zərərlə fəaliyyət göstərən fərdi sahibkarlıq təsərrüfatlarının təsərrüfat fəaliyyətinin nəticələrindən yaranan zərərin məbləği isə 2014-cü ildə 172 min manat təşkil etmişdir. 2000-ci illə müqayisədə 2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarının məhsul satışından əldə etdiyi pul gəlirinin məbləği 3,8 dəfə artaraq 19058 min manata çatmışdır. Müqayisə olunan dövrdə fərdi sahibkarlıq təsərrüfatlarında istehsal edilən ümumi məhsulun dəyəri 4,9

dəfə artaraq 24755 manata çatmışdır. Müqayisə olunan dövrdə həmçinin fərdi sahibkarlıq təsərrüfatlarında mövcud olan əsas istehsal fondlarının illik dəyəri artaraq 19594 min manat təşkil etmişdir. 2014-cü ildə orta hesabla bir təsərrüfata 20,5 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi düşmüşdür. Bu isə onu göstərir ki, fərdi sahibkarlıq təsərrüfatlarının sərəncamında olan kənd təsərrüfatına yararlı torpaq sahəsinin nisbətən artımı müşahidə edilir və bu investisiya qoyuluşlarının həyata keçirilməsi üçün zəruri olan optimal ölçüyə yaxınlaşır.

Aşağıdakı cədvəldə 2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında bitkiçilik məhsullarının satışı və rentabelliyi (zərərliliyi) öz əksini tapmışdır.

Cədvəl 2.6.

2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında bitkiçilik məhsullarının satışı və rentabelliyi (zərərliliyi)

| Göstəricilər | Miqdarı, min sentner | Cəmi maya dəyəri, min manat | Daxil olan pul gəliri, min manat | Gəlir və ya zərər (+,-), min manat | Rentabellik (zərərlilik), faizi | Bir sentnerin | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Maya dəyəri, manat, qəp | Satış qiyməti, manat,qəp |
| Dənli və dənli paxlalılar | 177,3 | 2915,1 | 3847,8 | 932,69 | 24,7 | 16,44 | 21,7 |
| Xam pambıq | 2,7 | 65,5 | 111,07 | 45,57 | 62,7 | 24,18 | 41,0 |
| Tütün | 0,2 | 14,5 | 18,5 | 4,01 | 19,1 | 70,23 | 89,6 |
| Şəkər çuğunduru | 11,3 | 38,0 | 55,2 | 17,25 | 45,0 | 3,37 | 4,9 |
| Kartof | 59,6 | 1507,6 | 2442,2 | 934,6 | - | 25,31 | 41,0 |
| Tərəvəz (açıq torpaqda) | 74,2 | 750,7 | 1787,7 | 1037,03 | 46,2 | 10,12 | 24,1 |
| Bostan məhsulları | 25,8 | 209,4 | 350,7 | 141,3 | 73,9 | 8,12 | 13,60 |
| Üzüm | 9,2 | 207,0 | 322,7 | 115,7 | 42,5 | 22,39 | 34,9 |
| Meyvə və giləmeyvə | 51,2 | 834,9 | 2259,02 | 1424,05 | 94,9 | 16,3 | 44,1 |
| Çay yarpağı | 0,03 | 3,4 | 3,4 | 0 | 18,9 | 100,0 | 100,0 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin təhlili göstərir ki, fərdi sahibkarlıq təsərrüfatlarında 2014-cü ildə 177,3 min sentner dənli və dənli paxlalılar istehsal edilmişdir. Məhsul satışından təsərrüfat vahidləri 3847,8 min manat pul gəliri, 932,69 min manat həcmində isə mənfəət əldə edilmişdir. Fərdi sahibkarlıq təsərrüfatlarında 2,7 min sentner pambıq

istehsal edilməklə 111,07 min manat həcmində pul gəliri, 45,57 min manatlıq mənfəət əldə edilmişdir. Adı çəkilən təsərrüfat kateqoriyalarında tütün satışından pul gəliri 18,5 min manat, o cümlədən 4,01 min manat mənfəət, şəkər çuğunduru satışından 55,2 min manatlıq pul gəliri, o cümlədən 17,25 min manat həcmində mənfəət, kartof satışından 2442,2 min manatlıq pul gəliri, o cümlədən 934,6 min manat həcmində mənfəət, tərəvəz satışından 1787,7 min manatlıq pul gəliri, o cümlədən 1037,03 min manat həcmində mənfəət, bostan məhsulları satışından 350,7 min manatlıq pul gəliri, o cümlədən 141,3 min manat həcmində mənfəət, üzüm satışından 322,7 min manatlıq pul gəliri, o cümlədən 115,7 min manat həcmində mənfəət, meyvə-giləmeyvə satışından 2259,02 min manatlıq pul gəliri, o cümlədən 1424,05 min manat həcmində mənfəət, əldə edilmişdir.

Cədvəldən göründüyü kimi, bitkiçilik məhsulları içərisində bazar konyunkturuna uyğun olaraq hazırkı şəraitdə daha çox mənfəətli sahə tütünçülük, üzümçülük, meyvəçilik hesab edilir. Bu isə bilavasitə onunla bağlıdırki, adı çəkilən sahələrdə məhsulun satış qiyməti ilə maya dəyəri arasında fərq daha yüksəkdir. Bitkiçilikdə məhsul satışından əldə edilən mənfəətin səviyyəsinə daha çox satış kanallarının mövcud vəziyyəti, eləcə də xammal istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya münasibətlərinin mövcud durumu əhəmiyyətli dərəcədə təsir göstərir. Qeyd etmək lazımdır ki, taxılçılıqda, bostan məhsulları istehsalında emal müəssisələri demək olar ki, fəaliyyət göstərmədiyindən bütün bunlar məhsulun satışı və rentabelliyinə öz təsirini göstərmişdir. Bundan əlavə, pambıqçılıqda, tütünçülükdə isə emal müəssisələrinin inhisarçılığı məhsul satışının nəticələrinə öz təsirini göstərir.

Aşağıdakı cədvəldə 2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında heyvandarlıq məhsullarının satışı və rentabelliyi (zərərliliyi) öz əksini tapmışdır.

Cədvəl 2.7.

2014-cü ildə heyvandarlıq məhsullarının satışı və rentabelliyi (zərərliliyi)

| Göstəricilər | İstehsal min sentner | Cəmi maya dəyəri, min manat | Daxil olan pul gəliri, min manat | Gəlir və ya zərər (+,-), min manat | Rentabellik (zərərlilik), faizi | Bir sentnerin | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Maya dəyəri, manat | Satış qiyməti, manat |
| Mal-qara və quş əti cəmi | 17,87 | 3888,85 | 5891,27 | 2002,42 | 41,8 | 217,57 | 329,60 |

| O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| iri buynuzlu mal-qara | 7,38 | 1562,27 | 2380,79 | 818,52 | 37,5 | 211,69 | 322,60 |
| qoyun və keçi | 4,60 | 974,89 | 1561,92 | 587,03 | 45,9 | 211,84 | 339,40 |
| Quş | 5,85 | 1319,29 | 1597,05 | 277,76 | 45,7 | 225,52 | 273,00 |
| Süd və süd məhsulları | 109,23 | 2998,31 | 5341,26 | 2342,95 | 55,9 | 27,45 | 48,90 |
| Yun | 1,01 | 117,11 | 158,17 | 41,06 | 34,0 | 116,32 | 157,10 |
| Yumurta (mln ədədlə) | 8,41 | 659,52 | 1104,10 | 444,58 | 76,9 | 78,43 | 131,30 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi 2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında bazarın müxtəlif kanalları vasitəsilə 17,87 min sentner ət, o cümlədən 7,38 min sentner mal əti, 4,60 min sentner qoyun əti, 5,85 min sentner quş əti, 109,23 min sentner süd və süd məhsulları, 1,01 min sentner yun, 8,41 min ədəd yumurta reallaşdırılmışdır. Fərdi sahibkarlıq təsərrüfatları tərəfindən ət satışından 2002,42 min manat mənfəət, o cümlədən mal əti satışından 818,52 min manat mənfəət, qoyun əti satışından 587,03 min manat mənfəət, quş əti satışından 277,76 min manat mənfəət, süd və süd məhsulları satışından 2342,95 min manat mənfəət, yun satışından 41,06 min manat mənfəət, yumurta satışından 444,58 min manat mənfəət əldə edilmişdir. Fərdi sahibkarlıq təsərrüfatlarında ət satışının rentabelliyi 41,8%, o cümlədən mal əti 37,5 %, qoyun əti 45,9 %, quş əti 45,7 %, süd və süd məhsulları 55,9 %, yun 34,0 %, yumurta 76,9 % təşkil etmişdir. Cədvəldən göründüyü kimi heyvandarlıq məhsulları içərisində qoyun ətinin satışı daha mənfəətli olmuşdur. Belə ki, qoyun ətinin 1 sentnerindən əldə edilən mənfəət 127,6 manatadək, 1 sentner mal ətinin satışından mənfəət 110,9 manatadək, quş əti satışından mənfəət 45,7 manatadək olmuşdur. Təhlil göstərir ki, ət satışı ilə bağlı müxtəlif reallaşdırma kanallarının mövcudluğu, eləcə də xammal istehsalçıları ilə emalçılar arasında bazarın xarakterinə nisbətən uyğun gələn inteqrasiya münasibətlərinin mövcudluğudur. Aşağıdakı cədvəldə 2014-cü ildə fərdi sahibkar təsərrüfatlarında cəmi satışın rentabellik və zərərlilik səviyyəsi öz əksini tapmışdır.

Cədvəl 2.8.

2014-cü ildə cəmi satışın rentabellik və zərərlilik səviyyəsi

| Göstəricilər | Cəmi maya | Daxil olan pul | Gəlir və ya zərər | Rentabellik |
|---|---|---|---|---|

| | dəyəri, min manat | gəliri, min manat | (+,-), min manat | (zərərlilik), faizi |
|---|---|---|---|---|
| Heyvandarlığın cəmi | 4653,0 | 6761 | 2108 | 45,3 |
| Bitkiçiliyin cəmi | 12717,5 | 17130,5 | 4413 | 34,7 |
| Cəmi satış | 17438,8 | 23995,8 | 6557 | 37,6 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi fərdi sahibkarlıq təsərrüfatlarında 2014-cü ildə heyvandarlıq məhsullarının satışından pul gəliri 6761 min manat, mənfəət isə 2108 min manat təşkil etmişdir. Bitkiçilikdə məhsul satışından daxil olan pul gəliri 17130,5 min manat, mənfəət isə 4413 min manat təşkil etmişdir. 2014-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında cəmi məhsul satışından pul daxilolmaları 23995,8 min manat, mənfəət isə 6557 min manat təşkil etmişdir. Heyvandarlıqda məhsul istehsalına çəkilən xərclər 4653,0 min manat, bitkiçilikdə isə 12717,5 min manat olmuşdur. Heyvandarlıqda məhsul satışının rentabellik səviyyəsi 45,3 %, bitkiçilikdə 34,7 %, bütövlükdə təsərrüfat fəaliyyətinin rentabelliyi isə 37,6 % təşkil etmişdir.

Aşağıdakı cədvəl 2.9.-da fərdi sahibkarlıq təsərrüfatlarında 2014-cü ildə iqtisadi rayonlar üzrə dənli və dənli paxlalıların satışı öz əksini tapmışdır.

Cədvəl 2.9.

2014-cü ildə iqtisadi rayonlar üzrə dənli və dənli paxlalıların satışı

| Göstəricilər | Miqdarı, min sentner | Tam maya dəyəri, min manat | Daxil olan pul gəliri, min manat | Gəlir və ya zərər (+,-), min manat | Rentabellik (zərərlilik), faizi | Bir sentnerin | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Maya dəyəri, manat, qəp | Satış qiyməti, manat,qəp |
| Abşeron | 0,23 | 3,32 | 3,45 | 0,13 | 50,0 | 14,76 | 15,0 |
| Gəncə-Qazax | 19,34 | 370,64 | 417,74 | 47,10 | 51,0 | 19,16 | 21,6 |
| Şəki-Zaqatala | 28,76 | 529,82 | 920,32 | 390,50 | 29,7 | 18,42 | 32,0 |
| Lənkəran | 11,13 | 169,62 | 276,02 | 106,40 | 13,0 | 15,24 | 24,8 |
| Quba-Xaçmaz | 15,48 | 259,39 | 492,26 | 232,87 | 89,0 | 16,76 | 31,8 |
| Aran | 63,16 | 871,03 | 1452,68 | 581,65 | 47,6 | 13,79 | 23,0 |
| Yuxarı Qarabağ | 15,60 | 284,09 | 312,00 | 27,91 | 9,8 | 18,21 | 20,0 |
| Dağlıq Şirvan | 16,40 | 176,77 | 385,40 | 208,63 | 70,4 | 10,78 | 23,5 |
| Kəlbəcər-Laçın | 0,41 | 4,71 | 7,26 | 2,55 | 50,1 | 11,39 | 17,70 |
| Naxçıvan | 6,80 | 85,69 | 211,48 | 125,79 | 102,2 | 12,6 | 31,1 |
| Respublika üzrə cəmi | 177,32 | 2915,12 | 3847,84 | 932,72 | 24,7 | 16,44 | 21,7 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi fərdi sahibkarlıq təsərrüfatlarında 2014-cü ildə respublika üzrə dənli və dənli paxlıların satış həcmi 177,32 min sentner olmuşdur ki, onun da 63,16 min sentneri və ya 35,6 %-i Aran iqtisadi rayonunun, 16,40 min sentneri və ya 9,2 %-i Dağlıq Şirvan iqtisadi rayonunun, 15,48 min sentneri və ya 8,7 %-i Quba-Xaçmaz iqtisadi rayonunun, 28,76 min sentneri və ya 16,22 %-i Şəki-Zaqatala iqtisadi rayonunun, 19,34 min sentneri və ya 10,9 %-i Gəncə-Qazax iqtisadi rayonunun, 6,80 min sentneri və ya 3,8 %-i Naxçıvan MR-in, 11,13 min sentneri və ya 6,3 %-i Lənkəran iqtisadi rayonunun, 0,23 min sentneri və ya 0,13 %-i Abşeron iqtisadi rayonunun, 15,60 min sentneri və ya 8,8 %-i Yuxarı Qarabağ iqtisadi rayonunun payına düşür.

Fərdi sahibkarlıq təsərrüfatlarında 2014-cü ildə respublika üzrə dənli və dənli paxlalıların satışında 932,72 min manatlıq mənfəət əldə edilmişdir ki, bu mənfəətin də 581,65 min manatı və ya 62,4 %-i Aran iqtisadi rayonunun, 390,50 min manatı və ya 41,9 %-i Şəki-Zaqatala iqtisadi rayonunun, 208,63 min manatı və ya 22,4 %-i Dağlıq Şirvan iqtisadi rayonunun, 125,79 min manatı və ya 13,5 %-i Naxçıvan MR-nın, 106,40 min manatı və ya 11,4 %-i Lənkəran iqtisadi rayonunun, 232,87 min manatı və ya 25,0 %-i Quba-Xaçmaz iqtisadi rayonunun, 27,91 min manatı və ya 3,0 %-i Yuxarı Qarabağ iqtisadi rayonunun, 47,10 min manatı və ya 5,05 %-i Gəncə-Qazax iqtisadi rayonunun, 0,13 min manatı və ya 0,01 %-i Abşeron iqtisadi rayonunun payına düşmüşdür. Göründüyü kimi məhsul satışından əldə edilən mənfəətin 62,4 %-i, eləcə də satılan məhsulun 35,6 %-i Aran iqtisadi rayonunun payına düşür. Ümumiyyətlə bütün bunlar istehsalın ixtisaslaşması ilə bağlıdır.

Regionlarda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün son illər bir sıra güzəştli kreditlər verilir.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2014-cü ilin ötən dövrü ərzində 5401 sahibkara 280 milyon manat güzəştli kredit verilmişdir ki, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 12000-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir. Qeyd edilmişdir ki, ümumilikdə, indiyədək Dağlıq Şirvan iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 1446

investisiya layihəsinin maliyyələşdirilməsinə 54,7 milyon manat güzəştli kredit verilmişdir.

- Ümumiyyətlə, Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə dövlətin güzəştli kreditlərinin verilməsi şərtləri ölkə iqtisadiyyatının prioritet hesab olunan bütün sahələri üçün eynidir. Güzəştli kreditlər illik faiz dərəcəsi 6 faiz olmaqla verilir və məbləği 5 min manatdan 10 milyon manatadək, müddəti isə 3 ildən 10 ilədəkdir.

## 2.2. Sahibkarlığın inkişafına dövlət dəstəyinin əsas istiqamətləri və onun inkişaf meylləri

Dövlətin həyata keçirdıyi məqsədyönlü sıyasət nətıcəsində özəl sektora dövlət qurumlarının müdaxıləsinin qarşısı alınmış, sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraıti təmin etmək məqsədılə lısenzıyalaşdırma sahəsində ciddi islahatlar aparılır. Bu tədbirlərin mahiyyətini və konseptual məzmununu iqtısadiyyatın liberallaşdırılması təşkil edir.

Son illərin iqtisadi mənzərəsi iqtısadiyyatda islahatların dınamikliyinə stimul verən mühüm qanunların və proqramların qəbulu, qanunvericiliyin beynəlxalq tələblərə cavab verən standartlara uyğunlaşdırılması ilə müşayiət olunur. Qeyd edək ki, bazar iqtısadiyyatının inkişafı ilk növbədə qanunvericilik bazasının təkmilləşdırilməsi ilə sıx şəkildə bağlıdır. Bu məqsədlə Prezident İlham Əliyev iqtısadiyyatda yeni keyfiyyət və kəmiyyət dəyışikliklərınə nail olmaq üçün dövlət strukturlarının fəaliyyətinin təkmilləşdırilməsınə və yeni idarəetmə strukturlarının yaradılmasına dair fərman və sərəncamlar imzalanmışdır.

Genişmiqyaslı islahatların həyata keçirilməsi Azərbaycanda özəl sektorun dınamik inkışafına şərait yaratmışdır. Özəl bölmənin iqtısadiyyatda payının 98 faizə çatması, yerli investısıyaların xarıci investisiyaları üstələməsi sahibkarlıq fəaliyyətinin inkışafını göstərir. İri biznes layıhələri ilə bərabər, kıçik və orta sahibkarlıq subyektlərının fəaliyyətının intensivləşməsi iqtısadiyyatda qeyri-neft sektorunun payının ilbəil artmasına səbəb olur.

Regionlarının sosial-iqtisadi inkişaf Proqramı» çərçivəsində rayonlarda emal müəssisələrinin yaradılmasına daha çox üstünlük verir. Bu baxımdan İmişli rayonunda

tikilib istifadəyə verilən şəkər zavodu bölgədə yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi və əhalinin gəlirlərinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Şəkər zavodunun tikilib istifadəyə verilməsi həm də şəkər çuğundurunun istehsal həcminin artırılmasına və məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə bilavasitə təsir göstərmişdir.

İmişli şəkər zavodu çox nəhəng emal müəssisə olmaqla, burada ən qabaqcıl texnologiyalar tətbiq olunur.

Bu zavodunun tikilib istifadəyə verilməsi nəinki bölgənin, eləcə də, Azərbaycanın hərtərəfli iqtisadi inkişafına, kənd təsərrüfatının inkişafına, regionların inkişafı proqramının həyata keçirilməsinə böyük dəstək verir. Burada dünyada mövcud olan ən yüksək səviyyədə şəkər istehsalı həyata keçirir. Nəzərə almaq lazımdır ki, şəkər məhsulu bazar üçün yüksək rəqabətli məhsul hesab olunur və tələbatı ödəyir. Ona görə də onun rəqabətqabiliyyətliliyini təmin etmək lazımdır. Azərbaycanın əlverişli sərmayə mühiti var. Bu baxımdan onun iqtisadiyyatına müxrəlif məqsədli investisiyalar yönəldilməlidir.

Ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcminin mütəmadi olaraq artırılmasının başlıca məqsədi dövlətin investisiya siyasətinə uyğun olaraq dövlətlə özəl sektor arasında əlaqə və münasibəti daha da güclənmişdir. Belə ki, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə həyata keçirilən layihələrin hamısı dövlətin və özəl sektorun kapitalı hesabına həyata keçirilir. Eyni zamanda iqtisadi inkişafda sahibkarların rolu onların qoyuduqları investisiyaların həcminə görə müəyyən edilir. Hazırda iqtisadiyyatın inkişafının təkcə neft gəlirlərinin hesabına deyil, qeyri-neft sektorunun formalaşması hesabına təmin edilməsi dövlətin başlıca strateji məqsədinə çevrilmişdir. Dövlətin iqtisadi siyasətində neftdən əldə olunan gəlirlərin hesabına qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə digər maliyyə mənbələrini aşkar edir və prioritet üstünlüyə malik olan sahələrin formalaşmasına yönəldilir. 2014-ci il ərzində qeyri-neft sektorunun inkişafı 10% təşkil etmişdir. Qeyri-neft snayesinin artımı isə 7% təşkil etmişdir.

Son dövrdə Azərbaycanın bir neçə xarici ölkələrlə iqtisadi və elmi-texniki əlaqələri daha da genişlənmiş, ikiqat vergi tutma aradan qaldırılmış və son nəticədə

Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb olunması əlverişli mühit yaratmışdır. Bunun nəticəsidir ki, 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına 119 milyard dillar investisiya qoyulmuşdur ki, bunun da 63 milyardını xarici investisiyalar təşkil edir. 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 25,5 milyard dolları qeyri-neft sektorunun 37,5 milyard dolları isə neft sektorunun inkişafına yönəldilmişdir.

Ölkədə qeyri-neft sektorunun inkişafında bir sıra prioritet üstünlüyə malik olan məsələlərə xüsusi diqqət yetirilməlidir. Onlara aşağıdakıları aid etmək olar:

- Qeyri neft sektorunun inkişafında rəqabətqabiliyyətli məhsulların istehsalına investisiya qoyuluşları dövlət tərəfindən tənzimlənməlidir;

- Qeyri-neft sektorunun inkişafında ixrac yönümlü məhsul istehsal edən sahələrin inkişafına investisiya qoyuluşlarının həcmi daha da artırılmalıdır;

- Qeyri-neft sektoru sahələrinin tarazlı (balanslı) və proprorsional inkişafına qoyulan investisiyalar dövlət tərəfindən tənzimlənməlidir;

- Daxili resurs sərfi əmsalının (DRS) tələblərinə uyğun olaraq potensial rəqabət qabiliyyətinin imkanlarına malik olan məhsulların istehsalına investisiya qoyuluşlarının həcmi artırılmalıdır (aqrar bölməyə, sənayeyə, tikintiyə aid olan sahələr);

- Ölkə iqtisadiyyatına müasir texnika və texnologiya, lizinq, innovasiya, nou-haular formasında birbaşa xarici investisiyaların cəlb olunmasına daha çox üstünlük verilməlidir;

- Dünya bazarında rəqabətə davamlı və beynəlxalq keyfiyyət standartlarına cavab verən məhsulların istehsalına daha çox investisiya yönəldilməlidir.

Göstərilən tövsiyələr bir daha ölkədə qeyri-neft sektorunun hərtərəfli inkişafına və həmin sahələrdən əldə olunan gəlirlərin artmasına təsir göstərəcəkdir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafında regionların tarazlı və proporsional inkişafı da mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair (2004-2008-ci illər və 2009-2013-cü illərdə) DÖvlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramının qəbul edilməsi və icra olunması mühüm əhəmiyyət kəsb edir. Dövlət Proqramına uyğun olaraq Respublikanın bütün

rayonlarında sosial iqtisadi inkişaf istiqamətində mühüm addımlar atılmışdır. Müasir infrastruktur sistemi formalaşmış, yeni istehsal və xidmət sahələri yaranmış, əhalinin məşğulluq səviyyəsində xeyli dərəcədə irəliləyiş baş vermişdir.

2009-cu ildən başlayaraq regionlarda sahibkarlığın inkişafına qoyulmuş xarici və daxili investisiyaların həcmi ardıcıl olaraq artmışdır. 2011-ci ildə ÜDM-də özəl sektorun xüsusi çəkisi 82,5% təşkil etmişdir. Son ildə ölkədə yeni açılmış iş yerlərinin 96,3%-i özəl sektorun payına düşür. 2004-2010-cu illərdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlıq və biznes fəaliyyətinə 700 milyon manat həcmində güzəştli kreditlər verilmişdir. Həmin kreditlərin 80%-i regionların payına düşür. 2011-ci ildə ÜDM-in xarici sektoru üzrə xüsusi çəkisi 80% və qeyri-neft sektoru üzrə 77% təşkil etmişdir. 2012-cil ildə regionlarda 170-dən çox yeni müəssisə istifadəyə verilmiş və hazırda 450-dən çox müəssisələrin yaradılması davam etdirilir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) Dövlət Proqramında qeyri-neft sektorunun inkişaf etdirilməsinə dair aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- Ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- Müasir tipli infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində investisiya qoyuluşlarının həyata keçirilməsi;
- Sahibkarlıq mühitinin yaxşılaşdırılması və onun formalarının daha da inkişaf etdirilməsi;
- Lizinq sisteminin və onun müasir formalarının daha da genişləndirilməsi;
- Dağ və dağətəyi regionlarda əhalinin məşğulluğunu təmin etmək məqsədilə yerli təbii, iqtisadi, əmək potensialını nəzərə almaqla istehsal təyinatlı müəssisələrin yaradılmasına investisiya qoyuluşunu artırmaq.

Azərbaycanda özəl müəssisələrin inkişafı investisiya cəlbediciliyini daha da artırır.

Özəl investisiyalar sahəsində siyasətin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- Azərbaycan müəssisələrinin investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə mühüm tədbirlərin həyata keçirilməsi;
- müəssisələrin texniki cəhətdən yenidənqurulması məqsədilə müasir texnoloji avadanlığın Azərbaycana gətirilməsi üçün xarici ticarət rejiminin təkmilləşdirilməsi;
- daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü rəqabət qabiliyyətli məhsul istehsal edən sahələrə yönəldilməsinə xüsusi diqqət yetirilməsi;
- xidmət sahələrində birbaşa xarici inevstisiyaların dövlət tənzimləmə rejiminin daha da təkmilləşdirilməsi;

2014-cü ilin yanvar-mart ayları ərzində ölkənin qeyri-neft sektorunda 6644,1 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 56,5 %-dən çoxu sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür.

2014-cü ildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,4% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,6 % artaraq 51,3% təşkil etmişdir. Qeyri-neft sektorunun inkişafında əsasən etibarilə Sənayenin bir sıra sahələrini, tikinti, rabitə, turizm, turizm xidməti və digərlərini göstərmək olar.

O cümlədən, qeyri neft sənayesi üzrə məhsul istehsalında mədənçıxarma səanyesi 1,4%, emal sənayesi 63,9%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təhcizatı, tullantıların tənzimlənməsi isə 2,8% xüsusi çəkiyə malikdir.

2013-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2902,2 milyon manat vəsait yönəldilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 36,1% artmışdır.

Azərbaycanda müstəqilliyin ilkin dövrlərdə ölkə daxili maliyyə ehtiyyatlarının məhdud olması səbəbləri ölkənin istehsal və sosial strukturunun yenidən

qurulmasında beynəlxalq maliyyə təşkilatlarının geniş maliyyə imkanlarndan maksimum səviyyədə faydalanmaq üçün bu təşkilatlarla müttəfiqlik etmişdir. Azərbaycana kredit verən təşkilatların başında Avropa İttifaqı (TACIS, TRACECA, İNOGATE), BVF, Dünya Bankı (İBRD), ABŞ İxrac və İdxal Bankı, Beynəlxalq İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Türk Eximbankı, İslam İnkişaf Bankı (İsDB), Yaponiya Beynəlxalq Müttəfiqlik Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB), İFC, Kreditanstalt fur Wiesderaufbau (KfW, Almaniya) gəlir. Zəmanət baxımından sərmayə riskinin azaldılması üçün Çox Tərəfli İnvestisiya Zəmanət Agenti (MIGA) Azərbaycanda fəaliyyət göstərir.

Bu təşkilatlar tərəfindən açılan kreditlər, bazar iqtisadiyyatını formalaşdırmaq üçün xüsusi maliyyə mənbələridir. Xarici kredit almaqla yanaşı Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən edilən yardımlar da önəmli dərəcədə olduqca faydalıdır. Bunların arasında, Avropa İttifaqı tərəfindən edilən yardımlar və kreditlər xüsusi yer tutur. Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq iqtisadi Müttəfiqlik Fondu kimi digər beynəlxalq maliyyə təşkilatlarından kredit alınmasına baxmayaraq, alınan xarici kreditlərdə əsas üstünlüyü BVF və Dünya Bankından alınan kreditlər təşkil edir.

Beynəlxalq maliyyə institutlarının Azərbaucana etibarlı tərəfdaş kimi yanaşmaları bu ölkədə əlverişli investisiya mühütinin mövcud olması ilə əlaqədardır.

İnvestisiya mühitinə təsir edən amillər çoxsaylı və müxtəlif aspektlidir. İnvestisiya mühiti ölkənin sahə sahə və regionlarına səmərəli investisiya qoyuluşlarının həyata keçirilməsinə mühüm təsir göstərir.

Bu baxımdan, ölkəmizdə xarici investisiyaların əlverişli şərtlərlə cəlb edilməsinin perspektivləri aşağıdakılardır:

- infrastruktur sistemlərinin inkişafına yeni yanaşmaların optimallaşdırılması;
- idxalı əvəz edən məhsulların istehsalı üçün iqtisadi və institusional mühitin dəstəklənməsi;
- xarici investisiyaların əsas regionların tarazlı inkişafına yönəldilməsi;

- ixrac potensialının genişləndirilməsi üçün tədbirlər kompleksinin hazırlanması və həyata keçirlməsi.

İnvestisiya mühitinin mövcud olması xarici və daxili investisiyaların sərbəst olaraq hərəkətini təmin edir və ölkənin sosial iqtisadi inkişafında öz rolunu göstərir. Bununla yanaşı, əlverişli investisiya mühitinin yaranması investisiya haqqında qanunların sərbəst olaraq reallaşmasına və ölkənin investisiya strategiyasının normal sürətdə həyata keçməsinə şərait yaradır. Gələcəkdə əlverişli investisiya mühitinin yaranması birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasını stimullaşdırır və investorlar arasında rəqabət mübarizəsini daha da gücləndirir.

Sahə və regionlar üzrə investisiya qoyuluşlarının səmərəliliyinin artmasında investorlar arasında baş verən rəqabət mühitinin müxtəlif formalarının tətbiq olunması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) Dövlət Proqramında qeyri-neft sektorunun inkişaf etdirilməsinə dair aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- Ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- Müasir tipli infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində investisiya qoyuluşlarının həyata keçirilməsi;
- Sahibkarlıq mühitinin yaxşılaşdırılması və onun formalarının daha da inkişaf etdirilməsi;
- Qeyri-neft sektoru sahələrinin inkişafının dövlət tərəfindən stimullaşdırılması;
- Lizinq sisteminin və onun müasir formalarının daha da genişləndirilməsi ;
- Dağ və dağətəyi regionlarda əhalinin məşğulluğunu təmin etmək məqsədilə yerli təbii, iqtisadi, əmək potensialını nəzərə almaqla istehsal təyinatlı müəssisələrin yaradılmasına investisiya qoyuluşunu artırmaq.

Ölkə iqtisadiyyatına yatırılan investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi hələ də öz əhəmiyyətli rolunu saxlamaqdadır. Kənd təsərrüfatına, yeni sənaye sahələrinin inkişafına sərmayə qoyulur və bu, qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda dövlətin iqtisadi siyasətinin əsas məqsədi qeyri-neft sektorunu inkişaf etdirməkdən, iqtisadiyyatı şaxələndirməkdən və yeni istehsal sahələri yaratmaqdan ibarətdir ki, bu da ilk növbədə daxili tələbatın yerli istehsal hesabına təmin edilməsinə əlverişli şərait yaradacaq.

Qeyri-neft sektorunun inkişafı baxımından kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin yaradılması alternativ ixrac sektorunun formalaşdırılmasına da əlverişli şərait yaradır. Bundan əlavə respublikada idxalı əvəz edən məhsulların istehsalı təmin edilir. Yerli istehsalın güclənməsi və ölkədə istehsal olunan malların xarici bazarlara çıxarılması məsələsi təmin olunur. Təbiidir ki, respublikamızda istehsal olunan şəkər dünya bazarlarına çıxarılacaqdır. Çünki bu, birja məhsuludur və zavod bu məhsulun satışında heç bir problemlə üzləşməyəcəkdir. Çünki bu, birja vasitəsilə satılacaq və ölkə xəzinəsinə vergilər şəklində böyük həcmdə vəsait daxil ediləcəkdir və eyni zamanda insanlar işlə təmin olunacaqdır. Bir sözlə, bölgələrdə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan emal müəssisələrinin yaradılmasına investisiyaların qoyulması çox böyük əhəmiyyət kəsb edir, ölkədə sahibkarlığın inkişafına böyük təsiri, böyük dəstəyi olacaqdır.

Məlum olduğu kimi, bu il ölkə büdcəsində sahibkarlığın inkişafı üçün təxminən 100 milyon dollar vəsait nəzərdə tutulmuşdur. "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması kənd təsərrüfatında sahibkarlığın inkişafına hərtərəfli təkan verəcəkdir.

«Azersun şirkəti 21 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərir. «Azersun» şirkətinin əsas fəaliyyəti yerli istehsalın təşkil olunmasına yönəldilmişdir. Yəni yeni müəssisələr - fabriklər, zavodlar yaradılır, kənd təsərrüfatı ilə məşğul olanlar üçün yeni iş yerləri açılır. «Azersun» şirkətinin respublikadakı fəaliyyəti çox uğurludur. Çox müsbət hal budur ki, zavodun istismara verilməsi, eyni zamanda, ölkədə əlverişli sərmayə mühitinin olmasına dəlalət edir. Təbiidir ki, sərmayədarların ölkənin bu gününə və gələcəyinə inamı olmasaydı, heç vaxt bu cür sərmayələr qoyulmazdı. Sərmayələr məhz o yerlərə, o ölkələrə qoyulur ki, orada ictimai-siyasi sabitlik var,

iqtisadiyyat sürətlə inkişaf edir, siyasi proseslər normal məcrada gedir və bütövlükdə ölkənin gələcəyi və perspektivləri çox aydındır. Təbii ki, respublikamız da artıq məhz bu cür ölkələrdəndir.

Hər bir ölkənin iqtisadi və sosial inkişafını təmin edən məhz bu amillərdir. Ölkəmizdə neft-qaz sektoruna, kənd təsərrüfatına, yeni sənaye müəssisələrinin yaradılmasına, infrastruktur layihələrinə külli miqdarda sərmayə qoyulur.

Fikrimizcə, respublikada şəkər çuğunduru istehsalının artırılması bölgədə fəaliyyət göstərən şəkər zavodunun öz fəaliyyətini daha da genişləndirməsinə gətirib çıxaracaqdır. Təbii ki, bu zaman qısa müddət ərzində zavodun fəaliyyəti bölgədə gedən inkişaf proseslərinə çox sürətlə və hərtərəfli təsir göstərəcəkdir. Çünki iqtisadi potensial artacaq, başqa sərmayədarlar da bu zavodun fəaliyyətini görüb həvəslənəcəklər.

Həyata keçirilən transformasiya yönümlü dəyişikliklər sürətlə inkişaf edir ki, hər bir sahəyə qoyulan vəsait qısa müddət ərzində özünü doğruldur və böyük gəlir gətirir. Iş adamlarının, sahibkarlığın əsas məqsədi də budur. Bu da təbiidir. Bu, ölkənin inkişafını təmin edir, mövcud olan sosial problemlərin həllinə kömək göstərir və ölkə hərtərəfli inkişaf edir. İqtisadi potensial olmasa, imkanlar olmasa, ölkənin heç bir problemi öz həllini tapa bilməz. Büdcəmiz ildən-ilə artır, minimum əmək haqqı ildə iki dəfə qaldırılır. Bütün bunlar iqtisadi potensiala bağlıdır. İqtisadi potensialı isə məhz belə zavodlar təşkil edir.

Azərbaycanda sənayenin yeni istiqamətləri yaradılmalıdır. Kənd təsərrüfatı inkişaf etməlidir, ölkə əhalisinin yarısı kənd təsərrüfatı ilə məşğul olur. Artıq bazar münasibətləri şəraitində ölkəmiz üçün kifayət qədər yeni olan sənaye istehsalı yaradılır, məsələn, indiyədək respublikada heç vaxt şəkər zavodu olmamışdır, - eyni zamanda, bu tip müəssisələrin yaradılması kənd təsərrüfatının inkişafına böyük təkan veriləcəkdir.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından istehlak olunan bütün ərzaq məhsulları özümüzdə istehsal edilməlidir. Fikrimizcə, kənd təsərrüfatının və bütövlükdə aqrar-ərzaq kompleksinin dövlət tənzimlənməsi tədbirlərinin sürətləndirilməsi bu sahəyə dövlət yardımının göstərilməsi, sahənin investisiya

cəlbediciliyinin yüksəldilməsi nəticəsində bu məqsədə qısa müddət ərzində nail olmaq mümkündür. Məsələn, konkret olaraq Imişli şəkər zavodunun timsalında gələcəkdə şəkərlə bağlı olan problemləri həll etmək mümkündür. Indiyədək Azərbaycana şəkər xaricdən gətirilirdi. Emal müəssisəsinin öz fəaliyyətini genişləndirməsi eyni zamanda xaricdən şəkər gətirilməsinin məhdudlaşmasına gətirib çıxarmaqla, həm də dünya bazarlarına da məhsul ixracının güclənməsinə səbəb olacaqdır.

İstehlak edilən ərzaq məhsullarının ölkədə istehsal edilməsi milli ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından geniş potensial imkanlar mövcuddur. Belə ki, əlverişli təbii iqlim şəraiti və təbii sərvətlərimiz var, kənd təsərrüfatı imkanları da genişdir. Yeni nəhəng müəssisələr yaradılanda həm özəl sektor tərəfindən vəsait qoyulmalıdır, eyni zamanda, dövlət tərəfindən də kreditlər ayrılmalı, imtiyazlar, vergi güzəştləri verilməlidir.

Dövlətin iqtisadi siyasəti ölkədə çox güclü sənaye potensialının yaranmasına istiqamətlənməlidir. Bundan əlavə istehsal olunan məhsulların müqayisəli üstünlüyünün təmin edilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi gərəkdir ki, həmin məhsullar dünya bazarlarında asan satılsın. Məlum olduğu kimi, dünya bazarında gedən rəqabət ölkəmizdə istehsal olunan məhsulların dünya bazarına çıxmasına imkan vermir. Bəzi hallarda isə keyfiyyət buna imkan vermir. Qeyd etmək lazımdır ki, ölkədə bazar iqtisadiyyatının formalaşması ilə bağlı artıq sənayenin yeni istiqaməti ilə yanaşı kənd təsərrüfatı sahəsi yaranmışdır. Kənd təsərrüfatı ilə məşğul olanlar üçün də yeni imkanlar açılır. Onlar özləri qərar qəbul edirlər ki, hansı məhsulu yetişdirməklə məşğul olsunlar. Pambıqmı əksinlər, üzümmü əksinlər, çuğundurmu əksinlər - bunu bazar göstərəcəkdir. Artıq kənd təsərrüfatı ilə məşğul olan insanlar qarşısında seçim imkanları yaranmaqdadır.

Bir cəhəti qeyd etmək lazımdır ki, Azərbaycanda sənaye potensialının inkişafı kənd təsərrüfatında çoxsaylı emal müəssisələrinin yaradılmasına təkan verəcəkdir. Bu baxımdan dövlət müasir sənaye qovşaqlarının yaradılmasına daha çox üstünlük verir. Xarici və daxili sərmaye qoyuluşlarını həyata keçirir. Həmçinin qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın bütün sahələrinin kompleks formada inkişafını təmin edəcəkdir. Hazırda dövlət tərəfindən sahibkarlığın daha geniş inkişafı məqsədilə bütün

regionlarda ərzaq-sənaye kompleksinin yaradılması strategiyasına üstünlük verilir və ona sərmayə qoyulur. Belə bir kompleksin yaradılması kənd təsərrüfatında ixrac yönümlü məhsulların istehsalına təkan verəcəkdir. Regionlarda sahibkarlığın inkişafına dəstək verilməsi üçün ayrı-ayrı rayonlarda və şəhərlərdə ərzaq sənaye kompleksinin filialları yaradılmalıdır. Eyni zamanda ərzaq sənaye komplekslərinin məhsullarına bazarlarda rəqabət mühiti yaradılmalıdır. Belə bir məsələni də vurğulamaq olar ki, indiyə kimi ölkəyə xaricdən idxal olunan ərzaq məhsulları yerli məhsulların istehsalına mane olur və son nəticədə sahibkarlar həmin məhsulların istehsalında maraqlı olmurlar.

Aqrar sahəyə dövlət yardımlarının genişləndirilməsi davamlı inkişafın ən mühüm parametrlərindən biri hesab edilir. Bu baxımdan "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardımın verilməsi Qaydaları"nın və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında sərəncam vermişdir. Sərəncama görə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin qiymətinə 70 faiz həcmində və yeni dəyişdirilmiş bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə 80 manat məbləğində güzəşt müəyyən edilmişdir.

Kənd təsərrüfatı əmtəə istehsalçılarına becərdikləri məhsul növlərinə görə dövlət tərəfindən ödənilən yardımlar haqqında məlumat aşağıdakı cədvəl 2.10.-da göstərilmişdir.

Cədvəl 2.10.

Kənd təsərrüfatı bitkilərinin əkin sahəsinə görə 2014-cü ildə dövlət tərəfindən ödənilən yardımların həcmi

| | Əkin sahəsi, min ha | Yardımların həcmi, min manat | Cəmi ödəmələrdə xüsusi çəki |
|---|---|---|---|
| Taxıl | 1074,1 | 42964 | 63,7 |

| | | | |
|---|---|---|---|
| Qarğıdalı | 38,6 | 1544 | 2,2 |
| Pambıq | 23,5 | 940 | 1,4 |
| Kartof | 65,3 | 2612 | 3,9 |
| Tərəvəz | 77,6 | 3104 | 4,6 |
| Üzüm bağı | 16,1 | 644 | 0,9 |
| Meyvə bağı | 113,2 | 4528 | 6,7 |
| Digər əkinlər | 275,8 | 11032 | 16,3 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2014-cü ildə 1074,1 min ha taxıl əkilməsinə görə əmtəə istehsalçılarına 42964 min manat, 23,5 min ha pambıq əkininə görə 940 min manat, 65,3 min ha kartof sahəsinə görə 2612 min manat, 77,6 min ha tərəvəz sahəsinə görə 3104 min manat, 16,1 min ha üzüm bağına görə 644 min manat, 113,2 min ha meyvə bağlarına görə 4528 min manat, 275,8 min ha digər əkmələrə görə 11032 min manat, bütövlükdə 1684,2 min ha əkin sahəsinə görə 67368 min manat məbləğində vəsait istehsalçılara ödənilmişdir. Eyni zamanda kənd təsərrüfatı əmtəə istehsalçılarının vergidən azad olunmaları nəticəsində dövlət büdcəsindən dolayı formada subsidiyalar ödənilir.

Dövlət büdcəsindən kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə təsərüüfat fəaliyyətini dəstəkləmək üçün nəzərdə tutulan vergi güzəştlərinin məbləğinin dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2.11.

Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün nəzərdə tutulan vergi güzəştlərinin məbləği

| Illər | Məbləğ, milyon manat | Kənd təsərrüfatının ümumi məhsulu, mln manat | Vergi güzəştlərinin kənd təsərrüfatının ümumi məhsulunda xüsusi çəkisi, % |
|---|---|---|---|
| 2000 | 63.7 | 1112,4 | 6 |
| 2001 | 70.8 | 1242,2 | 6 |
| 2002 | 76.2 | 1342,9 | 6 |
| 2003 | 82.0 | 1450,5 | 6 |
| 2004 | 86.9 | 1572,7 | 6 |
| 2005 | 102.6 | 1844,8 | 6 |
| 2006 | 119.0 | 2115,5 | 6 |
| 2007 | 123.8 | 2918,6 | 4 |
| 2008 | 143,7 | 3505,9 | 4,1 |
| 2009 | 152,2 | 3805,5 | 4 |
| 2010 | 164,1 | 3877,7 | 4,2 |
| 2011 | 194,5 | 4525,2 | 4,3 |
| 2012 | 208,3 | 4844,6 | 4,3 |

| | | | |
|---|---|---|---|
| 2013 | | 5244,6 | |
| 2014 | | 5225,8 | |
| 2000-ci illə müqa-yisədə 2014-ci ildə | 3,2 dəfə | 4,6 dəfə | X |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin təhlili göstərir ki, 2000-ci illə müqayisədə 2014-ci ildə kənd təsərrüfatına dövlət büdcəsindən edilən vergi güzəştlərinin məbləği 3,2 dəfə artmışdır. 2000-2006-cı illərdə vergi güzəştlərinin kənd təsərrüfatının ümumi məhsulunda xüsusi çəkisi 6%, 2007-ci ildən isə 4% təşkil etmişdir.

Belə ki, kənd təsərrüfatı əmtəə istehsalçılarına vergi güzəştlərinin məbləği 2000-ci ildə 63,7 mln manat, 2001-ci ildə 70,8 mln manat, 2002-ci ildə 76,2 mln manat, 2003-cü ildə 82 mln manat, 2004-cü ildə 86,9 mln manat, 2005-ci ildə 102,6 mln manat, 2010-cı ildə 164,1 mln manat, 2012-ci ildə 123,8 mln manat təşkil etmişdir. 2014-cü ildə toxum istehsalçılarına 1-ci və 2-ci reproduksiyalı toxum və ting satışına görə 8937297,0 manat, orjinal, superelit və elit istehsalına isə 930.0 min manat vəsait ayrılmışdır.

Məhz bütün bunların nəticəsidir ki, 2014-cü ildə ölkədə əsas növ bitkiçilik və heyvandarlıq məhsullarının istehsalında artım əldə edilmişdir.

2014-cü ildə 41,0 min ton xam pambıq, 20,3 min ton dən üçün günəbaxan və 2,9 min ton tütün istehsal edilmişdir. Ölkədə ötən il 5706 hektar sahədə emal üçün şəkər çuğundurunun əkini aparılmış, 5606 hektarın (98,2 %) çuğunduru qazılmış və həmin sahələrin hər hektarından 312 sentner olmaqla 175,1 min ton məhsul götürülmüşdür. Hesabat ilində sahələrdən 819,3 min ton kartof, 1187,7 min ton tərəvəz, 440,9 min ton bostan məhsulları toplanmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən kartof istehsalı 17,5 faiz, tərəvəz istehsalı 3,9 faiz azalmış, bostan məhsullarının istehsalı isə 2,6 faiz artmışdır. Hektarın orta məhsuldarlığı kartof üzrə 133 sentner, tərəvəz üzrə 150 sentner və bostan məhsulları üzrə 157 sentner olmuşdur. 2014-cü ildə 849,9 min ton meyvə və giləmeyvə, 147,7 min ton üzüm və 474,2 ton yaşıl çay yarpağı məhsulu toplanmışdır.

Son illərdə dövlətin dəstəyi ilə ölkəyə cins mal-qaranın gətirilməsi və təsərrüfatlarda süni mayalanmaya üstünlük verilməsi nəticəsində mal-qaranın baş

sayının sabitləşdirilməsinə səbəb olmaqla yanaşı, məhsul istehsalına da öz müsbət təsirini göstərmişdir. 2014-cü ildə diri çəkidə 505,5 min ton ət, 1855,8 min ton süd, 1562,7 milyon ədəd yumurta və 16,8 min ton yun istehsal edilmişdir. Ət istehsalı 2013-cü illə müqayisədə 8,3 min ton və ya 1,7 faiz, süd istehsalı 59,1 min ton və ya 3,3 faiz, yumurta istehsalı 161,3 milyon ədəd və ya 11,5 faiz, yun istehsalı isə 263 ton və ya 1,6 faiz artmışdır. 2014-cü il yanvarın 1-nə mövcud inək və camışların sayına hesablamaqla orta süd sağımı 1401 kiloqrama (2013-cü il 1363 kq) bərabər olmuşdur. Ötən il quşçuluq fabriklərində diri çəkidə 85,3 min ton (keçən il 73,3 min ton) quş əti, 703,3 milyon ədəd (keçən il 561,0 milyon ədəd) yumurta istehsal olunmuşdur. Ümumilikdə fabriklər üzrə cəmi quşların sayı 41,1 faiz artaraq 11,6 milyonu keçmiş, hər toyuqdan orta hesabla 227 ədəd yumurta alınmışdır. Bütün bunlar bir daha onu göstərir ki, ulu öndərin layiqli davamçısı ölkə Prezidenti I.H.Əliyev cənablarının apardığı uğurlu aqrar siyasət nəticəsində artıq ölkədə aqrar sahənin davamlı inkişafının etibarlı fundamentləri yaradılmışdır.

Kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemində investisiya qoyuluşları əhəmiyyətli rola malikdir. Kənd təsərrüfatına investisiya qoyuluşlarının artırılması ilk növbədə intensiv texnologiyanın tətbiqinə əlverişli şərait yaratmaqla, torpaqların məhsuldarlığının yüksəldilməsinə xidmət edir. Kənd təsərrüfatına investisiya qoyuluşlarının dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2.12.

Kənd təsərrüfatına investisiya qoyuluşlarının dinamikası

| | Əsas kapitala yönəldilmiş investisiyalar, | | Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | |
|---|---|---|---|---|
| | Mln manat | xüsusi çəkisi, faizlə | mln manat | Xüsusi çəkisi, faizlə |
| 2000 | 967.8 | 100 | 6.5 | 0.7 |
| 2005 | 5769.8 | 100 | 40.6 | 0.7 |
| 2006 | 6234.4 | 100 | 58.3 | 0.9 |
| 2007 | 7471.2 | 100 | 243. | 3.3 |
| 2008 | 9944.2 | 100 | 336,5 | 3,4 |
| 2009 | 7724.9 | 100 | 266,6 | 3,5 |
| 2010 | 9905.7 | 100 | 431 | 4,4 |
| 2011 | 12799,1 | 100 | 437,3 | 3,4 |
| 2012 | 15407,3 | 100 | 648,8 | 4,2 |
| 2013 | 17850,8 | 100 | 574,3 | 3,3 |

| | | | | |
|---|---|---|---|---|
| 2014 | 17618,6 | 100 | 363,9 | 2,07 |

Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı 2015.

Cədvəldən göründüyü kimi 2014-cü ildə kənd təsərrüfatına 363,9 mln manatlıq investisiya qoyulmuşdur ki, bu da milli iqtisadiyyatda əsas kapitala yatırılmış məcmu investisiyanın 2,07%-ni təşkil etmişdir. 2005-2014-cü illərdə kənd təsərrüfatına investsiya qoyuluşlarının məcmu investisiya qoyuluşlarında xüsusi çəkisi 4.4%-i ötməmişdir. 2012-ci ildə kənd təsərrüfatına investisiya qoyuluşları 4,2%-ə bərabər olmuşdur ki, bu da demək olar ki, son 15 il ərzində ən yüksək göstərici sayıla bilər.

Kənd təsərrüfatına dövlət yardımının artırılması baxımından dövlət tənzimlənməsinin prioritet istiqamətləri müəyyənləşdirilməlidir. Odur ki, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının dövlət tənzimlənməsinin prioritet istiqamətləri ərzaq təhlükəsizliyinin təmin edilməsinə uyğunlaşdırılmalıdır.

Bu baxımdan Azərbaycan Respublikası prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda 2015-ci il üçün əsas hədəf kimi dənli bitkilərin əkin sahələrinin 900 min hektara, məhsuldarlığın 32 s/ha-ya, ümumi məhsul istehsalının isə 2,8 milyon tona çatdırılması nəzərdə tutulmuşdur. Araşdırmalar göstərir ki, bu hədəfə nail olunması üçün kifayət qədər geniş potensial imkanlar da mövcuddur. 2012-ci ildə ölkə üzrə 2802,2 min ton taxıl istehsal edilmişdir ki, Məsələn, 2009-cu ildə Azərbaycanda taxıl istehsalı ən yüksək həddə - 2 milyon 988 min tona çatmışdır. Hazırda respublikada kartof istehsalı 968,5 min tona çatmışdır. Eyni zamanda daxili tələbatdan artıq kartof istehsal edilmişdir. Azərbaycan 2002-ci ildən başlayaraq Rusiya bazarlarına faraş kartof göndərir. Bu da ondan irəli gəlir ki, insanlarda müəyyən sərbəstlik yaranıb. Onlar bazarın diqtə etdiyi qaydalar əsasında məhsul istehsal edə bilirlər. Həmçinin ölkəyə müasir texnologiyalar gətirilir. Son illər daxili istehsal hesabına ölkənin ərzaq təminatı xeyli artırmışdır. Bəzi məhsullar üzrə (çörək, kartof, tərəvəz) istehlak normaları ödənilib. Hazırda ət (87,7%), süd məhsulları (76,3%), quş əti (98,0%) daxili istehsal hesabına ödənilməkdədir. Son illərdə quş əti

istehsalı artıb. Ancaq hələ də onun bir qismi kənardan alınır. Ümumiyyətlə isə ölkəmizə idxal edilən ərzaq məhsullarının həcmi çox artmasa da, ixrac kəskin sürətdə aşağı enib.

Dövlət proqramında heyvandarlığın inkişafının əsas hədəfləri də müəyyənləşdirilmişdir. Belə ki, 2015-ci ildə əsas hədəf kimi ət istehsalının 340 min tona, süd və süd məhsulları istehsalının isə 2,4 milyon tona, sənaye üsulu ilə illik quş əti istehsalının 80 mın tona, yumurta istehsalının isə 1,3 milyard ədədə çatdırılması nəzərdə tutulmuşdur. Hesab edirik ki, hazırda mövcud olan heyvanların miqdarı heç də az deyil. Lakin onların məhsuldarlığı aşağıdır. Əgər ildə bir baş qaramaldan 3 min litr süd, 350 kiloqram çəkidə ət alınarsa, daxili tələbatı ödəyə bilərik. Onda heyvanların sayını təqribən yarıya qədər azaltmaq olar. Hazırda respublikada 2442,4 min baş iri buynuzlu mal-qara, 8630,5 min baş qoyun və keçilər mövcuddur. Təbii ki, məhsuldarlığın artırılması hesabına iri buynuzlu mal-qaranın sayını 1 milyon 500 minə endirmək mümkündür. Məhsuldarlığı artırmaq hesabına eyni zamanda, otlaqların həddindən artıq yüklənməsi, ot örtüyünün deqradasiyasının qarşısı alınar.

Dövlət proqramında göstərildiyi kimi, ölkənin əkin strukturunda dəyişikliklər edilməldir. Əvvəllər pambıq, tütün daha çox əkilirdisə, indi həmin torpaqlarda tərəvəz məhsulları, yağlı bitkilər - günəbaxan, qarğıdalı əkilməyə başlanılıb. Bu, müsbət tendensiyadır. Son zamanlaradək ölkə şəkəri 100 faiz kənardan idxal edirdi. Amma ölkədə şəkər çuğunduru yetişdirmək üçün çox böyük imkanlar vardı. Bir neçə rayonda həmin məhsullar əkilir. Lakin 2006-cı ilə qədər onların emalı Türkiyədə, Iranda aparılırdı. Bu isə iqtisadi cəhətdən qeyri-səmərəlidir. Artıq ölkəmizdə belə bir sənayenin əsası qoyulmuş və neçə illdir ki, Imişli rayonunda şəkər zavodunun məhsulları daxili bazara çıxarılır. Ölkədə əkin sahələrinin strukturunun təkmilləşdirilməsi bitki yağlarının, tərəvəzin, heyvandarlıq məhsullarının artmasına səbəb olacaqdır.

Kənd təsərrüfatı məhsullarının emalı başlıca şərtlərdən biridir. Azərbaycan çox zəngin və qidalı bostan və tərəvəz məhsulları, meyvə istehsal edir. Lakin həmin məhsulların xarici bazarlara çıxarılması dövlət tərəfindən stimullaşdırılmalıdır.

Bunlara nail olmaq üçün müasir standartlara cavab verən emal müəssisələri yaradılmalı onlar çevik texnologiyalarla təmin olunmalıdır.

Kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemində bölgələr üzrə heyvandarlıq məhsullarının emalı müəssisələrinin yaradılması da ön plana çəkilməlidir. Ət məhsullarının emal olunması və xarici bazarlara çıxarılması təmin olunmalıdır.

Əgər fermer təsərrüfatında gübrə yoxdursa, yüksək məhsuldarlıqdan söhbət gedə bilməz. Hazırda respublikada əkin sahələrinin gübrə ilə təminatı 46 faiz, zərərvericilərə qarşı istifadə edilən bəzi kimyəvi maddələrlə təminat isə 50 faiz təşkil edir. Mal-qaranın yoluxucu xəstəliklərinə qarşı mübarizədə, müalicəvi preparatların, vaksinlərin əldə edilməsində müəyyən problemlər var. Fikrimizcə, bunun bir qismini ölkənin daxili imkanları hesabına həyata keçirmək mümkündür. Fermer təsərrüfatlarının texnika ilə təmin edilməsi məqsədilə kəndlərin yaxınlığında 500-1000 hektarlıq ərazilər üçün aqroservis müəssisələrinin qurulması nəzərdə tutulmuşdur. Bu məqsədlə Yaponiya hökuməti ilə müqavilə bağlanmış və kənd təsərrüfatı texnikasının alınması üçün 5 illik qrant ayrılmışdır. Müasir servis xidmətinin yaradılması məhsul itkisinin aradan qaldırılmasına səbəb olacaqdır.

Kənd təsərrüfatının səmərəli fəaliyyətini təmin etmək üçün dünya təcrübəsindən istifadə olunmalıdır. Məsələn, Avropa Birliyinin 2014-cü il üçün büdcəsi 105 milyard avro təşkil etmişdir. Onun təxminən yarısı kənd təsərrüfatına yönəldilir. Kəndlilərin dəstəklənməsinə ən çox vəsaiti Fransa (9,4 milyard avro), sonra İspaniya (6,3 milyard avro), Almaniya (8,1 milyard avro), Italiya (5 milyard avro) ayırır. Rumıniyada təsərrüfatların 86,4 faizi yardım alır. Onların əksəriyyəti xırda və orta təsərrüfatlardır ki, hər birinə 1250-20000 avro məbləğində yardım göstərilir. Iri təsərrüfatların yalnız 11,1 faizi yardım alır. Yardımın böyük əksəriyyəti taxıl və ət istehsalçılarına verilir.

Dotasiyaların tərkibini nəzərdən keçirdikdə məlum olur ki, məsələn, Finlandiyada onun 42 faizi AB-nin büdcəsindən, 58 faizi isə milli büdcədən maliyyələşir. Bu dotasiyalar da üç qrupa bölünür. Onlara: Vahid kənd təsərrüfat dotasiyaları (bitkiçilik və heyvandarlıq məhsullarına); əlverişsiz hava şəraiti; habelə

ətraf mühitin qorunması üçün verilən dotasiyalar aiddir. AB-dən alınan vahid kənd təsərrüfatı dotasiyalarının böyük əksəriyyəti satış fəaliyyəti ilə əlaqədardır. Dotasiyalar ölkə daxilində regionlar üzrə də fərqlənir. Bunlarla yanaşı, hökumət struktur siyasəti də həyata keçirir. Bu siyasət isə adətən fermerlərin sayının azaldılmasına və onların orta həcminin artırılmasına, yəni təmərküzləşməyə yönəldilir.

Rusiyada kənd təsərrüfatında dövlət tənzimləmələri "Aqrar-sənaye istehsalının dövlət tənzimləmələri haqqında" Qanuna əsasən həyata keçirilir. Qanunla dövlət tənzimləmələrinin aşağıdakı istiqamətlərli müəyyən edilmişdir: kənd təsərrüfatı məhsullarından ibarət xammal və ərzaq bazarının formalaşması və inkişafı, kənd təsərrüfatının maliyyələşməsi, kreditləşdirilməsi, sığortası, güzəştli vergi alınması,xarici iqtisadi fəaliyyətdə kənd istehsalçılarının maraqlarının qorunması, aqrar-sənaye istehsalında elmi fəaliyyətin həyata keçirilməsi və inkişaf etdirilməsi, kənddə sosial sferanın inkişaf etdirilməsi və s.

Hazırda Azərbaycan əhalisinin yarısı kəndlərdə yaşayır, iqtisadiyyatda məşğul olan əhalinin isə 40 faizi kənd təsərrüfatında çalışır. Ölkədə ümumi daxili məhsulun 18 faizi bu sahədən qaynaqlanır. Respublika əhalisinin gəlirlərinin böyük hissəsi isə yeyinti və kənd təsrrüfatı məhsullarının alınmasına sərf edilir. Bir cəhəti də qeyd etmək olar ki, ölkə əhalisinin daxili miqrasiyası nəticəsində respublikada kənd təsərrüfatının inkişafına ciddi ziyan dəymişdir. Belə ki, kənd yerlərində fəaliyyət göstərən çoxsaylı kənd əməkçiləri öz torpaqlarından ayrılaraq şəhər və qəsəbələrdə məskunlaşmışlar.

Onu da qeyd etmək olar ki, ölkəmizdə kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və maddi-texniki təchizatı sistemində hələ də xeyli problemlər mövcuddur. Əkin sahələrinin məhsuldarlığı orta dünya göstəriciləri ilə müqayisədə xeyli aşağıdır. Kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında əmtəə mübadiləsində qeyri-ekvivalentlik prinsipi hökm sürür. Belə ki, enerji daşıyıcıları və digər maddi-texniki ehtiyatların qiymətləri kənd təsərrüfatı məhsullarının qiymətlərinə nisbətən sürətlə artır. Kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı

digər sahələrə nisbətən xeyli aşağıdır. Eyni zamanda kənd təsərrüfatı istehsalına investisiya və kredit qoyuluşlarının xüsusi çəkisi də tələbatı tam ödəmir.

Belə bir şəraitdə dünya birliyinin bərabərhüquqlu üzvü olmaq kimi strateji xətt prioritet bir istiqamət kimi qalır.

Ölkəmizin kənd təsərrüfatında çoxsaylı problemlərin qalması bu sahədə iş qüvvəsinin ucuz olmaslnln mövcud olmasına təsir edir ki, bu da əhalinin gəlirlərinə bibaşa təsir göstərir. Zəngin təbii resurslara malik olan Azərbaycanın kənd təsərrüfatını bütün potensial imkanlarda istifadə etməklə onu müasir tələblər səviyyəsinə çatdırmaq lazımdır.

Ölkə Prezidenti İlham Əliyev xüsusi vurğulayır ki, “Sahibkarlığın inkişafı bizim siyasətimizin ən vacib istiqamətlərindən biridir. Son illər ərzində Azərbaycanda sahibkarlıqla məşğul olanların sayı xeyli dərəcədə artıbdır. Bunu təmin etmək üçün həm dövlətin qayğısı var, dəstək var, eyni zamanda, əməli-praktik tədbirlər də var”. Bu strateji məqsəd onu ifadə edir ki, iqtisadiyyatda liberallaşdırma tədbirləri davam etdirilir, sahibkarlara dövlət büdcəsindən güzəştli şərtlərələ kreditlər verilir. Müasir standartlara cavab verən infrastrukturun yaradılması sahibkarlığın inkişafına ciddi təkan verəcəkdir. Bununla yanaşı, hesab edirik ki, müstəqil ekspertlər tərəfindən Azərbaycanda sahibkarlıq mühitinin monitorinqinin aparılması və onun daha da yaxşılaşdırılması üçün əlavə tədirlər görülməsi məqsədəuyğundur.

Son illərdə keçirilən məqsədyönlü dövlət tənzimləmələri öz müsbət bəhrələrini verir və bu bəhrələr artan xətlə davam edir. İqtisadi inkişafın ən ümumi göstəricisi olan ümumi daxili məhsulun artım tempinə görə Azərbaycan lider dövlətə çevrilir. Dövlət büdcəsi gəlirlərinin artımında qeyri-neft sektorunun payı çoxalır və daha da çoxaldılması vəzifələri qarşıya qoyulur.

Sahibkarlıq fəaliyyətində elektron qeydiyyat prosesi təkmilləşdirilmiş və sahibkarlara göstərilən elektron xidmətlərin sayı genişlənmişdir. Sahibkarlıq subyektlərinə dövlət orqanları tərəfindən təqdim edilən bir çox xidmətlər, o cümlədən İnkişaf Nazirliyi tərəfindən göstərilən xidmətlər bütün elektronlaşdırılaraq lisenziya və sertifikatların verilməsi, bu xidmətlərə görə dövlət rüsumlarının və haqların on-line rejimində ödənilməsi təmin edilmişdir. Bu istiqamətdə Nazirlik tərəfindən 28

xidmətin, o cümlədən 7 interaktiv, 21 informativ xidmətin elektron qaydada göstərilməsi təmin edilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların fəaliyyətinin dəstəklənməsi məqsədilə göstərilən dövlət yardımları tədbirləri 2015-ci ildə də davam etdirilir.

Aqrar sektorun inkişafı ilə bağlı 5366 (96.5%) layihəyə 244 (82.7%) milyon manat dövlətin güzəştli kreditləri verilmişdir ki, bu da ötən illə müqayisədə maliyyələşdirilən layihələrin sayının 25.1%, məbləğinin isə 28.7% artması deməkdir.

Yuxarıda göstərilən kənd təsərrüfatında sahibkarlığın inkişafına dair bütün problemlərin vaxtında həyata keçirilməsi ölkə iqtisadiyyatının inkişafına mühüm təsir göstərəcəkdir.

# FƏSIL III. AQRAR SAHƏDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## 3.1 Sahibkarlıq fəaliyyətinin tənzimlənməsində qiymət mexanizminin rolu

Bazar iqtisadiyyatı şəraitində qiymət tələb və təklif əsasında formalaşmaqla liberal istehsal münasibətlərinin təşəkkülünə xidmət edir. Ümumiyyətlə bazarda qiymətlərin tələb və təklif əsasında formalaşması əslində istehsalçılar və istehlakçılar arasında qarşılıqlı razılaşmaların nəticəsi olaraq müəyyən olunur. Lakin, bütün bunlara baxmayaraq bazar konikturu qiymətlərin səviyyəsinə öz təsirini göstərir. Bazarda baş verən koniktur dalğalanmaları, tələbin və təklifin səviyyəsindəki fərqlər, nəticə etibarilə, bazarda qiymətlərin səviyyəsinin artıb, azalmasına gətirib çıxarır ki, bu proses də son nəticədə istər istehsalçıların vəə istərsə də istehlakçıların marağlarına öz təsirini göstərir. Yəni daha çox azad rəqabət mühütündə bazarda tələb və təklif əsasında tarazlı qiymətlərin yaranması halları baş verə bilər və bu ümumiyyətlə ideal bir xarakter daşıyan nümunədir. Lakin, qeyd etmək lazımdır ki, bazarda real proseslərin nəticəsi olaraq qiymətlərin dövrü olaraq tərəddüdləri özünü göstərir ki, bu tərəddüdlər də, son nəticədə iqtisadi inkişafa təsirsiz ötüşmür.

Transformasiya dövründə qiymət dövlətin iqtisadiyyata tam mənası ilə inhisarçılığının mühüm tərkib hissəsi kimi xarakterizə olunmuşdur. Qiymətlərin səviyyəsi həmin dövr üçün mərkəzləşdirilmiş şəkildə müəyyənləşdirilirdi və bu zaman istehsalçıların və istehlakçıların marağları demək olar ki, o dərəcədə də nəzərə alınmırdı. Əslində qiymət mərkəzləşdirilmiş iqtisadi münasibətlər şəraitində dövlətin iqtisadiyyata təsirinin əyani təzahürü və təsir imkanı kimi xarakterizə edilirdi. Lakin, bazar təsərrüfatçılıq sisteminə keçidlə bağlı həyata keçirilən transformasiya yönümlü dəyişikliklər bütün sahələrdə olduğu kimi qiymət sistemində də köklü dəyişikliklərin baş verməsinə gətirib çıxardı. Əslində qiymət iqtisadi proseslərin və ümumiyyətlə istehsal münasibətlərinin nəticəsi olaraq praktikada özünü göstərir. Bu baxımdan bazar iqtisadiyyatına keçid iqtisadiyyatda liberallaşma meyllərinin dərinləşməsi, nəticə etibarilə, tələb və təklif əsasında formalaşan qiymətlərin yaranmasına öz təsirini göstərdi. Lakin, bütün bunlara baxmayaraq iqtisadi sistemin xarakterindən

asılı olmayaraq bütün hallarda qiymətlərin formalaşması və tərəddüdləri baxımından ümumi meyllər də mövcuddur. Bu meylləri xarakterizə edən ən mühüm məqamlardan biri də ondan ibarətdir ki, iqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq dövlət qiymətlərin səviyyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Ümumiyyətlə, dövlətin qiymət səviyyəsinə etdiyi müdaxilə əslində bazardakı destruktiv təzahürlərin aradan qaldırılmasına, istehsalçıların və istehlakçıların marağlarının balanslaşdırılmasına istiqamətlənmiş fəaliyyətin nəticisi kimi dəyərləndirilməlidir.

Qeyd etmək lazımdır ki, bazar münasibətləri şəraitində tələb və təklif əsasında formalaşan qiymət səviyyələri iqtisadiyyatın heçdə bütün sahələrində bir mənalı şəkildə marağların təminatçısı kimi çıxış etmir. Bu baxımdan kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı və satışı sferasında qiymətlərin bazar konyukturu əsasında formalaşması, nəticə etibarilə, kənd təsərrüfatı əmtəə istehsalçılarının marağlarına bir sıra hallarda öz mənfi təsirini göstərir. Bu isə onunla bağlıdır ki, daxili bazarın çevik qorunmadığı bir şəraitdə ərzaq bazarında qiymətlərin səviyyəsinə əslində idxal olunun məhsulların həcminin artması da bir-başa təsir göstərir. Belə bir şəraitdə yerli əmtəə istehsalçısı müqaisəli üstünlüyə söykənmədiyindən ən azı növbəti ildə bazarı tərk etmək məcburiyyətində qalır. Bu isə son nəticədə kənd təsərrüfatında yerli istehsalın səviyyəsinin davamlı olaraq aşağı düşməsinə, daxili ərzaq bazarının idxal kanallarından asılılığının yaranmasına gətirib çıxarır. Bütövlükdə daxili bazarda yerli istehsalın xüsusi çəkisinin azalması isə, nəticə etibarilə, ölkənin milli strateji marağlarının başlıca təzahür forması kimi çıxış edən ərzaq təhlükəsizliyinin təmin edilməsinə xarici təhdid kimi qiymətləndirilir. Bu prosesin davamlı xarakter daşıması, nəticə etibarilə, ərzaq bazarında idxal kallarının möhkəmlənməsinə səbəb olmaqla yanaşı, ölkənin bazar konyunkturundan asılılığını gücləndirir. ümumiyyətlə götürdükdə bu proseslər son nəticədə ölkənin aqrar müstəqilliyinin və ümumiyyətlə aqrar sahədə iqtisadi suverenliliyinin itirilməsinə səbəb olur və hər bir dövlətin digər dövlətlərdən əvvəl iqtisadi, sonradan isə siyasi asılılığının yaranmasını özündə əks etdirir. Məhz belə bir şəraitdə istər daxili və istərsə də xarici təhdidlərin effektiv şəkildə qarşılanması məqsədi ilə, kənd təsərrüfatının dövlət tənzimlənməsi mexanizmində qiymət sisteminə xüsusi önəm verilməsi vacibdir. Dövlət

tənzimlənməsi mexanizmində qiymət sisteminə xüsusi önəm verilməsi, dövlətin qiymət siyasəti vasitəsi ilə reallaşdırılır. Daha doğrusu dövlətin qiymət siyasəti əslində bazar konyunkturunda baş verən dəyişikliklərə müvafiq olaraq, nəticə etibarilə, qiymətin səviyyəsinə dolayı vasitələrlə, hətta zəruri hallarda yeri gəldikcə inzibati, yəni bir başa təsirləri də özündə əks etdirir ki, təsirlər də daha çox bazarda baş verən böhranlı tendensiyaların qarşısının alınmasına, bazarda qıtlıq və qiymət artımının neytrallaşdırılmasına istiqamətlənir. Məlum olduğu kimi, kənd təsərrüfatının spesifik xüsusiyyətləri, o cümlədən təbii iqlim şəraitindən asılılıq və digər bu kimi amillər, nəticə etibarilə, kənd təsərrüfatının inkişafına bir sıra hallarda daxili təhdid faktoru kimi çıxış edir. Məhz belə bir şəraitdə kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin aşağı düşməsi və istehsal olunan məhsulun həcminin azalması əslində daxili bazarda yerli istehsalın xüsusi çəkisinin azalmasına gətirib çıxarmaqla yanaşı, bir sıra hallarda qiymətlərin səviyyəsinin yüksəlməsinə də öz təsirini göstərir. Dövlətin qiymət siyasəti son nəticədə dövlət tənzimlənməsinin sosial və iqtisadi səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında intensiv inkişafın təmin edilməsi, əslində qiymətlərin səviyyəsinin sabitləşdirilməsində ən mühüm faktor və əslində iqtisadi element kimi çıxış edir. Istehsalın intensivləşdirilməsinin daxili ərzaq bazarında qiymətlərin səviyyəsinə iqtisadi təsir vasitəsi kimi çıxış etməsi onunla bağlıdır ki, intensiv istehsal, nəticə etibarilə, əkin sahəsini və heyvanların baş sayını əhəmiyyətli dərəcədə artırır və intensiv texnologiyanın tətbiqi hesabına məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə, məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasına istiqamətlənir. Məhz belə bir şəraitdə bu və ya digər konkret məhsulun istehsalına az vəsait sərfi hesabına əlverişli qiymətə nail olmaq olar. Təbii ki, belə bir şərait ilk növbədə yerli əmtəə istehsalçılarının və eləcədə, istehlakçıların marağlarına tamamilə uyğun gələn bir prosesdir.

Hazırkı şəraitdə inkişaf etmiş ölkələr daha çox ekoloji cəhətdən təmiz məhsul istehsalına, dietik qida maddələrinin istehsalına üstünlük verirlər. Bütün bunlar isə ilk növbədə daha çox xərclərin həyata keçirilməsini tələb edir. Lakin, bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, ekoloji təmiz məhsul istehsalına marağın

güclənməsi, son nəticədə daxili ərzaq bazarında ekoloji təmiz məhsulun qiymətinin səviyyəsinin digər məhsullarla müqaisədə yüksək olmasına da gətirib çıxarır. Bu isə onunla bağlıdır ki, ekoloji təmiz məhsul istehsalı, əsas etibarilə gübrələrdən və digər kimyəvi pepsitlərdən azad olunmuş məhsulu özündə əks etdirir. Belə bir məhsulun istehsalı isə, təbii ki, bu və ya digər şəkildə yüksək xərc hesabına başa gəlir və adətən dünya praktikasında bu cür təmiz məhsulların qiymətlərin səviyyəsi də digər məhsullarla müqaisədə yüksəkdir. Belə ki, gübrələrdən və digər kimyəvi pepsitlərdən istifadə olunmadan məhsul istehsalının həyata keçirilməsi bir qayda olaraq aşağı məhsuldarlıq hesabına əldə edilir. Təbii ki, bütün bunlar da qiymətlərin səviyyəsinə öz təsirini göstərir. Ümumiyyətlə inkişaf etmiş ölkələrdə ekoloji təmiz məhsul istehsalının dəstəklənməsi və həmin məhsulun qiymətlərin səviyyəsinin sabitləşdirilməsi və xüsusilə yerli istehsalçıların stimullaşdırılması məqsədi ilə, dövlət büdcəsindən iri həcmli vəsait ayrılır və həmin vəsait, nəticə etibarilə, əhalinin diyetik ərzaq məhsulları istehlakına xidmət edir. Təsadüfi deyildir ki, məhz belə bir məhsulu dünya praktikasında adətən yüksək alıcılıq qabiliyyətinə malik olan əhali kateqoriyaları istehlak edirlər. Daha doğrusu ekoloji cəhətdən təmiz məhsul istehsalı, əslində hazırda bütün orta statistik istehlakçılar üçün deyil, əslində tam mənası ilə yüksək alıcılıq qabiliyyətinə malik olan təbəqələr üçündür. Doğrudur, bütün bunları keçid iqtisadiyyatlı ölkələr üçün tam mənası ilə xarakterizə etmək mümkün deyildir. Belə ki, keçid iqtisadiyyatlı ölkələrdə ekoloji cəhətdən təmiz məhsul istehsalının həyata keçirilməsindən bu və ya digər şəkildə danışmaq absurd olardı. Lakin, prosesin təzadlı cəhətlərindən biri də ondan ibarətdir ki, xüsusilə transformasiya prosesini ilkin mərhələlərində nə qədər qəribə görünsə də respublikamızda bu və ya digər şəkildə ekoloji cəhətdən təmiz məhsul istehsalı həyata keçirilirdi. Bu isə onunla bağlı idi ki, əslində kənd təsərrüfatı əmtəə istehsalçıları kimyəvi məhsulları və mineral gübrələri əldə edərək istehsalda tətbiq etmək imkanına malik olmadığından, əslində istehsal edilən məhsul tamamilə ekoloji cəhətdən təmiz sayıla bilərdi. Bu baxımdan transformasiya prosesininin ilkin dövrlərində istehsalın həcminin kəskin şəkildə aşağı olduğu bir şəraitdə, əslində istehsal edilən məhsul bu və ya digər şəkildə ekoloji cəhətdən təmiz ola bilirdi. Lakin prosesin xarakterik cəhətlərindən biri ondan

ibarətdir ki, kənd təsərrüfatında intensiv texnalogiyanın tətbiqi artdıqca ekoloji cəhətdən təmiz məhsul istehsalının azalması meylləri müşahidə edilməkdədir və ümumiyyətlə götürdükdə bu tendensiya təkcə nəinki respublikamız üçün, bütövlükdə dünya üçün xarakterik olan məqamlardan biridir.

Müasir şəraitdə qiymətlərin səviyyəsi, istehsalın iqtisadi səmərəliliyinə təsir göstərən başlıca faktor kimi çıxış edir. Qeyd etmək lazımdır ki, keçid dövründə kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinə bir başa və dolayı yolla təsir göstərən bir sıra vasitələr mövcuddur ki, bu vasitələrə əsas etibarilə təsir göstərən vasitə kimi məhsul istehsalına çəkilən xərcləri, məhsuldarığın səviyyəsinin və istehsalın həcmini aid etmək olar. Istehsalın iqtisadi səmərəliliyini dolayı yolla təsir göstərən vasitələrə isə əslində maliyyə-kredit vasitələrini və o cümlədən qiymət faktorlarını aid etmək olar. Beləliklə dolayı təsir vasitələrinə qiymət, vergi və kredit münasibətlərini şamil etmək olar ki, bu vasitələr də, nəticə etibarilə, kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyinin səviyyəsini şərtləndirən amil kimi çıxış edir. Inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi məqsədi ilə, dolayı təsir vasitələrinin xüsusi çəkisi getdikcə yüksəlməkdədir. Daha doğrusu məhsul istehsalına çəkilən xərclərin strukturunda maliyyə-kredit və vergi münasibətlərinin səviyyəsinin yetərincə yüksək olması, nəticə etibarilə, iqtisadi səmərəliliyə təsir göstərən dolayı kanalların təsiri imkanlarını genişləndirir.

Sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatında məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi, ilk növbədə qiymət sisteminin və qiymət əmələgəlmə sisteminin çevik mexanizmini formalaşdırılmasından bilavasitə asılıdır. Qeyd etmək lazımdır ki, qiymət mexanizmi hal-hazırda istehsalçılar, tədarükçülər, emal müəsisələri, ticarət və dövlət sektoru arasında iqtisadi münasibətlərin tənzimlənməsində başlıca element kimi çıxış etməkdədir. Ümumiyyətlə götürdükdə qiymət mexanizmi, nəticə etibarilə, davamlı inkişafın stabilləşdirilməsində mühüm faktor kimi çıxış edir və bütövlükdə kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinə öz təsirini göstərir. Inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qiymət bazar münasibətlərinin inkişaf etdiyi şəraitdə kifayət qədər güclü mexanizm olmaqla,

aqrar sahənin tənzimlənməsində mühüm xüsusi çəkiyə malikdir. E.Şeqolevin fikrincə Avropa iqtisadi birliyinə daxil olan ölkələrdə dövlət tənzimlənməsi bütövlükdə ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının təxminən 88-97%-ə qədərini əhatə edir. Avropa iqtisadi birliyi çərçivəsində əsas növ kənd təsərrüfatı məhsulları üçün təminatlı orientir və hədd qiymətləri xarakterikdir. ABŞ üçünsə məqsədli və girov qiymətləri, Qərbi Avropa ölkələri üçün məqsədli datasiya və əlavə qiymətlər xarakterik cəhətlərdəndir. Qeyd etmək lazımdır ki, təbii iqlim şəraitinin əlverişsiz keçdiyi və ümumiyyətlə bazar konyunkturunda qeyri-əlverişsiz proseslərin genişləndiyi şəraitdə Qərbi Avropa ölkələrində fermerlər kənd təsərrüfatında geniş təkrar istehsalı həyata keçirmək üçün bütün zəruri şərtlərə malik olurlar. Bu şərtlər isə, nəticə etibarilə, kənd təsərrüfatı istehsalının davamlı inkişafının təmin edilməsində başlıca hərəkətverici qüvvə kimi çıxış edir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin liberallaşdırılması, nəticə etibarilə, sənaye və kənd təsərrüfatı məhsullarının qiymətləri arasında disparitetin daha kəskin şəkildə təzahürünə gətirib çıxarmışdır. Belə ki, qiymətlərin liberallaşdırıldığı şəraitdə, nəticə etibarilə, kənd təsərrüfatının məhsullarının qiymətlərinə dövlət büdcəsindən həyata keçirilən subsidiyalar və dotasiyaların xüsusi çəkisi tamamilə məhdudlaşdırılmış və bu da son nəticədə disparitetin  yaranmasına öz təsirini göstərmişdir. Müasir şəraitdə kənd təsərrüfatı məhsullarının istehsalı və reallaşdırılması sektorunda qiymətlərin və istehsal xərclərinin səviyyəsinin dəyişməsinin müxtəlif istiqamətləri özünü göstərir. Tədqiqatlar göstərir ki, hazırkı şəraitdə bütün hallarda gəlirlərin yenidən bölüşdürülməsi prosesi, nəticə etibarilə, son məhsulun yaradılmasında iştirak edən qrumlar arasında qiymətin strukturunda mənfəət və xərclərin xüsusi çəkisi arasında əks əlaqənin yaranması müşahidə edilməkdədir. Bu proses xüsusilə özünü kəskin şəkildə kənd təsərrüfatında müşahidə etdirir. Qeyd etmək lazımdır ki, ərzaq məhsullarının son qiymətlərində kənd təsərrüfatı əmtəə istehsalçılarının xüsusi çəkisi son illər 60-70%-dən, 20-40%-ə qədər azalmışdır. Bunun nəticəsidir ki, mülkiyyət mənsubiyyətindən və təsərrüfatçılıq formalarından asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçıları hazır məhsulun satışından əldə edilən mənfəətin təxminən 30-40%-i itirmək məcburiyyətində qalırlar. Mənfəət daha çox emal müəsisələrinin

sərəncamına keçir, eyni zamanda nəqliyyat təşkilatları, ticarət müəssisələri, eləcə də, kənd təsərrüfatı xammalının hərəkətinin müxtəlif mərhələlərində vasitəçilər daha çox mənfəət əldə etmək imkanına malik olurlar. Ümumiyyətlə qeyd etmək lazımdır ki, son illər bazarların inhisarlaşdığı şəraitdə inhisarçı qurumlar kənd təsərrüfatı əmtəə istehsalçılarından daha yüksək xüsusi çəkiyə malik həcmdə mənfəət əldə edirlər. Təhlil göstərir ki, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəlilik problemlemi, əsas etibarilə hökumət tərəfindən həyata keçirilən tənzimləyici siyasətdən bilavasitə asılıdır. Ümumiyyətlə hökumətin tənzimləyici siyasəti, bir qayda olaraq uzun müddətli dövrdə əsas növ ərzaq məhsullarının bazar qiymətlərinin tərəddüdlərinin qarşısının alınmasına və sahibkarın gəlirlərinin artırılmasına istiqamətlənir.

Qiymət səviyyəsində baş verən tərəddüdlər bir qayda olaraq daxili bazara idxal kanallarının təsiri altında, digər hallarda isə yerli məhsul istehsalına çəkilən xərclərin səviyyəsinin yüksək olması ilə yaranır. Bütövlükdə götürdükdə ərzaq bazarında qiymətlərin səviyyəsinin yüksək olmasını şərtləndirən ən mühüm amillərdən biri, əslində tələb və təklif arasındakı tarazlığın pozulması ilə sıx bağlıdır. Nəticə etibarilə, bazarda qiymət mexanizminin destruktiv təzahürləri, ilk növbədə kənd təsərrüfatı istehsalının davamlı inkişafına mənfi təsir göstərən başlıca faktor kimi çıxış edir. Qiymət səviyyəsinin tarazlığının pozulması, əslində qiymətlərin səviyyəsinin aşağı və yaxud da yüksək səviyyədə olması, istehsalçıların marağlarına öz mənfi təsirini göstərə bilir. Ərzaq bazarında qiymətlərin aşağı səviyyəsi bütün hallarda aqrar ərzaq kompleksində fəaliyyət göstərən sahibkarlıq qurumlarının gəlirlərinin həcminin azalmasına, nəticə etibarilə, istehsalın rentabellik səviyyəsinin aşağı düşməsinə, bütövlükdə iqtisadi səmərəliliyinin zəifləməsinə gətirib çıxarır. Digər tərəfindənsə emli cəhətdən əsaslandırılmamış yüksək qiymətlər, nəticə etibarilə, alıcılıq qabiliyyətli tələbin aşağı düşməsinə, kənd təsərrüfatı məhsullarının satışı imkanlarının məhdudlaşmasına gətirib çıxarır. Dövlət tənzimlənməsinin başlıca vəzifəsi əslində qiymət rıçaqlarının köməyi ilə tələb və təklif arasındakı tarazlığın təmin edilməsindən ibarət olmaqla kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların təminatlı gəlirlər əldə etməsinə əlverişli şərait yaratmaqdan ibarətdir. Bütün bunlar isə son nəticədə kənd təsərrüfatı əmtəə istehsalçılarının geniş təkrar

istehsal şəraitində fəaliyyətinə əlverişli şərait yaradır, mahiyyət etibarilə kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə əlavə stimullar verir. Bu problemin həlli məqsədi ilə, qiymət sisteminin 4 qrupda fərqləndirilməsi mühüm əhəmiyyət kəsb edir ki, bu da, nəticə etibarilə, konkret iqtisadi şəraitdə əmtəə-pul münasibətlərinin xarakterinə müvafiq olaraq qiymətlərin mövcud olmasını özündə əks etdirir. 1-ci qrupa daxil olan qiymətlər bir qayda olaraq kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin səmərəli inkişafının təmin edilməsinə xidmət etməklə əmtəə istehsalçılarının özünütənzimləmə mexanizmi əsasında fəaliyyət göstərməsinə əlverişli şərait yaradır. Bütövlükdə 1-ci qrupa daxil olan qiymətlər azad bazar və müqavilə qiymətləri üzrə məhsulun reallaşdırılmasını özündə əks etdirir. Bu halda bir tərəfindən kənd təsərrüfatı məhsullarının satış kanallarının təkmilləşdirilməsi prosesi baş verir, ikinci tərəfindən isə prinsip etibarilə xüsusi yerli əmtəə istehsalçılarının xüsusi mənbəədən olan gəlirlərinin bölüşdürülməsinə yeni yanaşmanı işlənib hazırlamaq mümkün olur. Bütün bunlar isə, son nəticədə yığım və istehlak fondları arasında optimal nisbətin təmin edilməsinə əlverişli şərait yarada bilir. Azad bazar qiymətləri, bir qayda olaraq regionlar və regionlar arası topdan ərzaq məhsulları bazarında kənd təsərrüfatı məhsullarının reallaşdırılmasına əlverişli şərait yaradır. Azad qiymətlərin səviyyəsi, bir qayda olaraq yuxarıda qeyd etdiyimiz kimi, konkret ərzaq bazarının iştirakçıları arasında tələb və təklifin nisbəti ilə müəyyən edilir. Müqavilə qiymətləri isə kənd təsərrüfatı məhsullarının reallaşdırılması prosesində əmtəə istehsalçıları ilə istehlakçıları arasında bir başa əlaqələr əsasında yaradılır. Bir sıra hallarda müqavilə qiymətləri emal müəsisələri ticarət vasitəçilik firmaları ilə xammal istehsal edən müəsisələr arasında qarşılıqlı əlaqənin yaranması nəticəsində də formalaşa bilir. Müqavilə qiymətlərinin səviyyəsi, əsas etibarilə məhsul istehsalına çəkilən xərclərdən, gözlənilən mənfəətdən, digər hallarda isə əhalinin alıcılıq qabiliyyətindən və ərzaq məhsulları bazarının konyunkturundan asılı olaraq müəyyənləşir. Müqavilə qiymətləri fərdi olaraq müqavilələr bağlanması və eləcədə, həmin müqavilələrin yerinə yetirməsi prosesində qarşılıqlı razılaşmalar əsasında müəyyənləşir. Dövlət bütövlükdə istehsalın iqtisadi səmərəliliyinə, müqavilə və sərbəst qiymətlər vasitəsi ilə şərait yaradır ki, bu da ilk növbədə infrastrukturun

inkişaf etdirilməsi, bazarda rəqabətin səviyyəsinin yüksəldilməsi və ən nəhayət kənd təsərrüfatında istehsalın həcminə təsir göstərən iqtisadi vasitələrdən istifadəni özündə əks etdirir. Ərzaq məhsulları bazarında qiymətlərin səviyyəsinə dolayı yollarla təsir göstərilməsi müxtəlif vasitələri özündə əks etdirir ki, bu da ilk növbədə mövcud olan subyektlərin gözlənilən mənfəət həcmində fəaliyyət göstərməsinə iqtisadi vasitələrdən istifadə hesabına təsir göstərilməsini nəzərdə tutur. Bütövlükdə götürdükdə dolayı kanallar kifayət qədər müxtəlif vasitələri özündə əks etdirir ki, bu kanallar vasitəsi ilə yarana bilən qiymətlərə birja qiymətlərini də aid etmək olar. Birja qiymətləri bir qayda olaraq regional əmtəə birjalarında aparılan ticarət əməliyyatlarının nəticəsi ilə müəyyənləşir və birja qiymətlərinin səviyyəsinə nəinki təkcə tələb və təklifin səviyyəsi, eyni zamanda bütövlükdə ölkə və dünya bazarlarında baş verən koniktur dalğalanmaları da təsir göstərmək imkanına malik olur. Birja qiymətləri digər qiymətlərin, o cümlədən müqavilə, bazar və dövlət qiymətlərinin formalaşması üçün əhəmiyyətli dərəcədə oriyentir funksiyalarını yerinə yetirir.

2-ci qrupa qiymət və qiymət orientirlərinin dövlət sistemi şamil edilir. Bütövlükdə götürdükdə bu sistemin ən mühüm elementlərini əsas növ kənd təsərrüfatı məhsulları üzrə məqsədli qiymətlər təşkil edir. Məqsədli qiymətlər, nəticə etibarilə, dövlət yardımının qeyri-qiymət forması olmaqla yanaşı, həm də arzu olunan ekvivalent qiymət səviyyəsini özündə əks etdirir. Bütövlükdə götürdükdə məqsədli qiymətlər adətən kənd təsərrüfatı əmtəə istehsalçılarının məqsədli şəkildə gəlir əldə etmələrinə əlverişli şərait yaratmaqla yanaşı kənd təsərrüfatı əmtəə istehsalçılarının geniş təkrar istehsal rejimində fəaliyyətinə də əlverişli şərait yaradır. Hazırkı şəraitdə istehsal prosesinə təsir edən bir sıra obyektiv faktorlar mövcuddur ki, həmin faktorlar da məqsədli qiymətlərin formalaşması zamanı nəzərə alınması vacibdir. Bu baxımdan məqsədli qiymətlərin formalaşmasına aşağıdakı faktorların təsir göstərdiyi qənaətinə gəlmək olar:

-məhsulların qiymətlərinin bahalaşması əmsalı nəzərə alımaqla orta faktiki material xərcləri. Bu xərclər adətən toxumun, mineral gübrələrin, bitki mühafizəsi

vasitələrinin, elektrik enerjisinin, yanacaq-yağlama materiallarının, təmir xərclərinin, əmək haqqı ilə bağlı xərclərin səviyyəsini özündə əks etdirir.

-kənd təsərrüfatında çalışan işçilərin əmək haqqı. Hansıkı bu xərclər ilk növbədə sənayedə çalışan işçilərin əmək haqqı ilə müqaisədə nisbətən aşağı səviyyədə olur.

-minimum mənfəətin həcmi. Minimum mənfəət həcmi əslində kənd təsərrüfatı məhsullarının qiymətlərinin strukturunda xərclərlə bərabər mənfəətin xüsusi çəkisini də özündə əks etdirir. Başqa sözlə bütövlükdə məhsulun reallaşdırılmasından əldə olunan pul gəlirindən istehsal xərcləri çıxıldıqdan sonra, yerdə qalan hissə mənfəətin həcmini müəyyənləşdirir ki, bu da qiymətlərin səviyyəsində istehsal xərcləri ilə bərabər növbəti xüsusi çəkini təşkil edir.

Məhdudlaşdırmaların köməyi ilə, bir qayda olaraq minimum mənfəət normasını hesablamaq mümkündür. Minimum mənfəət norması isə bir qayda olaraq sərf olunan maddi texniki resursların qiymətləndirilməsində əhəmiyyətli rol oynayır və rentabellik səviyyəsinin müəyyənləşdirilməsinə gətirib çıxarır. Ümumiyyətlə məhdudlaşdırmalar, nəticə etibarilə, rentabellik səviyyəsinin 40%-dən aşağı olmamaqla yaranmasına səbəb olur. Məhsul istehsalı və reallaşdırılmasına çəkilən xərclər, eləcədə, rentabelliyin səviyyəsi son nəticədə məqsədli qiymətlərin səviyyəsi ilə müəyyən edilir.

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi dövlət tərəfindən təminatlı tədarük qiymətlərinin formalaşdırılmasından bilavasitə asılıdır. Təminatlı qiymətlər əsasən kənd təsərrüfatı məhsulları ilə bağlı yol verilən minimum təminatlı qiymət səviyyəsini özündə əks etdirməklə sahibkarlıq qurumlarının gəlirlərinin əldə edilməsinə əlverişli şərait yaratmaqla bütövlükdə geniş təkrar istehsalın ümumi rejimini şərtləndirir. təminatlı qiymətlərin səviyyəsi bir qayda olaraq məqsədli qiymətlərin səviyyəsindən 5-10% aşağı olmaqla müəyyənləşir. Təminatlı qiymətlərin formalaşması, nəticə etibarilə, bazar konyunkturunda baş verən dəyişikliklərdən kənd təsərrüfatı əmtəə istehsalçılarının asılılığının azaldılmasında da əhəmiyyətli rol oynayır. Təminatlı qiymətlərin tətbiq edilməsi nəticəsində bazar mexanizminin mənfi təsir dairələri və özünütənzimləmə imkanlarının koniktur

dalğalanmalarının təsir dərəcəsi zəifləyir. Aqrar sahədə davamlı inkişafın təmin edilməsi kənd təsərrüfatı əmtəə istehsalçıları və bütövlükdə bazarın digər iştirakçıları üçün onların konkret dövr ərzində davranış strategiyalarının müəyyənləşdirilməsini tələb edir. Bu isə istehsalın planlaşdırılmasından bilavasitə asılıdır. Regionlar üzrə kənd təsərrüfatı məhsullarının istehsalı üçün təminatlı qiymətlərin formaladırılması zəruridir. Təminatlı qiymətlər, bir qayda olaraq əmtəə istehsalçıları, emal müəsisələri, topdan satış strukturlar, o cümlədən alıcılar, ticarət birjaları arasında qarşılıqlı razılaşmalar əsasında müəyyənləşir. Təminatlı qiymətlərin səviyyəsinin dövlət strukturlarının təsiri də əhəmiyyətli dərəcədə yüksək olur. Bu cür qiymətlər adətən məhsuldarlığın proqnoz səviyyəsi və bazar konikturunun proqnoz səviyyəsi nəzərə alınmaqla müəyyənləşir. Adətən təminatlı qiymətlər məhsul yığımı bir-neçə ay əvvəlindən müəyyənləşir və son nəticədə kənd təsərrüfatı əmtəə istehsalçılarının təminatlı gəlir əldə etmələrinə əlverişli şərait yaradır. Bütövlükdə götürdükdə aqrobiznes sisteminin səmərəli fəaliyyət göstərməsi üçün tənzimlənən qiymətlər dövlətin koniktur proseslərinə zəruri müdaxiləsinə təminat verir. Əmtəə istehsalçıları təminatlı qiymətlər şəraitində istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından minimum gəlir əldə etməklə bazarda baş verən tərəddüdlərdən effektiv şəkildə müdafiə edilirlər. Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qrumları istehsal etdikləri məhsulları təminatlı qiymətlərlə dövlətə və yaxud da daha aşağı qiymətlərlə, yəni azad bazar qiymətləri ilə hər-hansı istehsalçıya satmaqı özləri müəyyənləşdirirlər. Ayrı-ayrılıqda azad bazar qiymətləri daha çox kommersiya riskləri ilə səciyyələnir.

Nəzəri baxımdan yanaşdıqda aqrar ərzaq kompleksində qiymət disparitetlərinin mövcudluğu kənd təsərrüfatı məhsullarının paritet qiymətlərinin formalaşması ilə yanaşı təminatlı qiymətlərin tətbiq edilməsinə zəruriyyət artırır. Belə bir şəraitdə qiymət paritetinin bərpa edilməsi ilk növbədə qiymət disbalansının kompensasiya edilməsindən bilavasitə asılıdır. Inkişaf etmiş ölkələrin təcrübəsində kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarının iqtisadi maraqlarının müdafiə edilməsi baxımından qiymətlərin səviyyəsinə yardım göstərilməsinin müxtəlif forma və metodları mövcud olmuşdur. Sahibkarın maraqlarının müdafiə

edilməsi baxımından kənd təsərrüfatında reqressiv paritet qiymətlərdən daha çox istifadə edilir ki, bu qiymətlər də, nəticə etibarilə, qiymətlərin disbalansının səviyyəsinin azaldılması məqsədinə xidmət edir. Paritet qiymətlərin praktikada hesablanması ilə bağlı müxtəlif yanaşmalar mövcuddur.

Rentabelliyin səviyyəsi, adətən normativ göstəricilərlə faktiki səviyyəni özündə əks etdirir. Reqressiv paritet qiymətlər, bir qayda olaraq federal və regional fondlarda reallaşdırılan məhsulların həcminin artırılmasına da əlverişli şərait yaradır. Adətən reqressiv paritet qiymətlərin köməyi ilə kənd təsərrüfatı əmtəə istehsalçılarının zərərlərinin kompensasiya edilməsi həyata keçirilir. Adı çəkilən qiymət növləri aşağı təminatlı qiymətlərdən daha yüksək formada olur və daha çox razılaşdırma əsasında həyata keçirilir. Razılaşmanın şərtlərinə aşağıdakıları aid etmək olar:

-əgər təminatlı qiymətlər mövcud bazar qiymətlərindən yüksəkdirsə. Reqressiv paritet qiymətlərlə, təminatlı qiymətlər arasındakı fərq, subsidiyalar, xərclərin kompensasiyası və güzəştli kreditləşdirmə formasında federal və regional büdcələrdən ödənilir.

-təminatlı qiymətlər mövcud bazar qiymətlərindən aşağıdırsa onda bütövlükdə heç bir təminatlı reqressiv paritet qiymətlərdən istifadə edilir.

Əgər bazar qiymətləri reqressiv paritet qiymətlərdən yüksəkdirsə, onda nəzəri baxımından kənd təsərrüfatına faktiki qiymətlərlə reqressiv paritet qiymətlər arasındakı fərq ödənilir.

Ərzaq bazarında reqressiv paritet qiymətlərin müvəffiqiyyətlə tətbiq edilməsinin başlıca şərti, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qrumlarına müvafiq ödəmələrin vaxtında və məcburi şəkildə ödənilməsi ilə bağlıdır. Paritet qiymətlər kənd təsərrüfatına maliyyə vəsaitlərinin daxil olmasına əlverişli şərait yaradır və kənd təsərrüfatının davamlı və normal inkişafının təmin edilməsinə xidmət edir. Paritet qiymətlərin xarakteri adətən kənd təsərrüfatının gəlirlərinin artırılmasına bilavasitə təsir göstərməkdən ibarətdir. Bundan əlavə, adı çəkilən qiymət forması meliorasiya su resurslarının müdafiəsi aqrar ərzaq kompleksində elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin inkişaf etdirilməsi və sosial mədəni

sferanın xərclərinin kompensasiya edilməsi və digər bu kimi demək olar ki, çox xərc tələb edən tədbirlərin maliyyələşdirilməsinə əlverişli şərait yaradır. Paritet qiymətlərin tərəddüdlərinin və eləcədə, qiymət və kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin tərəddüdlərinin azaldılması və davamlı inkişafın təmin edilməsi məqsədi ilə, dövlət tərəfindən intervensiya qiymətləri çərçivəsində tədarük və əmtəə intervensiyalarının həyata keçirilməsi zəruriyyət təşkil edir. Ümumiyyətlə intervensiyaların səviyyəsi təminatlı tədarük qiymətlərindən təxminən 10-12% həddində olur. Tədarük intervensiyaları tədarükün təşkilinin forması olmaqla kənd təsərrüfatı məhsulları, xammal və ərzaqın girov əməliyyatları yolu ilə tədarük edilməsini özündə əks etdirir. bu əməliyyatlar bir qayda olaraq o halda tətbiq edilir ki, bazar qiyməti minimum səviyyədən aşağı olur və onda əmtəə istehsalçısı kənd təsərrüfatı məhsullarının reallaşdırmaq iqtidarında olmur və bütövlükdə alıcılıq qabiliyyətinin aşağı düşməsi halları müşaidə edilir. bazar qiymətlərinin kəskin şəkildə yüksəldiyi və eləcədə, bazarda kənd təsərrüfatı məhsullarının qıtlığının müşaidə edildiyi zamanlarda dövlət əmtəə intervensiyaları həyata keçirir ki, bu da kənd təsərrüfatı məhsullarının əslində yenidən satışını özündə əks etdirir. Təbii ki, məcmu əmtəə təklifinin həcminin artması, son nəticədə qiymətlərin səviyyəsinin əvvəlki səviyyəyə qədər aşağı düşməsinə gətirib çıxara bilir. Əmtəə intervensiyaları nəticəsində bazarda sabitliyin təmin edilməsi, qiymətlərin tərəddüdlərinin qarşısının alınması müşaidə edilir ki. Bu da sahibkarların gəlirlərin artımına öz təsirini göstərir. Keçid iqtisadiyyatı şəraitində tədarük və əmtəə intervensiyalarından istifadə edilməsi kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi və aqrobiznesin səmərəliliyinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edə bilər. Qeyd etmək lazımdır ki, regionlarda davamlı inkişafın təmin edilməsi üçün kənd təsərrüfatı məhsullarının kifayət qədər ehtiyyatlarının yaradılması zəruridir ki, məhz bu fondlardan da ərzaq bazarlarında intervensiyaların həyata keçirilməsini təmin etmək mümkün ola bilər. Avropa ölkələrinin təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının ehtiyatlarının yaradılması üçün istehsalın həcminin təxminən 2-2,3%-i həcmində ehtiyat fondları yaradılır.

Kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyi əhəmiyyətli dərəcədə təbii iqlim şəraitindəki tərəddüdlərdən asılı olur və bütün bunlar əslində dövlət tərəfindən müəyyən olunan tədarük qiymətlərinin diferensiallaşması hesabına risklərin səviyyəsini azalda bilir. Stabil şəraitdə stabil tədarük qiymətləri, əslində kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli dərəcədə təsir göstərməklə yanaşı aqrar əmtəə istehsalının bütövlükdə dəyişən şəraitə dayanıqsızlığını aradan qaldırmağa xidmət edir. Qiymətlər bu zaman istehsal xərclərinin həcminin artmasını kompensasiya etməklə yanaşı kənd təsərrüfatı əmtəə istehsalçılarının normal geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsinə əlverişli şərait yaradır. Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının satışından pul gəlirləri, əslində məhsulun həcmi, müəsisənin dayanıqlığı ilə müqaisədə kifayət qədər zəif şəkildə tərəddüdlərə malik olur. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi və eləcədə, satışdan pul gəlirlərinin dəyişməsində başlıca amil aqrotexniki tədbirlərin optimal zaman kəsiyində həyata keçirilməsi ilə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, tədarük qiymətləri ilə yanaşı kənd təsərrüfatı məhsullarının istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə girov qiymətləri də əhmiyyətli dərəcədə təsir göstərir. Girov qiymətləri bir qayda olaraq girov əməliyyatlarının həyata keçirilməsi zamanı tətbiq edilir. Girov əməliyyatları ilk növbədə dövlətin güzəştli kreditləşdirməsinin ən mühüm formalarından biri kimi çıxış edir. Girov əməliyyatları dövlət üçün kənd təsərrüfatının iqtisadi cəhətdən tənzimlənməsi baxımından mühüm vasitəsi kimi çıxış edir. Bu zaman kreditlər əslində billikvit resurs hesab edilir ki, buda bu və ya digər kənd təsərrüfatı əmtəə istehsalçısı olan likvidit əmlakın girov qoyulması yolu ilə kreditlərin verilməsi həyata keçirilir. 2-ci halda girov əməliyyatları hesabına ərzaq fondlarının formalaşdırılmasını təmin etmək mümkün olur. Girov qiymətləri eyni zamanda ikili mahiyyət təşkil edir. 1-ci bir tərəfdən girov əməliyyatları kənd təsərrüfatı əmtəə istehsalçılarının vaxtında pul vəsaitləri əldə etmək imkanlarını təmin edir, eyni zamanda kənd təsərrüfatının maliyyələşməsi probleminin həllinə əlverişli şərait yaratmaqla istehsalın davamlılığının yüksəldilməsinə xidmət edir. Digər tərəfdən isə girov əməliyyatları və girov qiymətləri nəticə etibarilə, ərzaq məhsullarının qiymətlərinin artım tempini demək

olar ki, neytirallaşdırır bu da son nəticədə bazar konyunkturunda baş verə biləcək qeyri əlverişli təzahürlərin qarşısının alınmasında əhəmiyyətli rol oynamaqla istehlakçıların minimum istehlak səbəti həcmində məhsul istehlak etmələrinə əlverişli şərait yaradır. Kənd təsərrüfatı məhsullarının girov qoyulması yolu ilə kreditləşdirmə sistemi əmtəə və pul formasında avanslaşdırma şəkilində həyata keçirilir.

Girovun predmeti bir qayda olaraq istehsal olunan və gələcəkdə istehsal olunan məhsullar götürülür. Bu gələcək dövrün məhsulu girov qoyulmaqla verilən kredit adətən kontraktlar və sığortalanma fəaliyyəti əsasında həyata keçirilir. Girov əməliyyatlarının mexanizminin formalaşdırılması da, nəticə etibarilə, bu prosesin uğurla həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Adətən girov qiymətlərinin dövlət müəyyənləşdirir və ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalına müəyyən kvotalar da tətbiq edilir. Kənd təsərrüfatı və ərzaq məhsulları ilə bağlı qiymətlərin 3-cü qrupuna müdafiəedici qiymətlər şamil edilir. Müdafiə qiymətləri, bir qayda olaraq gömrük rüsumları və kompensasiya edici gömrük ödəmələri formasında tətbiq edilir ki, bu da ilk növbədə kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsir göstərir. Adətən müdafiə qiymətləri bir qayda olaraq daxili bazarın müdafiə edilməsinə və xaricdən gətirilən idxal məhsullarının bazarda xüsusi çəkisinin yüksəlməsinin qarşısının alınmasına xidmət edir. Müdafiə qiymətlərinin funksional istiqamətini bir qayda olaraq kənd təsərrüfatı məhsullarının gömrük müdafiəsinin səviyyəsi təşkil edir. Adı çəkilən qiymət səviyyəyi, eyni zamanda ucuz idxal məhsullarından da daxili bazarın müdafiə edilməsinə istiqamətlənir. Idxal olunan məhsullara qoyulan gömrük rüsumları və vergilər prinsip etibarilə gətirilən idxal məhsullarının dəyərinin artımına səbəb olur ki, bu da son nəticədə yerli istehsal məhsullarının nisbətən süni şəkildə ucuzlaşdırılmasını özündə əks etdirir. Müasir şəraitdə gömrük rüsumları əslində kənd təsərrüfatı məhsullarının hər vahidinə tariflərin müəyyənləşdirilməsi ilə səciyyələnir və qiymətlərdən faizlər formasında tətbiq edilir. Bu cür tədbirlərin həyata keçirilməsi, eyni zamanda müəyyən neqativ təzahürlərlə də səciyyələnir. Belə ki, belə neqativ təzahürlərə bir qayda olaraq tənzimlənmənin çevikliyini və operativliyinin aşağı düşməsini, eləcədə, ərzaq bazarının bağlı xarakter daşımasını, rəqabət səviyyəsinin aşağı düşməsini, kənd

təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsinin yüksəlməsini aid etmək olar. Gömrük rüsumlarının tətbiq edilməsi bir qayda olaraq ayrı-ayrı kənd təsərrüfatı və ərzaq məhsullarının idxalının tənzimlənməsinin başlıca ilkin şərti kimi çıxış edir. Kənd təsərrüfatında yerli istehsalın həcminin artırılmasının stimullaşdırılması məqsədi ilə, datasiya ödəmələri, həmin məhsulun 5-10%-i həcmində tətbiq edilir. digər bərabər şəraitdə isə əslində yerli məhsulun qiymətinə üstünlük verilir. Kənd təsərrüfatında sahibkarlığın fəaliyyətinin inkişaf etdirilməsi məqsədi ilə, qiymətlərin tənzimlənməsi ilə yanaşı kənd təsərrüfatı, emal və ticarət sferaları arasında qiymət paritetinin qorunub saxlanması da mühüm əhəmiyyət kəsb edir. Yuxarıda qeyd etdiyimiz kimi, hazırkı şəraitdə ticarət və emal müəsisələrinin kəskin inhisarçılıq meylləri müşaidə edilir ki, bu da son nəticədə kənd təsərrüfatında sahibkarlıq qurumlarının bütövlükdə pərakəndə bazar qiymətlərinin strukturunda xüsusi çəkisisinin davamlı olaraq aşağı düşməsinə gətirib çıxarır və müvafiq olaraq emal məhsullarının xüsusi çəkisinin genişlənməsi özünü göstərir. Bundan əlavə, kənd təsərrüfatı məhsullarının qiymətlərinin strukturunda ayrı-ayrı xidmət göstərən təşkilatların xüsusi çəkisi də yüksəlməkdədir. Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatı məhsulları bazarlarının effektiv şəkildə tənzimlənməməsi əksər hallarda ayrı-ayrı inhisarçı qrupların bu bazar seqmentlərində daha yüksək xüsusi çəkiyə malik olmalarına gətirib çıxarır. Məhz bütün bunların nəticəsidir ki, müəyyən vasitəçi strukturlar daha çox kənd təsərrüfatı məhsullarının topdan satış qiymətlərini müəyyənləşdirilməsində hakim mövqe tuturlar. Ümumiyyətlə praktika göstərir ki, vasitəçilərin sayının çox olması son nəticədə kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsinin yüksəlməsinə gətirib çıxarır ki, bu prosesdən də daha çox istehlakçılar zərər çəkir. Odur ki, kənd təsərrüfatı məhsullarının qiymətlərinin formalaşması və eləcədə, bütövlükdə satış bazarlarının səmərəli təşkilini həyata keçirmək məqsədi ilə, vasitəçilərin sayının azaldılması yerli əmtəə istehsalçılarının satış bazarlarına bərabər hüquqlu subyekt kimi daxil olmasına əlverişli şərait yaradılması mühüm əhəmiyyət kəsb edir ki, bu da son nəticədə satışın həcminin artırılmasına, satış prosesindən istehsalçıların və istehlakçıların bərabər şəkildə bəhrələnməsinə gətirib çıxara bilər. Dövlətin qiymət siyasəti və daha doğrusu

qiymətlərin səviyyəsinin tənzimlənməsi xüsusilə keçid dövründə kənd təsərrüfatının inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Müasir şəraitdə kənd təsərrüfatı əmtəə istehsalçılarının razılaşdıqları ən mühüm iqtisadi problemlərdən biri satılan və alınan məhsulların qiymətlərinin səmərəli qurulması ilə bağlıdır. Kənd təsərrüfatında sənaye məhsulları ilə ərzaq məhsullarının qiyməti arasında disparitet, nəticə etibarilə, qiymət qayçısının yaranmasına gətirib çıxarır. Təbii ki, bütün bunlar kənd təsərrüfatında struktur dəyişikliklərin sürətinə və bütövlükdə çoxukladlı iqtisadiyyatın formalaşmasına öz mənfi təsirini göstərir. Təbii ki, kənd təsərrüfatı məhsulları ilə, sənaye məhsullarının qiymətləri arasında disparitetin dərinləşməsi kəndlə şəhər arasındakı qeyri-ekvivalentliyin güclənməsinə də öz təsirini göstərir. Bundan əlavə, qeyri-ekvivalent mübadilə, əslində kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin getdikcə daha çox aşağı düşməsinə gətirib çıxara bilir. Kənd təsərrüfatında tətbiq ediləcək təsərrüfatçılıq forma və növlərindən uzaqlaşır, daha tez gəlir verə bilən kommersiya kanallarına meyllənməyə başlayırlar. 2-si isə iqtisadiyyatda struktur dəyişikliklərinin qeyri-çevik istiqamət götürməsi özünü göstərir.

Məhsulların bir çoxu çeşidlərinə qoyulan qiymət məhdudiyyətinin ləğv edilməsi, bazar tənzimlənməsi dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsindən daha çox satış həcminə malik ola bilirlər. Adətən bazar praktikasında iki səviyyəli qiymətə rast gəlmək mümkündür ki. Bu da inkişaf etmiş ölkələrin praktikasında özünü göstərir. İki səviyyəli qiymətlərdən, birinci qiymət səviyyəsı, sabit dövlət tədarük qiymətini özündə əks etdirir. Ikinci qiymət səviyyəsini isə adətən dəyişən və koniktur qiymətləri adlandırırlar. Dəyişən və konyunktur qiymətləri, adətən bazardakı azad bazar qiymətlərini özündə əks etdirir və həmin qiymətlərin səviyyəsi, adətən tələb və təklifin xarakterindən asılı olaraq dəyişir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara çıxış imkanlarının genişləndirilməsi, son nəticədə kəndlilərin daha çox gəlir əldə etmələrinə əlverişli şərait yarada bilər. Inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında iki pilləli qiymət səviyyəsinin tətbiq edilməsi, yəni dövlət tərəfindən təminatlı qiymətlərin tətbiq edilməsi bazar qiymətlərinin saxlanılması şərti ilə tətbiq edilməlidir. Daha doğrusu dövlət tədarük

qiymətləri, əslində bazar qiymətlərinin kənd təsərrüfatı əmtəə istehsalçıları üçün sərfəli olmadığı şəraitdə həyata keçirilməli və bütün bunlar yarana biləcək zərərlərin kompensasiya edilməsinə xidmət etməlidir. Aparılan araşdırmalar göstərir ki, müasir şəraitdə dövlətin qiymət tənzimlənməsi, əsas etibarilə kənd təsərrüfatı məhsulları ilə, sənaye məhsullarının qiymətləri arasında disparitetin aradan qaldırılmasına istiqamətlənməlidir. Qeyd etmək lazımdır ki, qiymət tənzimlənməsi əslində qiymət disparitetinin aradan qaldırılması ilə bağlı üç faktorun təsirini özündə əks etdirməlidir ki, bunlardan birincisi qiymətlərin və təbii inhisarların tariflərinin tənzimlənməsini özündə əks etdirir. Daha doğrusu dövlət tərəfindən həyata keçirilən tənzimlənməsi tədbirləri, ilk növbədə təbii inhisarların tariflərinin istehsalçılar və istehlakçılar üçün optimal səviyyədə tətbiq edilməsinə nail olmaladır. Bundan əlavə, qiymətlərin səviyyəsinə iqtisadi vasitələrlə təsir göstərilməsi üçün dövlət ilk növbədə ictimai zəruri əmək məsrəflərinin aşağı salınmasına istiqamətlənmiş tədbirlər həyata keçirməlidir. Kənd təsərrüfatında ictimai zəruri əmək məsariflərinin həcminin aşağı salınması, ilk növbədə kənd təsərrüfatında istifadə olunan maddi texniki resurs, yanacaq və yağlama materialları, toxum, sürtgü materialları və digər dövriyyə vəsaitlərin əsas fondların alınması ilə bağlı müvafiq subsidiyaların verilməsini tətbiq etmək məqsədə uyğun olardı. Və ən nəhayət kənd təsərrüfatı məhsullarına xidmət göstərən emal və tədarük qurumlarının fəaliyyətinin rentabellik səviyyəsinin həddlərinə müəyyən nəzarətin qoyulması da vacibdir. Təbii ki, bu cür nəzarət ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının optimal rentabellik səviyyəsində işləməsinə xidmət göstərməlidir. İqtisad elmləri doktoru, professor S.V.Salahovun fikrincə kənd təsərrüfatında dövlətin qiymət siyasətinin başlıca prinsipi qiymət səviyyəsinin və tarazlığın himayə edilməsidir. Liberallaşdırılmış qiymət mexanizmləri cəmiyyətdə dağıdıcı nəticələrə gətirib çıxara bilir. Bu baxımdan dövlətin aqrar siyasətinin maliyyələşdirilməsinə sərf edəcəyi vəsaitin böyük hissəsini qiymətlərin tənzimlənməsinə yönəldilməlidir. Aqrar sferada qiymət siyasəti vasitəsi ilə tənzimləmə tədbirləri bazar konyunkturunda baş verən dəyişikliklərlə əlaqədar tələb və təklifin səviyyəsinin balanslaşdırılması və müvafiq olaraq qiymətlərin sabitləşdirilməsini, bu sahədə geniş təkrar istehsal həyata keçirməyə imkan verən

qiymət səviyyələrini müdafiə edilməsini, istehsalın həcminin və strukturunun qiymət sistemi vasitəsi ilə optimallaşdırılmasını nəzərdə tutur. Qiymətin dövlət tənzimlənməsi sxemi qiymətin enib, qalxmasının yuxarı və aşağı həddini eləcədə, dövlətin himayə edəcəyi şərti qiymətin müəyyən etməklə qurulur. Bu zaman əmtəə müdaxiləsi və vacib qiymətlərin səviyyəsini saxlamaq məqsədi ilə, gec xarab olan məhsulların alqı-satqısı aparıla bilər. Kənd təsərrüfatına maliyyə yardımının strukturunda bazar qiymətlərinin himayə edilməsi, Yeni Zerlandiyada 32%, Avropa birliyinə daxil olan ölkələrdə 80%, Fillandiyada isə 90% təşkil edir. Bir çox ölkələrdə vergiqoymada kənd təsərrüfatı məhsulları üçün əlavə dəyər vergisi də nəzərdə tutulur.

Dövlət tərəfindən qiymətlərin səviyyəsinə yardım göstərilməsi, bazarda kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabitləşdirilməsi, ilk növbədə dövlət tərəfindən büdcə subsidiyalarının həyata keçirilməsi ilə yanaşı infrastruktur sisteminə yardım göstərilməsindən də bilavasitə asılıdır. Bu baxımdan bazarların mütəşəkkil təşkil edilməsi də, nəticə etibarilə, kənd təsərrüfatı məhsullarının reallaşdırılmasında istehsalçıların və istehlakçıların maraqlarının təmin edilməsinə əlverişli şərait yarada bilər. I.e.d. R.Ə.Balayevin fikrincə ərzaq bazarında qeyri-mütəşəkkil bölmənin üstünlüyü vergi yığılmasında da əlavə problemlər yaradır. Mütəşəkkil və qeyri-mütəşəkkil ticarət arasında qeyri-leqal əlaqələr vergidən yayınma məqsədi ilə, yaradılır. Bir çox obyektlər, topdan satış anbarları kimi qeydiyyatdan keçdiyi halda pərakəndə satış ilə məşğul olurlar ki, bu da vergidən yayınmanın bir üsulu kimi xarakterizə edilir. Qeyri-mütəşəkkil ərzaq ticarətinin özünəməxsus qaydaları vergi sistemindəki bəzi çatışmamazlıqların da nəticəsidir. Ümumiyyətlə isə vergi sistemi hazırda əsasən fizkal funksiyalar yerinə yetirməklə kifayətlənir. Hazırda kənd təsərrüfatı əmtəə istehsalçılarının bazar fəallığı gözlənilən səviyyədə deyildir. Səbəb, ərzaq bazarında tələbin həh hansı artımının dərhal idxal məhsulları hesabına ödənilməsindən ibarətdir. Nəticədə daxili istehsal məhsullarının az-çox sərfəli qiymətlərlə satışı çətinləşir, anbarlarda malik qalığı artır. Son illər ərzaq təhlükəsizliyinin təminatında müsbət meyllər müşaidə olunsa da ərzaq məhsullarının idxalında azalma baş versə də problemlər kifayət qədər kəskin olaraq qalmaqdadır. Daxili istehsalçıların ərzaq bazarında idxalla rəqabətə tab gətirməməsində məlum

səbəblərlə (məhsulun qablaşdırılması, standartlaşdırma, istehsalın genişləndirilməsi ilə əlaqədar çətinliklər, istehsalçılardan məhsulların ilkin yığımını həyata keçirən kommersiya şəbəkələrinin yoxluğu və sair) yanaşı xarici amillərin də təsiri az deyildir. Ölkəmizə ərzaq məhsulları ixrac edən xarici qrumlar daha əlverişli mövqedədirlər. Belə ki, onlar kredit almaq, iri topdan satış əməliyyatları üçün nəzərdə tutan güzəştlərdən istifadə etmək, öz ölkələrinin ərzaq ehtiyyatlarının ucuz qiymətə satışında iştirak etmək imkanına malikdirlər. Həmin qrumlar üçün xüsusilə Avropa ölkələrində ixrac subsidiyaların almağın heç bir çətinliyi yoxdur. Bu ölkələr müstəqil vasitəçilik qurumlarının və topdan satış ərzaq bazarlarının şəbəkəsinin inkişafını dəstəkləyirlər. Inkişaf etmiş bir sıra Qərbi ölkələrinin əhalisinin zövqünə görə aşağı keyfiyyəti sayılan bəzi ərzaq məhsullarına hələ ki, respublikamızda tələbat böyükdür. Bu məhsullara Qərbi Avropadan gətirilən yağlı ət və yağlı süd məhsullarını, ABŞ-dan gətirilən toyuq budunu misal göstərmək olar.

## 3.2 Sahibkarlıq fəaliyyətində zəmanət mexanizminə dövlət yardımının prioritet istiqamətləri

Sığorta fəaliyyəti bütövlükdə bazar iqtisadiyyatının ən mühüm tərkib hissəsi kimi çıxış etməklə yaranan risklərin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Sığorta ilk növbədə əmlakın bu və ya digər risklərdən qorunmasına xidmət edir. Kənd təsərrüfatında sığorta sisteminin bazar iqtisadiyyatı şəraitində özünəməxsus yeri və rolu vardır. Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı əmtəə istehsalçılarının xüsusilə təbii iqlim şəraitinin əlverişsiz keçməsi nəticəsində yarana bilən fəlakətlərdən effektiv şəkildə sığortalanması son nəticədə məhsuldarlığın səviyyəsinin artmasına və məhsul istehsalının azalmasının qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Ümumiyyətlə götürdükdə kənd təsərrüfatı məhsullarının sığortalanması kənd təsərrüfatının davamlı inkişafının mühüm tərkib hissəsi kimi çıxış edir. Ayrı-ayrılıqda iqtisadiyyatın sahələrində sığorta fəaliyyətinin rolu prinsipcə yarana bilən hər hansı risklərin neytrallaşdırılmasını özündə əks etdirirsə, kənd təsərrüfatı daha çox riskli sahə hesab edilir. Sığorta fəaliyyəti kənd təsərrüfatında mahiyyət etibarilə gəlirlərin müəyyən hissəsinin akkumiliasiyasına yönəldilir, daha doğrusu rezerv fondlara daxil olmasına istiqamətlənir ki, bu da əlverişsiz keçən hava şəraitinin və eləcədə, əlverişsiz

istehsal şəraitindən yaranan itgilərin əvəzlənməsində istifadə edilir. Kənd təsərrüfatı məhsullarının sığortalanması ilk növbədə əlverişsiz keçən illərdə sığorta ödəmələrin həyata keçirilməsini özündə əks etdirir ki, bu da kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının azalmasının qarşısının alınması ilə bilavasitə asılıdır. Kənd təsərrüfatında təbii iqlim şəraitində yaranan əlverişsiz təzahürlər nəticə etibarilə, onların banklardan aldıqları kreditlərin qaytarılmasına mənfi təsir göstərməklə son nəticədə aqrobiznes fəaliyyətinin zərərlə başa çatmasına gətirib çıxarır. Kənd təsərrüfatında risklərin effektiv şəkildə sığortalanmaması bir qayda olaraq kənd təsərrüfatında məhsul istehsalının həcminə mənfi təsir göstərməklə yanaşı, nəticə etibarilə, əmtəə-pul münasibətlərinin xarakterinə, o cümlədən məhsul satışına da mənfi təsir göstərir. Təbii ki, məhsul satışına mənfi təsir göstərən risklər öz təzahürlərini istehlakın səviyyəsində və ərzaq bazarında da nümaiş elətdirir. Belə ki, məhsuldarlığın səviyyəsinin aşağı olması, kənd təsərrüfatı məhsulları istehsalının azalması, nəticə etibarilə, ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin azalması və bu azalma zəruri hallarda, yəni vaxtında idxal kanalları hesabına neytrallaşdırılmadıqda bir qayda olaraq ərzaq bazarında qıtlıq və qiymət artımı müşaidə edilir ki, bu da son nəticədə istehlakçıların, yəni bütövlükdə alıcıların maraqlarına öz mənfi təsirini göstərir.

İstər inkişaf etmiş ölkələrin, istərsə də keçid dövrünü yaşayan ölkələrin təcrübəsi göstərir ki, sığorta fəaliyyəti kənd təsərrüfatında əmlakın və məhsulun sığortalanmasını özündə daha çox əks etdirir. Kənd təsərrüfatında məhsulun sığortalanması ilk növbədə məhsuldarlığın səviyyəsinin neytrallaşdırılması ilə sıx bağlı olub, daha doğrusu təbii iqlim şəraitinin zərərli təsirləri nəticəsində əkin sahələrinin itkisinin qarşısının alınmasına istiqamətlənir. Təbii iqlim şəraitində baş verən itkilər ilk növbədə əkin sahələrinin həcminin azalmasına, eləcədə, kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə gətirib çıxarır. Bütövlükdə sığorta təbii fəlakətlər əksər hallarda məhsulun ümumi həcmində, hətta 90%-ə qədər itkilərin yaranmasına səbəb olur. Bu baxımdan sığorta fəaliyyətində əsas diqqət kənd təsərrüfatı istehsalçılarının sığorta müdafiəsinin təşkilinə yönəldilmiş tədbirlərin həyata keçirilməsinə yönəldilməlidir. Sığorta müdafiəsi nəticə etibarilə, sığortalanmış hallarda kənd təsərrüfatı əmtəə istehsalçılarına vəsait daxil olmasını özündə əks etdirir ki, bu da

son nəticədə sahibkarlıq subyektlərinin maliyyə davamlılığının yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir şəraitdə sığortalanma fəaliyyətinin effektiv şəkildə həyata keçirilməsi kənd təsərrüfatı əmtəə istehsalçılarının investitsiya cəlbediciliyinin yüksəldilməsində də əhəmiyyətli rol oynayır. Sığorta müdafiəsi kreditorlarla vaxtında hesablaşmaların həyata keçirilməsinə imkan verir. Bundan əlavə, büdcənin bütün səviyyələrində, o cümlədən qeyri-büdcə fondlarından daxil olan vəsaitlər hesabına sığorta müdafiəsinin həyata keçirilməsi, kreditlərin verilməsi və yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatına investitsiyaların yönəldilməsi üçün cəlbedici mühüt formalaşdırır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında sığorta fəaliyyəti onların özlərinin daxili maliyyə resursları və sığorta təşkilatlarının vəsaitləri hesabına həyata keçirilir. Təhlil göstərir ki, regionlar və təsərrüfat subyektləri üzrə risklərdən qeyri-müəyyən daxil olmalar və əhəmiyyətli itgilər, əsas etibarilə daha çox sığorta təşkilatları hesabına həyata keçirilir. Kənd təsərrüfatında və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə risklərin sığortalanması bir qayda olaraq könüllü və məcburi şəkildə həyata keçirilə bilər.

Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatı bitkilərinin məhsullarının sığortalanması zamanı sığorta obyekti bir qayda olaraq kənd təsərrüfatı bitkilərinin mövcud məhsulları hesab edilir. Istər dünya və istərsə də yerli təcrübəyə əsasən belə qənaətə gəlmək olar ki, əslində itkilər yığılmayan, yəni toplanmayan məhsul hesabına yaranır və nəticədə sığorta hadisəsi və digər qeyri əlverişli şəraitdə istehsal edilən məhsulun səviyyəsi əvvəlki illə müqaisədə nəzərə çarpacaq dərəcədə aşağı olur. Bu cür yanaşma onunla bağlıdır ki, məhz qeyri-əlverişli şəraitlə bağlı istehsalçıların üzləşdikləri risklər bir qayda olaraq dövrü və tsiklik xarakter daşımaqla sığortalana bilir. Yığım zamanı yarana bilən məhsul itkilərinin həcmi bir qayda olaraq il ərzində məhsul yığımı başa çatdıqdan sonra müəyyənləşir. Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatı ilə sıx qarşılıqlı əlaqəyə malik olan aqrobiznes strukturlarında sığorta fəaliyyətinin ən mühüm xüsusiyyətlərindən biri risklərin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksək olmasıdır. Bu zaman yarana bilən təbii fəlakətdən məhsul itkisi bir qayda olaraq kənd təsərrüfatı

əmtəə istehsalçılarının və ayrı-ayrı sığorta təşkilatlarının gücləri daxilində aradan qaldırıla bilmir.

Kənd təsərrüfatında baş verən qeyri-əlverişli hava şəraiti nəticə etibarilə, iri miqyaslı itkilərin yaranmasına gətirib çıxarmaqla, həmdə kənd təsərrüfatında fəaliyyət göstərən ayrı-ayrı sahibkarların bu itkilərin kompensasiya olunması ilə bağlı vəsait çatışmamazlığı da özünü müşaidə etdirir. Bundan əlavə, kənd təsərrüfatında fəaliyyət göstərən sığorta şirkətlərinin kənd təsərrüfatı məhsullarının sığortalanması ilə bağlı dövlət himayəsinə ehtiyyacı da özünü biruzə verməkdədir. Ümumiyyətlə götürdükdə istər könüllü və istərsə də məcburi sığortalanma fəaliyyətində dövlət yardımının göstərilməsi öz nəticə etibarilə, istər sığortaçı təşkilatların və istərsə də kənd təsərrüfatı əmtəə istehsalçılarının maraqlarının effektiv şəkildə müdafiə edilməsində əhəmiyyətli rol oynaya bilər. Təcrübə göstərir ki, məcburi sığortalanma fəaliyyətində təsərrüfat subyektlərinin əhəmiyyətli xüsusi çəki təşkil etmələrinə ehtiyyac duyulmur. Xüsusilə nisbətən əlverişli şəraitdə fəaliyyət göstərən əmtəə istehsalçıları üçün xarakterikdir. Hansıki əlverişli regionlarda fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçılarının riskləri kifayət qədər aşağı olur və bu da onların özlərinin maliyyə ehtiyyatlarını resursları yarana bilən itkiləri effektiv şəkildə qarşılamağa imkan verə bilir. Kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı yüksək risklər mövcud olduğu zaman sığorta tariflərinin səviyyəsinin yüksəldilməsi xüsusilə könüllü sığorta fəaliyyətində önəmli rol oynayır.

Əvvəlki təsərrüfatçılıq sistemində kənd təsərrüfatının sığortalanması dövlətin iqtisadiyyata müdaxiləsinin ən mühüm tərkib hissəsi kimi çıxış etməklə kənd təsərrüfatı əmtəə istehsalçılarının yarana biləcək itkilərin qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. Məhz bu qəbildən sığorta fəaliyyəti bütövlükdə aqrar sahənin dövlət tənzimlənməsinin ən mühüm tərkib hissəsi kimi çıxış etməklə kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə təsərrüfat fəaliyyətinin zərərlə başa gəlməsinin qarşısının alınmasında əhəmiyyətli rol oynayırdı. Aparılan araşdırmalar göstərir ki, sığorta fəaliyyətinin bazar iqtisadiyyatına keçid ilə bağlı müasir reallıqlara, o cümlədən yeni istehsal münasibətlərinin xarakterinə uyğunlaşdırılması istiqamətində ilk növbədə hüquqi bazanın təkmilləşdirilməsi mühüm rol oynayır. Belə ki, əksər keçid

iqtisadiyyatlı ölkələrdə olduğu kimi, respublikamızda da bazar iqtisadiyyatına keçid ilə balı sığorta fəaliyyəti haqqında qanun qəbil edildi və həmin qanunla sığortanın hüquqi bazası yaradılmaqla, nəticə etibarilə, iqtisadi subyektlərin sığortalanması ilə bağlı tədbirlərin reqramentləşdirilməsi həyata keçirildi. Lakin, bütün bunlara baxmayaraq kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri nəzərə alaraq kənd təsərrüfatında sığorta fəaliyyətinin fikrimizcə hüquqi baxımdan reqramentləşdirilməsinə, yəni bu sahədə ayrıca qanunvericilik aktının qəbul edilməsinə ehtiyyac vardır. Hal-hazırda kənd təsərrüfatı əmtəə istehsalçılarının üzləşdikləri ən mühüm problemlərdən biri yarana bilən risklərin effektiv şəkildə sığortalanmamasıdır. Bu isə bilavasitə onunla bağlıdır ki, yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatı əmtəə istehsalçılarının və eləcədə, sığortaçı təşkilatların maliyyə resurslarının kifayət etməməsi, əksər hallarda isə sığortaçı təşkilatların bu sahəni sığorta etmələri ilə bağlı maraqlı olmaması, nəticə etibarilə, vəziyyəti mürəkkəbləşdirən ən mühüm cəhətlərdən biri kimi çıxış edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, sığortaçı təşkilatların kənd təsərrüfatında məhsulların sığortalanması ilə bağlı həyata keçirdikləri fəaliyyətin müəyyən hissəsi, hətta 50%-dən çoxu belə dövlət büdcəsindən ayrılan maliyyə resursları hesabına həyata keçirilir. Məhz belə bir şəraitdə kənd təsərrüfatı əmtəə istehsalçıları prinsipcə risklərdən effektiv şəkildə sığortalanmaq imkanına malik olurlar. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında sığorta fəaliyyətinin təşkilinin hüquqi əsasları ilk növbədə bu sahəyə dövlət yardımının təmin edilməsi ilə bağlı məsələlər reqramentləşdirilir. Bundan əlavə, kənd təsərrüfatında sığorta fəaliyyətinin həyata keçirilməsi adətən kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi haqqında qəbil edilən normativ qanunvericilik aktlarında da öz əksini tapır. Keçid iqtisadiyyatlı ölkələrin, hətta post sovet respublikalarının təcrübəsi göstərir ki, həmin ölkələrdə hələ 90-cı illərin ortalarından etibarən kənd təsərrüfatının sığortalanması və kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi haqqında qanunvericilik aktları qəbil edilmişdir. Həmin qanunvericilik aktlarında kənd təsərrüfatı məhsullarının sığortalanması ilə bağlı xüsusi maddələrə rast gəlinir ki, həmin maddələrdə də qeyd edilir ki, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlar öz xüsusi vəsaitləri hesabına sığortaçılara təxminən sığorta ödənişlərinin 50%-ə qədərini, qalan 50%-ni isə federal büdcə

hesabına sığortaçı təşkilatlara haqq ödənilir. Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sığortalanma fəaliyyətinin təşkili və həyata keçirilməsinin qaydaları, bundan əlavə, dövlət yardımının xüsusiyyətləri qeyd edilməklə yanaşı sığorta risklərinin sayı da göstərilir, bundan əlavə, məhsulun dəyərərinin sığortasının müəyyənləşdirilməsi qaydası əsas götürülür. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı kənd təsərrüfatı əmtəə istehsalçıları ilə sığorta təşkilatı arasında müqavilə bağlanır. Müqavilədə bir qayda olaraq sığorta fəaliyyətinin müddəti, eləcədə, sığorta ilə bağlı əlavə ehtiyyatlarının formalaşdırılması şərtləri müəyyənləşdirilir və bu şərtlər ilk növbədə ölkə hökuməti ilə razılaşdırılır. Qeyri-əlverişli situasiyalardan kənd təsərrüfatı əmtəə istehsalçılarını sığortalamaq məqsədi ilə, inkişaf etmiş ölkələrdə dövlət tərəfindən məcburi risklərin məcburi qaydada yenidən sığortalanma fəaliyyəti həyata keçirilir. Məhz yenidən sığortalanma adətən dövlətin sığorta ehtiyyatları hesabına həyata keçirilir ki, məhz belə bir şəraitdə sığortaçı təşkilatlar bu sahənin, yəni kənd təsərrüfatı kimi riskli sahələri sığortalanmağa kifayət qədər meylli olurlar. Bu isə yuxarıda qeyd etdiyimiz kimi, onunla bağlıdır ki, dövlət tərəfindən yenidən sığortalanma fəaliyyəti həyata keçirilir və bununlada əslində nəinki kənd təsərrüfatı əmtəə istehsalçılarının, həm də sığortaçı təşkilatın üzləşdikləri risklər belə yenidən sığortalanır.

Subsidiyaların verilməsi yolu ilə sığortalanmanın əsas qaydaları aşağıda göstərilmişdir:

-kənd təsərrüfatı məhsullarının mümkün riskləri, əsas etibarilə məhsuldarlığa təsir edən amillərin sığortalanması ilə həyata keçirilir.

-kənd təsərrüfatı məhsullarının sığorta dəyəri, əsas etibarilə əkin sahələrinin həcmindən, eləcədə, kənd təsərrüfatı bitkilərinin son 5 ildəki orta məhsuldarlıq səviyyəsindən asılı olaraq müəyyənləşdirilir. Bundan əlavə, sığorta müqaviləsinin bağlanması zamanı bazar qiymətlərinin proqnozlaşdırılması da həyata keçirilir.

-sığortanın məbləği, əsas etibarilə kənd təsərrüfatı məhsullarının sığorta dəyərinin 70%-i həcmində müəyyənləşdirilir. Adətən son 5 ilin orta səviyyəsi ilə müqaisədə məhsulun itkisinin 70%-i kənd təsərrüfatı əmtəə istehsalçısına qaytarılır.

-sığorta ödənişlərinin həcmi əsas etibarıilə subsidiyaların nəzərə alınmaqla müəyyənləşdirilir və bu zaman subsidiyaların hesablanması ilə bağlı stavkalar müəyyənləşdirilir və regionlar üzrə fərqlər nəzərə alınmaqla bu proses həyata keçirilir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında əmtəə istehsalçılarının faliyyətinin sığortalanması zamanı subsidiyaların verilməsinin dəqiq qaydaları müəyyənləşdirilir. Bu qaydalar bir qayda olaraq ölkə hökumətinin səlahiyyətli orqanlarının iştirakı ilə müəyyənləşdirilir və kənd təsərrüfatı əmtəə istehsalçılarının sığortalanması, əsas etibarilə maliyyə nazirliyinin federal xəzinədarliq idarəsi və eləcədə, bu prosesdə iştirak edən digər hökumət orqanları tərəfindən həyata keçirilir. Kənd təsərrüfatı əmtəə istehsalçıları bu zaman iki tip müqavilə bağlayırlar ki, bu müqavilələrdən birincisi sığortaçılarla sığorta müqaviləsi, ikincisi isə ölkə hökumətinin  müvafiq icra strukturları ilə sığortalanmanın subsidiyalaşdırılması ilə bağlı müqavilədir.

Dövlət orqanları bir qayda olaraq kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarından məhsulların sıgortalanması ilə bağlı müqavilələri əldə edir və həmin müqavilənin müvafiq şərtlərini müəyyənləşdirirlər ki, və bu şərtlər də əsas etibarıilə dövlət büdcəsi vəsaiti hesabına subsidiyaların verilməsini özündə əks etdirir. Büdcə vəsaitləri ölkənin maliyyə nazirliyinin federal xəzinədarlıq idarəsi tərəfindən büdcə vəsaitləri daxil olur və müvafiq kənd təsərrüfatı əmtəə istehsalçısına ayrı-ayrı subyektlər tərəfindən ödənilir. Aparılan araşdırmalar göstərir ki, son illər kənd təsərrüfatının sığortalanması ilə bağlı müvafiq tədbirlər həyata keçirilsə də, lakin bu sahədə, o cümlədən maliyyə resurslarından səmərəli istifadə edilməsi ilə bağlı həll edilməmiş problemlər qalır ki, bu da xüsusilə risklərin yenidən sığortalanması ilə sıx bağlıdır. Məhz bu tədbirlərin effektiv şəkildə həyata keçirilməməsi, eləcədə, kənd təsərrüfatı əmtəə istehsalçıları və sığortaçı qrumlarına dövlət yardımının reallaşdırılmaması nəticəsində kənd təsərrüfatı istehsalının maliyyə davamlılığının aşağı düşməsi halları özünü göstərir.

Inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının sığortalanması ilə bağlı dövlətin sığorta ehtiyatları fondunun yaradılması mahiyyət etibarilə dövlət tərəfindən yenidən sığortalanma ilə bağlı

risklərin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Bu isə son nəticədə kənd təsərrüfatı bitkilərinin məhsullarının sığortalanmasında ehtiyyat fondların yaradılması deməkdir. Kənd təsərrüfatının sığortalanması ilə bağlı yerli və xarici təcrübənin təhlili göstərir ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi vəziyyəti son nəticədə sahibkarların sığortalanmasının təşkili təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Bütövlükdə götürdükdə kənd təsərrüfatında sığortanın təşkili sisteminin təkmilləşdirilməsi aşağıdakı sxemdə öz əksini tapmışdır.

Sxem 2. Kənd təsərrüfatında sığortanın təşkili sisteminin təkmilləşdirilməsi.



Sxemdən göründüyü kimi kənd təsərrüfatında sığorta münasibətlərinin effektiv təşkili ilk növbədə sığorta ehtiyyatları fondunun yaradılmasından bilavasitə asılı olub bu da həmin fondların yığımın məqsədli şəkildə təmin edilməsini özündə əks etdirir. bütövlükdə götürdükdə istər büdcə vəsaitləri və istərsə də kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq qurumlarının ödəmələri hesabına yaradılan sığorta fondları mahiyyətcə kənd təsərrüfatında əlverişsiz təbii iqlim şəraitinin doğurduğu risklərin effektiv şəkildə qarşılanmasında əhəmiyyətli rol oynayır.

Kənd təsərrüfatında mövcud olan risklərin sığortalanması ilə bağlı dövlət büdcəsindən ödənilən subsidiyaların xüsusi çəkisi bir sıra hallarda yüksək olsa da, lakin formalaşan sığorta fondlarından heç də məqsədli təyinatla istifadə edilmir. Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatı məhsullarının sığortalanması ilə bağlı effektiv dövlət yardımının həyata keçirilməsi zəruridir. Lakin bununla belə effektiv dövlət yardımından istifadə edilməsi də əsas şərtlərdən biridir. Qeyd etmək lazımdır ki, bu proseslərin effektiv şəkildə həyata keçirilməsi ilk növbədə dövlət büdcəsinin iştirakı ilə kənd təsərrüfatı müəsisələrinin sığortalanması zamanı sığorta ehtiyyatlarının formalaşdırılmasının xüsusi qaydaları müəyyənləşdirilməlidir. Bundan əlavə, həmin sığorta fondlarından məqsədli qaydada istifadə edilməsi nəticə etibarilə, gələcək dövrlərdən məhsul itkisinin effektiv şəkildə kompensasiya olunması ilə bağlı həmin fondlardan istifadəyə imkan verə bilər.

Yenidən sığortalanma, prinsip etibarilə risklərin qarşısının alınması ilə bağlı məsuliyyətin bölüşdürülməsinə, eləcədə, sığorta əməliyyatlarının maliyyə dayanıqlığının yüksəldilməsinə xidmət edir. Kənd təsərrüfatında yenidən sığortalanma sisteminin yaradılması ilk növbədə dövlətin maliyyə resurslarından istifadəyə nəzarəti təmin etməyə və bütövlükdə yenidən sığortalanma prosesində maliyyə resurslarından səmərəli istifadə edilməsinə əlverişli şərait yaradır.

Fikrimizcə kənd təsərrüfatında risklərin effektiv şəkildə yenidən sığortalanması dövlət büdcəsindən ayrılan subsidiyaların həcminin müəyyənləşdirilməsindən bilavasitə asılıdır. Dövlət büdcəsindən ayrılan subsidiyalar təkcə kənd təsərrüfatında əlverişsiz iqlim şəraiti nəticəsində yarana bilən təbii fəlakətlərdən doğanitkilərin qarşısının alınmasına yönəldilməklə yanaşı, eyni zamanda sığorta fəaliyyətinin təşkili

ilə bağlı xərcləri də əhatə etməlidir. Qeyd etmək lazımdır ki, sığorta fəaliyyətinin həyata keçirilməsi ilə bağlı xərclər təkcə məhsul itkisinin həcmindən deyil, eyni zamanda sığorta obyektinin sayından, bundan əlavə, sığortaya xidmət ilə bağlı xərclərin həcmindən, əmək haqqı səviyyəsindən və digər faktorlardan bilavasitə asılıdır. Sığorta fəaliyyətinə subsidiyaların dərəcələrinin hesablanması zamanı ilk növbədə məhsul itkisinin effektiv qarşılanması ilə bağlı xərclər və həm də sığorta fəaliyyətinin həyata keçirilməsi ilə bağlı xərclər də nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, bu praktika ABŞ-da və Kanadada kənd təsərrüfatı məhsullarının sığortalanmasının subsidiyalaşdırılmasında geniş şəkildə tətbiq edilməkdədir. Xüsusən inkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ-da və Kanadada sığortanın dəyəri əsas etibarilə kənd təsərrüfatında məhsulun itkisinin qarşılanması ilə bağlı subsidiyaların həcmindən asılı olmaqla yanaşı bu zaman son 5 ildə orta məhsuldarlığın səviyyəsi də nəzərə alınır. Ümumiyyətlə götürdükdə subsidiyaların hesablanması üçün stavkalar bir qayda olaraq uzun müddətli dövrdə orta məhsuldarlıq səviyyəsindən asılı olur. kənd təsərrüfatı bitkilərinin ayrı-ayrı illərdə məhsuldarlığın səviyyəsinin aşağı düşməsi ilə bağlı yaranan itkilərin qarşısının alnmasında da dövlət büdcəsindən ödənilən subsidiyalar əhəmiyyətli rol oynayır.

Büdcə vəsaitlərindən məqsədli istifadəyə nəzarət məqsədi ilə, sığorta təşkilatlarının yenidən sığortalanmasına yönəldilmiş vəsaitlərin uçotu aparılır və eyni zamanda kənd təsərrüfatı məhsullarının sığortalanması ilə bağlı əməliyyatlar haqqında hesabat təmin olunur və bu zaman, ilk növbədə dövlət büdcəsindən ayrılan vəsaitin uçotu nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, təsərrüfatlar tərəfindən ödənilən sığorta haqqları bir qayda olaraq kənd təsərrüfatında məhsulun istehsalı və reallaşdırılmasına qədərki dövrdə nəzərdə tutulur. Bir sıra kənd təsərrüfatında fəaliyyət göstərən əksər sahibkarlar xüsusilə bitkiçilik istiqamətində fəaliyyət göstərən sahibkarlar xüsusi vəsaitləri bura aid etmirlər. Bu qəbildən olan xərclərə bir qayda olaraq mövsümü xərclər aid edilir ki, bu da bank kreditləşdirilməsinin obyekti hesab edilir. Aparılan araşdırmalar göstərir ki, sığorta haqqlarının ödənilməsində kreditlərin cəlb edilməsi də əhəmiyyətli rol oynayır. Bu zaman kreditlərin cəlb edilməsi əsas etibarilə onların vaxtında qaytarılması prosesini də gündəmə gətirir.

Bütövlükdə götürdükdə sığorta haqqlarının ödənilməsi ilə bağlı cəlb edilən kreditlərin qaytarılmasında əsas etibarilə dövlət büdcəsi hesabına subsidiyalaşdırma əhəmiyyətli rol oynayır ki, bu zaman, dövlət kreditlə bağlı faiz stavkalarının müəyyən hissəsini büdcədən ödəyir.

Ümumiyyətlə götürdükdə keçid iqtisadiyyatlı ölkələrdə kənd təsərrüfatı məhsullarının sığortalanması sisteminin təkmilləşdirilməsi ilə bağlı proseslər müxtəlif mərhələlərdə həyata keçirilməlidir. Birunci mərhələdə əsas etibarilə, kənd təsərrüfatında sığorta proseslərinə dövlət yardımı ilə bağlı proqramların işlənib hazırlanması zəruridir. Bu ilk növbədə kənd təsərrüfatı məhsullarının satış qiymətlərinin aşağı düşməsi ilə bağlı yarana bilən gəlir itkilərinin sığortalanmasını özündə əks etdirməlidir. Hansıki inkişaf etmiş ölkələrdə bu proses effektiv şəkildə tətbiq edilir. Bundan əlavə, çox illik əkmələrdən əldə edilən məhsulların sığortalanması da mühüm əhəmiyyət kəsb edən məqamlardandır. Kənd təsərrüfatında əmlakın sığortalanması da geniş yayılmış proseslərdən biri hesab edilir. Kənd təsərrüfatında əmlakın sığortalanması əsas etibarilə kənd təsərrüfatının sığortalanmasının əsas istiqamətlərindən biri hesab edilir və bu zaman, istehsal infrastrukturunun müxtəlif formada dəyərən zərərlərin qarşısının alınmasına yönəldilmiş tədbirlər nəzərdə tutulur. Ümumiyyətlə götürdükdə kənd təsərrüfatında məhsul istehsalı və satışı prosesində sığortalanma sistemi yaraba bilən zərərlərin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Məhz bu baxımdan məhsul istehsalı və satışı sferasında sığorta sisteminin təkmilləşdirilməsi zəruridir. Kənd təsərrüfatının istehsalı və emalı, habelə satışı prosesində sığorta sisteminin təkmilləşdirilməsi ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

-ilkin mərhələdə kənd təsərrüfatı müəsisələri tərəfindən istehsal edilən məhsulun təxminən 50%-ə qədərinin sığortalanması prosesinə dövlət yardımının həyata keçirilməsi təklif edilir.

-fikrimizcə bu prosesin hüquqi təminatının təkmilləşdirmək məqsədi ilə, kənd təsərrüfatında sığorta ehtiyyatlarının yaradılması ilə bağlı qanunvericilik aktı qəbul edilməli və həmin qanunvericilik aktı kənd təsərrüfatının dövlət tənzimlənməsinə istiqamətlənmiş tədbirlərlə əlaqələndirilməlidir.

-dövlət büdcəsi vəsaitinin iştirakı ilə kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı risklərin yenidən sığortalanması qaydaları müəyyənləşdirilməlidir.

-dövlətin iştirakı ilə kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı sığorta ehtiyatlarının formalaşdırılmasının xüsusi qaydaları işlənib hazırlanmalı və təsdiq edilməli, bundan əlavə, istər sahibkarlar və istərsə də dövlət büdcəsindən sığorta ödənişlərinin həyata keçirilməsinə və ondan istifadə qaydalarına nəzarət təmin edilməlidir.

-məhsullar üzrə dövlət büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsi üçün stavkalar müəyyənləşdirilməli və dövlət büdcəsindən sığortalanma sisteminin həyata keçirilməsi ilə bağlı ayrı-ayrı kənd təsərrüfatı məhsullarının siyahısı konkretləşdirilməlidir.

-kənd təsərrüfatı məhsullarının sığorta dəyərinin müəyyənləşdirilməsi zamanı kənd təsərrüfatında orta məhsuldarlığın səviyyəsi və eləcədə, subsidiyalaşdırma stavkaları müəyyənləşdirilməli və bununla bağlı sahibkarlarla 5 ildən az olmayaraq sığorta müqavilələri bağlanmalıdır.

-sığorta müqavilələrinin bağlanması zamanı proqnozlaşdırılan bazar qiymətləri də nəzərə alınmalı. Təbii ki, bu zaman dövlətin müvafiq orqanlarının iştirakı təmin edilməlidir.

-sığorta təşkilatları tərəfindən həyata keçirilən fəaliyyətə yenidən sığortalanması, mühasibat uçotunun aparılması, kənd təsərrüfatı məhsulları ilə bağlı sığorta əməliyyatlarının təşkili ilə bağlı hesabatlar, dövlət yardımının təminatlı qaydada həyata keçirilməsi və digər məsələlər aid edilməlidir.

-dövlət büdcəsi hesabına subsidiyalaşdırmanın əsas hissəsi kreditlərlə bağlı faiz stavkalarının ödənilməsinə və eləcədə, kənd təsərrüfatı məhsullarının itkisi ilə bağlı risklərin sığortalanmasına yönəldilməlidir.

## 3.3 Sahibkarlıq subyektlərinin mikromaliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi

Kənd təsərrüfatında risklərin effektiv şəkildə sığortalanmasında, eləcədə, əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinin effektiv şəkildə həyata keçirilməsində və ən nəhayət kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına olan ehtiyaclarının ödənilməsində dövlətin maliyyə yardımları əhəmiyyətli rol oynayır. Bu baxımdan mikromaliyyələşdirmə proqramlarının həyata keçirilməsi regionda fəaliyyət göstərən sahibkarlıq qrumlarını effektiv fəaliyyətində və davamlı inkişafının təmin edilməsində əhəmiyyətli rola malikdir. Qeyd etmək lazımdır ki, bank kreditləşdirilməsi ilə kifayət qədər fərqli məqamlara malik olsa da mikromaliyyələşdirmə tamamilə demək olar ki, prinsipcə eyni metodologiyada aparılmalıdır. Adı çəkilən tədbirlər arasında konseptual fərqlər, ilk növbədə onunla bağlıdır ki, bu tip maliyyə institutları, əsas etibarilə məqsədli müxtəlif məqsədli orientasiyalara malikdir. Əgər bank fəaliyyəti mahiyyət etibarilə xüsusilə, biznes fəaliyyətində müvəffiqiyyətin təmin edilməsinə istiqamətlənirsə, mikromaliyyə institutları daha çox öz biznes fəaliyyətində ayrı-ayrı müştərilərinin uğur qazanmasına gətirib çıxarır və kənd təsərrüfatında stabilliyin təmin edilməsinə xidmət edir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin praktikasında mikro maliyyələşmənin metodologiyası ilə bağlı çox saylı yanaşmalar və prosedurlar mövcuddur. Maliyyələşmə proqramları, adından da məlum olduğu kimi kənd təsərrüfatında mövsümi xərclərin kompensasiya olunması və mövsümi ehtiyacların ödənilməsi ilə bağlı əsas etibarilə kiçik maliyyələşmə proqramlarını özündə əks etdirir.

Hazırda transformasiya prosesini yaşayan ölkələrdə mikro maliyyələşdirmə ilə bağlı müəyyən təcrübə toplanmaqdadır. Bu təcrübə əsas etibarilə yerli mikromaliyyə institutları və xarici ölkələrin müvafiq qurumlarının qarşılıqlı əməkdaşlığı sahəsində yaranmışdır. Bütövlükdə götürdükdə mikromaliyyələşmə proseslərinin həyata keçirilməsi ilə bağlı mövcud metodologiyanın tərkib hissələrinə aşağıdakılar şamil edilir:

-fərdi və qrup kreditləşdirməsini metodları.

-borcların təminat formaları.

-borcların qiymətləndirilməsinə yanaşmalar.

-faiz stavkalarının hesablanması metodları.

Hazırda mikromaliyyələşdirmənin tipoloji xüsusiyyətlərindən biri, hər şeydən əvvəl bu prosesdə qrup kreditləşdirməsi metodlarından istifadə edilməsindən ibarətdir. Belə ki, əksər inkişaf etmiş ölkələrdə mikro maliyyələşmə proqramlarının baza prinsipini məhz qrup kreditləşdirilməsi təşkil edir. Qərb tədqiqatçılarının fikrincə əslində mikromaliyyələşmə institutlarının müvəffiqiyyətli fəaliyyəti ilə qrup kreditləşdirmə metodları arasında bir başa uyğunluğun olduğu göstərilir. Qeyd etmək lazımdır ki, qrup kreditləşdirilməsi  bütövlükdə götürdükdə borcların təminatının özünəməxsus forması kimi çıxış edir. Inkişaf etməkdə olan ölkələrdə mikromaliyyələşdirmə prosesləri nəticə etibarilə, xüsusilə regionlarda yoxsulluğun aradan qaldırılmasının ən mühüm vasitəsi kimi çıxış edir. Mikromaliyyə institutlarının xidmətlərinə əsas etibarilə əhalinin az təminatlı və yoxsul təbəqələri müraciət edirlər. Bundan əlavə, mikro maliyyələşdirmə proqramları vasitəsi ilə vəsaitlərin əldə edilməsi zamanı girov qoyulmasından və digər təminat vasitələrindən istifadə edilmir. Mikromaliyyələşmə proqramı üçün xarakterik cəhətlərdən biri də, qrup üzvlərinin hər birinin bütövlükdə borcların qaytarılması ilə bağlı məsuliyyət daşımasıdır. Məhz belə bir şəraitdə borcların qaytarılmasının real və təminatlı mexanizmləri yaranır. Bu mexanizmin səmərəliliyini xarakterizə edən ən mühüm məqamlardan biri də istər fərdi, istərsə də qonşuluq və qohumluq prinsipləri əsasında qurupların profissional əlaqələrinin mövcudluğu ilə bağlıdır. Bütövlükdə götürdükdə bütün bunlar sosial icmalar çərçivəsində yararxit prinsiplərə əsaslanır. Mikromaliyyələşmə proqramları nəinki təkcə iqtisadi prinsipləri, eyni zamanda humanitar prinsiplərədə əsaslanır. Odur ki, mikro maliyyələşmə proqramlarının səmərəliliyini şərtləndirən ən mühüm məqamlardan biri kimi təkcə iqtisadi parametirlərdən istifadə edilməsi düzgün olmazdı. Kənd təsərrüfatında mikromaliyyələşmə proqramları xüsusilə yuxarıda qeyd etdiyimiz kimi mövsümü xərclərin ödənilməsi və mövsümü proseslərdə yaranan kapital aclığının effektiv şəkildə qarşılanmasında mühüm əhəmiyyət kəsd edir. Qeyd etmək lazımdır ki,

mikromaliyyələşmə proseslərinin ən mühüm cəhətlərindən biri də kiçik borcların qaytarılması mexanizmi ilə bağlıdır. Istər inkişaf etmiş və istərsə də inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, mikromaliyyələşmə ilə bağlı əldə edilən vəsaitlərdən borclar tamamilə məmun qalırlar və ona görə də həmin kiçik borcların qaytarılması ilə bağlı müvafiq prosedurlara əməl edilməsi kifayət qədər sadə bir prosesə çevrilir. Bütövlükdə isə mikromaliyyə resurslarının qaytarılmasının faizləri kifayət qədər yüksəkdir. Respublikamızda bu göstərici təxminən 98%-dən yuxarı təşkil etmişdir. 2000-ci ilə olan məlumata görə Rusiyada bu göstərici 96,1% təşkil edirki bu da risklərin yol verilən səviyyələrinin heçdə yüksək olmadığını göstərir. Qeyd etmək olar ki, mikromaliyyələşmə ilə bağlı verilən kreditlərin qaytarılmama riskləri kifayət qədər aşağıdır. Odurki risklərin mövcudluğu baxımından həmin verilən qısa həcmli borcların qaytarılması problemi başlıca faktır hesab olunmur. Bu baxımdan sahibkarlar daha çox mikromaliyyələşmə proqramları vasitəsi ilə resurslar əldə edilməsinə maraqlı olurlar. Mikromaliyyələşmə  təşkilatları kifayət qədər geniş yayılmaqla qısa müddət ərzində müəyyən xərclərin ödənilməsində əhəmiyyətli rol oynayırlar. Aparılan araşdırmalar göstərir ki, mikro maliyyələşmə proqramlarının həyata keçirilməsi ilə bağlı ən mühüm mexanizmlərdən biri qurupların mövcudluğudur. Əslində qrup iştirakçılarının sayının artımı nəticə etibarilə, mikromaliyyələşmə institutlarının əməliyyat xərclərinin aşağı düşməsinə gətirib çıxarır. Bundan əlavə qrup iştirakçılarının sayının artımı nəticə etibarilə, borcların ödənilməsi ilə bağlı cari monitorinqlərin həyata keçirilməsinə də əlverişli şərait yaradır.

İqtisadiyyatda qısa müddətli zəruri xərclərin konpensasiya olunmasında mikromaliyyələşmə proqramlarının əhatə dairəsi getdikcə artmaqdadır. Bu prosesin səmərəliliyini və yüksək dövriyyə surətini xarakterizə edən məqamlardan biri də bu prosesin görünən iqtisadi üstünlüklərə malik olmasıdır. Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə əslində qrup iştirakçılarının sayının artımı kəndlərdə yaşayan əhalinin mikromaliyyələşmə xidmətlərinə olan ehtiyacları ilə bağlıdır. Bunun nəticəsidir ki, inkişaf etməkdə olan ölkələrdə mikromaliyyələşmə institutlarının xidmətlərindən milyonlarla əhali istifadə edir. Avropa ölkələrində qarşılıqlı

məsuliyyət prinsipi ilə bağlı qrupların yaradılmasına daha çox üstünlük verilir. Bosniya və Polşanın təcrübəsi göstərir ki, qarşılıqlı məsuliyyət prinsipləri əsasında hər bir qrup üç nəfərdən, on nəfərə qədər təşkil edilir və bu zaman əsasən qohumluq və qonşuluq münasibətləri başlıca faktır kimi çıxış edir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında məhsul istehsalı və satışı prosesinin effektiv şəkildə həyata keçirilməsində mikromaliyyələşmə xidmətlərindən geniş şəkildə istifadə edilir. Odur ki, aqrabiznes sektorlarında mikromaliyyələşmə ilə bağlı dövlət fondlarının yaradılmasına da üstünlük verilir. Təbii ki bu zaman fərdi və qurup kreditlərinin verilməsi ilə bağlı texnalogiyanın uyğunlaşdırılmasından da geniş şəkildə istifadə edilir Keçıd iqtisadiyyatlı ölkələrin o cümlədən Rusiyanın və Belarusun təcrübəsi göstərir ki, mikromaliyyələşmə xidmətlərindən daha çox xırda təbəqələr o cümlədən qadınlar daha çox istifadə edirlər. Qeyd etmək lazımdır ki, qrup kreditləşdirməsinin metalogiyasından sahibkarlıq qurumlarının mikromaliyyələşdirməsini dövlət fondlarının formalaşdırılmasında da geniş şəkildə istifadə edilir və bu zaman aşağıdakı prinsiplər əsas götürülür:

-qrup üzvüləri arasında işgüzar münasibətlərin yaranması. Bu proses nəticə etibarilə, istehsalçılar arasında kooperasiya münasibətlərinin inkişafına qədərki bir mərhələni özündə əks etdirir.  Belə ki, koperasiya münasibətlərinin effektiv şəkildə formalaşmadığı, xüsusilə keçid iqtisadiyyatlı ölkələrdə sahibkarlıq mühütünün effektiv şəkildə reallaşdırılması əslində qrup üzvləri arasında işgüzar münasibətlərin mövcudluğundan bilavasitə aslıdır. Kənd təsərrüfatı məhsulları istehsalında maddi texniki resurslarla təchizat və məhsulun satışı ilə bağlı problemlərin həllində məhs kooperasiya münasibətləri önəmli rol oynayır. Bu baxımdan kooperasiya münasibətlərinin inkişaf etmədiyi, yəni yüksək yetginlik mərhələsinə çatmadığı bir şəraitdə qrup üzvləri arasında qarşılıqlı işgüzar münasibətlərin mövcudluğu əhəmiyyətli rol oynayır və bütün bunlar mikromaliyyələşmə ilə bağlı kredit resurslarının verilməsindədə geniş şəkildə tətbiq edilir. Xüsusilə Şərqi Avropa ölkələrində qrup üzvüləri arasında işgüzar münasibətlərin formalaşması prosesindən, əsas etibarlı qonşuluq əlaqələri əhəmiyyətli rol oynayır və bu zaman biznesin effektiv

şəkildə həyata keçirilməsi həm əhalinin sayinda sosial və profisional əlaqələrdən bilavasitə aslı olur.

-qurupun hər bir üzvü öz ehtiyaclarının qarşılanması ilə bağlı fərdi şəkildə borc götürmək imkanına malik olur. Bu baxımdan mikromaliyyələşmə prosesində borclarla bağlı fərdi öhdəliklər də yaranır. Bu prosesin effektiv şəkildə reallaşdırılması üçün qrupun hər bir üzvü, borc götürən şəxslə bağlı müəyyən təminatlar verirlər və hər bir üzvün öhdəlikləri ilə yanaşı qurupun digər üzvlərinin də qarşılıqlı məsuliyyətli prinsipi yaranır. Bütövlükdə məsuliyyətin bu forması prinsip etibarilə istehlak kredit kopirativlərinin hüquqi standartı kimi müəyyənləşdirilmişdir və bütövlükdə qrupun strukturunda effektliyin təmin edilməsinə əlverişli şərait yaradir.

-mikromaliyyələşmə xidməti ilə bağlı qrupların başçıları qrup üzvüləri ilə invidual qaydada işlər aparır və qrupun hər bir üzvü prinsip etibari ilə götürülən borcların qaytarılması ilə bağlı özünəməxsus öhtəliklər götürürlər və bu proses qrup rəhbərləri ilə qrup üzvləri arasında qarşılıqlı etimadın yaradılmasından və eyni zamanda şəxsi məhsuliyyətin yüksəldilməsindən bilavasitə asılı olur.

-qrup üzvlərinin iştirakı olmadan mikromaliyyə institutlarının kredit komitələrinin borcların verilməsi haqqında qərarların qəbul edilməsi prosedurlarının saxlanılması.

-qrupun kredit götürmə fəaliyyətindən asılı olaraq borclanma şərtlərinin təkmilləşdirilməsi ilə bağlı proseslərin həyata keçirilməsi.

-növbəti borcların verilməsi ilə bağlı müraciətlərə baxılması və onların təsdiq edilməsi. Adətən ikinci dəfə borc alan qrupa bir qayda olaraq əvvəlki borcları vaxtında qaytarması şərti qoyulur. Qarşılıqlı məsuliyyətlə öhdəlikləri yerinə yetirilmədiyi halda isə qrupun bütün üzvlərinə maliyyə xidmətlərinin göstərilməsinin məhdudlaşdırılması tətbiq edilir. Ümumiyyətlə praktika göstərir ki, bu şərtin qoyulması öhdəliklərin vaxtında yerinə yetirilməsində başlıca motiv rolunu oynayır. Qeyd etmək lazımdır ki, müxtəlif mikomaliyyə institutları eyni zamanda və ya növbətilik prinsipi əsasında qrup üzvlərinə borcların qaytarılmasını təmin edirlər. Təbii ki, bu həyata keçirilən kredit siyasətindən də bilavasitə asılı olmaqla qrup

iştirakçıları üçün xidmət spektorunun genişləndirilməsinin davamiyyətinin müəyyən bir forması kimi çıxış edir. Aparılan araşdırmalar göstərir ki, mikromaliyyə xidmətlərinin göstərilməsi üçün ən mühüm üstünlüklərdən biri, bu prosesin operativ və maliyyə xidmətlərinə çıxış imkanlarının yetərincə qorunub saxlanması ilə bağlıdır. Makromaliyyə xidmətlərinin göstərilməsi ilə bağlı başlıca kriteriya əslində qrup formasında müştərilərin çıxış etməsidir. Bu isə, nəticə etibarilə, operativlik göstəricisini aşağı salsa da lakin, eyni zamanda proqram iştirakçılarının xüsusi əmanətlərinin kredit dövriyyəsinə cəlb edilməsinə əlverişli şərait yaradır. Bundan əlavə, adı çəkilən prinsip, makromaliyyə məsuliyyətinin təmin edilməsinə də xidmət edir. Fikrimizcə kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinə mikromaliyyə xidmətlərinin göstərilməsi ilə bağlı dövlət fondlarının inkişaf etdirilməsi məqsədə uyğun hesab edilməlidir və bu zaman aşağıdakı prinsiplər əsas götürülməlidir.

-potensial borclular, əsas etibarilə sayı 5-10 nəfərdən ibarət olmaqla sahibkarlıq təbəqələrindən formalaşmalıdır.

-kredit götürən qrupun rəhbəri, bir qayda olaraq fərdi formada borc alanlarla deyl, qruplarla çalışmalıdır. Belə ki, qrup üzvlərinin sayı 5-10 nəfərdən ibarət olmaqla, nəticə etibarilə, maliyyə imkanlarına malik olmalıdır. Hər bir kredit qrupunun rəhbəri öz fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ilə bağlızəruri tədbirlər həyata keçirməlidir. Bundan əlavə, kredit qrupunun rəhbəri, prinsipcə qrupun hər bir üzvünün maliyyə imkanlarını təhlil etməli və qrup üzvlərinin maliyyələşdirilməsi ilə bağlı cari kvotaları müəyyənləşdirməli və onların alıcılıq qabiliyyətinin təhlil edərək konkret olaraq kreditin götürülməsi ilə bağlı mikromaliyyə institutlarına zəruri müraciətlər etməlidir.

-əmanətlərin cəlb edilməsi. Fərdi borcların verilməsi ilə bağlı müraciətlər, bir qayda olaraq müstəqil qruplar formasında təhlil edilməli və bu prosesin reallaşdırılması ilə bağlı mikromaliyyə xidmətinə zəruri müraciət işlənib hazırlanmalıdır. Belə ki, ilkin mərhələdə mikromaliyyə institutunun persionalı bu fəaliyyəti araşdırmalı və qrup üzvlərinə zəruri məsləhətlər verməlidir.

-borcların verilməsi ilə bağlı kvotaların yüksəldilməsinin tsiklik xarakter daşıması.

-qrupun borcları ilə bağlı qarşılıqlı məsuliyyətin təmin edilməsi. Əgər bu və ya digər səbəb üzündən qrupun hər hansı bir üzvü öz borc öhtəliklərini yerinə yetirə bilmirsə, onda qrup üzvləri, nəticə etibarilə, qrupun xüsusi fondları hesabına yaranan borcları kompensasiya etməlidir. Bu prinsipin özünəməxsus cəhəti onunla bağlıdır ki, bütün bunlar qarşılıqlı məsuliyyətin təmin edilməsinə gətirib çıxarmaqla bütövlükdə qrup daxilində sığorta ehtiyatlarının yaradılmasına istiqamətlənir və nəticə etibarilə, mikromaliyyə institutlarının əslində borcların qaytarılması ilə bağlı məhkəmə prosedurlarına cəlb edilməsindən uzaqlaşdırır.

-qrupların inzibati müstəqilliyinin qorunub saxlanması və onların idarəetməsində demokratik prinsipi saxlanılması. Təbii ki, qrup üzvləri öz rəhbərlərini sərbəst şəkildə seçir, pul vəsaitlərinin idarəedilməsi ilə bağlı funksiyaların həyata keçirilməsini həmin rəhbərə tapşırırlar. Təbii ki, bu zaman qrupa yeni üzvlərin cəlb edilməsi, eləcədə, borcların verilməsi ilə bağlı müraciətlərin işlənib hazırlanması, borclarla bağlı öhtəliklərin icrasına nəzarət, eləcədə, qrup üzvlərinin borclarının qaytarılmaması ilə bağlı xərclərin ödənilməsi, cari uçotun həyata keçirilməsi, bütövlükdə qrup rəhbərinin funksiyalarına şamil edilir.

Mikromaliyyələşmə xidmətlərinin həyata keçirilməsində qrup kreditləşdirməsi metodlarının özünəməxsus üstünlüklərinin olmasına baxmayaraq əksər ölkələrdə qrupa yeni üzvlərin daxil olması məhdudlaşdırılır. Məhz bu baxımdan az təminatlı əhali koteqoriyalarının fərdi qaydada kreditləşdirilməsi metodlarından da mikromaliyyə institutları geniş şəkildə istifadə edirlər. Ümumiyyətlə götürdükdə qrup kreditləşdirməsi sistemi mikromaliyyələşmə xidmətlərinin həyata keçirilməsində qadınlar arasında daha populyar xarakter daşıyır. Adətən sahibkarlıq fəaliyyəti ilə məşğul olan kişilər öz üzərilərinə daha çox fərdi öhtəliklər götürürlər.

Mikromaliyyələşmə xidmətlərinin həyata keçirilməsi zamanı fərdi borcların təmin edilməsinin standart formaları da mövcuddur ki, bu formalara adətən müxtəlif növ girovların verilməsi, eləcədə, maliyyə xidmətlərinin əldə edilməsi ilə bağlı operativliyin təmin edilməsi şamil edilir. Qeyd etmək lazımdır ki, aşağı gəlirlik səviyyəsinə malik olan sahibkarlıq qrumları adətən məqsədli mikromaliyyələşmə proqramları çərçivəsində qruplar təşkil edirlər ki, həmin qruplar, adətən likvit

girovlara malik olmur və eləcədə, borcların təminatının bu və ya digər formasının tətbiqi imkanlarını özündə əks etdirirlər. Digər tərəfindən girovların təmin olunmasının prosedurlarından biri də ilk növbədə real nəticələrlə bağlıdır. Təbii ki, bu zaman, məhkəmə xərcləri, nəticə etibarilə, mikromaliyyələşmə institutlarının əməliyyat xərclərinin artırılmasına da gətirib çıxarır ki, bu da xüsusilə borcların qaytarılmadığı hallarda özünü göstərir. Mikromaliyyə xidmətlərinin göstərilməsi ilə bağlı fəaliyyət göstərən qruplar istər fərdi və istərsə də kredit qruplarının biznes fəaliyyətinin diqqətlə təhlil edir, həmin qrupların maliyyə daxilolmalarını araşdırır və eləcədə, kredit qruplarının cəmiyyətdəki riputatsiyasını araşdırırlar. Məhz belə bir şəraitdə konkret fəaliyyətlə bağlı müsbət cəhətlər aşkar olunduğu halda pul vəsaitlərinin hərəkəti təmin edilir.

Mikromaliyyə xidmətlərinin göstərilməsində faiz stavkalarının hesablanmasının özünəməxsus metodları mövcuddur. Belə ki, mövcud qanunvericilik, nəticə etibarilə, mikromaliyyə institutlarında tətbiq edilən faiz stavkaları ilə bağlı konkret məhdudiyyətlər müəyyənləşdirməmişdir. Odur ki, bütün mikromaliyyələşmə institutları borcların verilməsi şərtlərini bütövlükdə koniktur dalğalanmalarından asılı olaraq müəyyənləşdirirlər. Ümumiyyətlə qeyd etmək lazımdır ki, mikromaliyyələşmə proseslərində kiçik borcların özünəməxsus güzəştli xarakter daşıması ilə bağlı bəzi anlaşılmamazlıqlar da mövcuddur. Qeyd etmək lazımdır ki, sahibkarlığın dəstəklənməsi ilə bağlı çox saylı regionlal fondlar, prinsip etivarilə verdikləri kreditlərlə bağlı faizləri ölkənin mərkəzi bankının yenidən maliyyələşdirilməsi ilə bağlı mövcud stavkasından aşağı şəkildə müəyyən edirlər. Bu metodun xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, mikromaliyyələşmə proqramlarında xüsusi resursların kəskin məhdudlaşdırılması halları müşaidə olunmur. istər dünya və istərsə də yerli təcrübə göstərir ki, az gəlirə malik olan sahibkarlıq qrumları digər iri həcmli borclarla müqaisədə öz öhtəliklərini daha müvəffiqiyyətlə icra edirlər.

Sahibkarlıq fəaliyyətində tətbiq edilən mikromaliyyələşmə xidmətləri ilə bağlı faiz stavkaları bir qayda olaraq sahələrin spesifik xüsusiyyətindən asılı olaraq müəyyənləşdirilir. Təbii ki, bu zaman xidmət və ticarət sektorunda fəaliyyət göstərən

sahibkarlıq qrumlarına göstərilən mikromaliyyələşmə xidmətlərində faiz stavkalarının nisbətən daha yüksək olur, əksinə kənd təsərrüfatında və istehsal sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə mikromaliyyələşmə xidmətləri vasitəsi ilə verilən kreditlərin faiz dərəcələri isə nisbətən aşağı olur. Bu isə bilavasitə onunla bağlıdır ki, xidmət və ticarət sektorlarında gəlirlərin sürətli dövriyyəsi baş verir. Bundan əlavə, adı çəkilən sahələrdə, yəni ticarət və xidmətdə mənfəətin əldə edilməsi daha sürətli təmin edilir. Məhz bu baxımdan da ticarət və xidmət sektorlarında fəaliyyət göstərən sahibkarlıq subyektləri yüksək faiz stavkalarını ödəməyə hazır olurlar. Kənd təsərrüfatı subyektləri üçün ən başlıca cəhətlərdən biri, əslində fasiləsiz fəaliyyət göstərilməsi üçün tələb olunan dövriyyə vəsaitləri təmin etməkdən ibarətdir. Təhlil göstərir ki, mikro borclarla bağlı faiz stavkası maliyyə xidmətləri ilə müqaisədə nisbətən aşağıdır. Ümumiyyətlə mikromaliyyələşmə qurumlarının göstərdikləri maliyyə xidmətləri bir sıra hallarda lombardların fəaliyyəti ilə də sıx bağlı olur və onlar lombard xidmətləri göstərirlər və bu baxımdan adı çəkilən xidmət sahələrində faiz dərəcələri nisbətən yüksək olur. aparılan araşdırmalar göstərir ki, mikromaliyyələşmə xidmətləri göstərən qrumların səmərəli fəaliyyəti əslində inflyasiya proseslərinə adevikat reaksiyaların göstərilməsindən də bilavasitə asılıdır. Belə ki, borcların qısa müddətli xarakter daşıması zamanı təbii ki, ümumiyyətlə valyutanın kursunda baş verən dəyişikliklər və eləcədə, inflyasiya templərinə effektiv reaksiya göstərmək mümkün olur və bu zaman faiz stavkalarında operativ dəyişikliklər həyata keçirilir. Ümumiyyətlə mikromaliyyə institutları, əsas etibarilə öz fəaliyyətlərini geniş təkrar istehsal rejimində və öz xərclərini ödəmə prinsipi əsasında qururlar. Bütövlükdə həmin qurumların srateji planlaşdırılması və cari maliyyə siyasətində başlıca məqsəd, əslində gəlirlə fəaliyyət göstərməkdən ibarətdir. Bu baxımdan da mikromaliyyə xidmətləri göstərən qrumlarda faiz stavkalarının hesablanmasında ən başlıca məqsədlərdən biri əslində xərclərin effektiv şəkildə qarşılanması və gəlir əldə edilməsindən ibarətdir. Mikromaliyyə xidməti göstərən qurumlar özlərinin verdikləri kiçik kreditlərdən əldə etdikləri faizlər hesabına bütövlükdə mikromaliyyə institutlarının əməliyyat xərclərini kompensasiya edir, vergi öhtəliklərini ödəyir, cəlb olunmuş vəsaitlərin ödənilməsi ilə

bağlı məsələləri həll edir. Bunun nəticəsində də adı çəkilən qrumlar kifayət qədər rentabelli fəaliyyət göstərir. Praktika göstərir ki, maliyyə xidməti göstərən qrumlar ay ərzində öz müştərilərinin təxminən 10% həcmində artırmaqla prinsipcə cari gəlirlərini 30-40%-ə qədər yüksəldə bilirlər.

Ümumiyyətlə götürdükdə sahibkarlıq qrumları mikromaliyyə institutlarından kreditlərin alınması ilə bağlı aşağıdakı sənədləri təqdim edirlər ki, bunlara da biznes planların tərtibi, mühasibat sənayelərinin işlənib hazırlanması, müəsisənin anket məlumatları ilə bağlı notarial təsdiq, banka xidmətlə bağlı mövcud vəziyyət, ümumiyyətlə təsərrüfat fəaliyyəti ilə bağlı nəqliyyat xərcləri və sair şamil edilir. Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatında vəsaitlərin dövr etmə müddəti yüksək olduğundan təbii ki, bu zaman, borcların qaytarılma müddəti də yüksəkdir. Ticarətdə isə bu dövriyyə sürəti əslində həftələrlə xarakterizə olunur və nəticə etibarilə, borcların qaytarılma qrafiki, demək olar ki, həftəlik prinsiplər üzrə müəyyənləşdirilir.

Ümumiyyətlə götürdükdə müasir şəraitdə mikromaliyyələşdirmə sistemi prinsipcə sahibkarlıq fəaliyyətinin davamlı inkişafının təmin edilməsində əlverişli şərait yaradır. Mikromaliyyələşmə bankları müasir şəraitdə kənd təsərrüfatı əmtəə istehsalçılarının güzəştli şərtlərlə kreditləşdirilməsində əhəmiyyətli rola malik olur və bütövlükdə istehsalın kapital resurslarına olan ehtiyaclarının ödənilməsində əhəmiyyətli yer tutur. Aparılan araşdırmalar göstərir ki, mikromaliyyələşdirmə fəaliyyəti dəyər ifadəsində kifayət qədər yüksək tendensiyalara malikdir. Mikrokreditlər ümumiyyətlə maliyyə institutlarının maliyyə siyasətində əhəmiyyətli rol oynamaqla bütövlükdə onların kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə problemlərinin həllində əhəmiyyətli rol oynayır. Xidməti xarakterizə edən ən mühüm cəhətlərdən biri onların verdikləri kreditlərin qaytarılmasının yüksək səviyyəsi ilə xarakterizə olunur ki, bu da onların kredit portfellərinin genişlənməsinə əlverişli şərait yaradır. Qeyd etmək lazımdır ki, mikromaliyyələşmə institutları vasitəsi ilə verilən kreditlərin kənd təsərrüfatında xüsusi çəkisinin genişləndirilməsi məqsədi ilə, dövlət büdcəsindən bu prosesə yardım göstərilməsi əhəmiyyətli yerinə yetirir. Məhz bütün bunlar, nəticə etibarilə, kənd təsərrüfatına dövlət yardımının əyani təzahürü

kimi çıxış etməlidir. Bütövlükdə götürdükdə mikromaliyyələşmə institutlarının iqtisadi cəhətdən əsaslandırılması, onların fəaliyyətinə yardım göstərilməsi regionların sosial-iqtisadi inkişafının təmin edilməsi və regionlarda yeni iş yerlərinin açılması və eləcədə, kənd təsərrüfatında iqtisadi artımın təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

# NƏTİCƏ

Tədqiqat prosesində aşağıda göstərilən nəticələr əldə olunmuşdur.

- dövlət tənzimlənməsinin başlıca məqsədi, ölkənin ərzaq təhlükəsizliyinin və daxili bazarda sabitliyinin təmin edilməsinə istiqamətləndirlir;

- kənd təsərrüfatında dövlət tənzimlənməsinin əsas vəzifəsi istehsalçılara əlverişli şərait yaratmaq və azad rəqabət mühiti yaratmaqdır;

- kənd təsərrüfatında dövlət tənzimlənməsinin əsas istiqaməti kimi aşağıdakıları təsnifləşdirmək mümkündür: istehsalın səmərəliliyinin təmin edilməsi və elmi-texniki tərəqqinin ən yeni nəaliyyətlərinin istehsala tətbiq edilməsi yolu ilə məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə nail olunması; aqrar sahədə məşğulluğun təmin edilməsi və kənd əhalisinin həyat şəraitinin davamlı şəkildə yaxşılaşdırılması; kənd təsərrüfatı və ərzaq məhsulları bazarında stabitliyin təmin edilməsi; daxili bazarın dövlət təminatının yüksəldilməsi;

- transformasiya prosesində sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və onların rəqabət qabiliyyətinin yüksəldilməsi strateji məqsəddir. Dövlət bu prosesə ciddi dəstək verir. Bu məqsədlə əlverişli investitisiya və rəqabət mühütünün yaradılması təmin edilməlidir;

- sahibkarlığın inkişafı şəraitində aqrobiznesin təşkilinin ən mühüm forması kimi topdansatış ərzaq bazarlarının inkişafına diqqət yetirilməli, topdan və pərakəndə satış ticarət müəsisələri ilə fərdi ticarətçilər arasında rəqabət təmin edilməlidir;

- rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və alqı-satqısı təmin olunmalı və onların ixracyönümü artırılmalıdır;

- rəqabət əsasında topdansatış əməliyyatlarının həyata keçirilməsinə, tədavül xərclərinin azaldılmasına, əmtəələrin hərəkət sisteminin optimallaşdırılmasına nail olunmalıdır;

- iri ərazi topdan satış ərzaq bazarlarının fəaliyyətini təmin etmək məqsədilə onların nəzdində xüsusi xidmət bölmələrinin yaradılmasına, informasiya-hesablama, maliyyə, hüquq, ictimai iaişə və mehmanxana təsərrüfatının sertifikatlaşdırılmasına diqqət yetirilməlidir;

- aqrobiznes strukturlarının optimal şəkildə fəaliyyət göstərməsi üçün bu sahəyə dövlət yardımının gücləndirilməsi və sahibkarlığın inkişafına mane olan təsirlərin aradan qaldırılması tədbirləri həyata keçirilməlidir;

Kənd təsərrüfatında dövlət tənzimlənməsinin effektiv mexanizminin və prioritet istiqamətlərinin seçilməsinə diqqət yetirilməlidir. Bu zaman ilk növbədə taxılçılığın ökənin ərzaq təhlükəsizliyini təmin etməsində əhəmiyyətli rol oynamasını nəzərə alaraq kənd təsərrüfatında taxıl istehsalının artırılmasına yönəldilmiş dövlət siyasəti gücləndirilməlidir.

- kənd təsərrüfatı əmtəə istehsalçılarının iri toxum sortları ilə təmin olunmasına əlverişli şərait yardılmalıdır;

- yerli qoyunçuluğun inkişaf etdirilməsi üçün damazlıq heyvanların gətirilməsinə və onların yem bazasının yaxşılaşdırılmasına dövlət qayğısı artırılmalıdır;

- kənd təsərrüfatında sığorta sisteminin yenidən qurulması, sığorta ilə bağlı xərclərin müəyyən hissəsinin dövlət büdcəsindən kompensasiya edilməsi, mineral gübrələrin və kimyəvi mühafizə vasitələrinin alınmasına çəkilən xərclərin ödənilməsi təmin olunmalıdır;

Sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı kənd təsərrüfatında müəyyən inzibati baryerlər aradan qaldırılmalıdır.

Dövlət tərəfindən aqrar sahəyə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin aşağıdakı formalarını təsnifləşdirmək mümkündür:

-proses və obyektlərin dövlət tərəfindən idarə olunması.

-vergi tənzimlənməsi.

-pul-kredit tənzimlənməsi.

-büdcə tənzimlənməsi.

-dövlət proqramları və dövlət sifarişlərinin formalaşdırılması yolu ilə sosial-iqtisadi proseslərin tənzimlənməsi.

-qiymət tənzimlənməsi.

-əmək şəraitinin, əmək münasibətlərinin və əmək haqqının tənzimlənməsi.

-sosial tənzimlənmə.

-ətraf mühütün və ekoloji münasibətlərin dövlət tənzimlənməsi.

-müəyyən məhdudiyyətlər və qadağalar sistemi vasitəsi ilə sosial-iqtisadi proseslərə təsir göstərilməsi.

Dövlət tənzimlənməsinin metodlarını bir-birindən qarşılıqlı əlaqəyə malik şəkildə təsnifləşdirir ki, bunlara da aşağıdakılar aid etmək olar:

1. Maliyyə-kredit tənzimlənməsinin dolayı metodları. Bu metodlara vergi siyasəti, amartizasiya siyasəti, kredit siyasəti və gömrük siyasəti şamil edilir.

2. Bilavasitə dövlətin maliyyə-kredit siyasəti. Bu siyasətə büdcə investitsiyalaşdırmasını, dövlət subsidiyalarını, dotasiyaları və subvensiyaları aid etmək olar.

3. Istehsal fəaliyyətinin tənzimlənməsi metodları. Bu metodlara dövlət sifarişlərini, kvotalaşdırmanı və lisenziyalaşdırmanı şamil etmək olar.

4. Dövlət sahibkarlığı. Bu fəaliyyət növünə əsas etibarilə müxtəlif mülkiyyət formalı müəsisələrin fəaliyyətinin müxtəlif formada idarə edilməsi aid edilir.

5. İdarəetmənin proqram metodu. Bura ilk növbədə dövlət proqramının işlənib hazırlanması və reallaşdırılması şamil edilir.

- Kənd təsərrüfatında emal müəssisələrinin yaradılmasına investisiya qoyuluşları yaradılmalı və xammal istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya münasibətləri təmin olunmalıdır;

- Kənd təsərrüfatında yeni texnologiyaların tətbiq olunmasına investisiya qoyuluşları artırılmalıdır;

Kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemində bölgələr üzrə heyvandarlıq məhsullarının emalı müəssisələrinin yaradılması da ön plana çəkilməlidir;

- Nümunəvi fermer təssərüfatlarına daha çox üstünlük verilməlidir və onların maliyyələşmə imkanları təmin olunmalıdır;

- Regionlarda aqrar ərzaq kompleksinin yaradılması təmin olunmalıdır;

- Bu investisiya cəlbediciliyinin yüksəldilməsinə diqqət yetirilməlidir;

- Aqrobiznes fəaliyyətinin dövlət funksiyaları təkmilləşdirilməlidir;

- Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin təkmilləşməsində vergi siyasətinin təkmilləşdirilməsinə üstünlük verilməlidir;

- İstehsalın genişləndirilməsi, torpaqların yaxşılaşdırılması ilə bağlı qoyulmuş vəsaitlərin həcminə müvafiq olaraq proporsional torpaq vergisi məbləğinin davamlı şəkildə azaldılması; müxtəlif sahələrdə fəaliyyət göstərən müəsisələrdə güzəştli vergiqoyma sisteminin tətbiq edilməsi; emal sənayesində istehsal edilən məhsullarla bağlı əlavə dəyər vergisinin stavkasının aşağı salınması diqqət mərkəzində olmalıdır;

- Kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara çıxış imkanlarının genişləndirilməsi, son nəticədə kəndlilərin daha çox gəlir əldə etmələrinə əlverişli şərait yarada bilər.

- Kənd təsərrüfatında iki pilləli qiymət səviyyəsinin tətbiq edilməsi, yəni dövlət tərəfindən təminatlı qiymətlərin tətbiq edilməsi bazar qiymətlərinin saxlanılması şərti ilə tətbiq edilməlidir. Daha doğrusu dövlət tədarük qiymətləri, əslində bazar qiymətlərinin kənd təsərrüfatı əmtəə istehsalçıları üçün sərfəli olmadığı şəraitdə həyata keçirilməli və bütün bunlar yarana biləcək zərərlərin kompensasiya edilməsinə xidmət etməlidir.

- Müasir şəraitdə dövlətin qiymət tənzimlənməsi, əsas etibarilə kənd təsərrüfatı məhsulları ilə, sənaye məhsullarının qiymətləri arasında disparitetin aradan qaldırılmasına istiqamətlənməlidir. Qiymət tənzimlənməsi qiymət disparitetinin aradan qaldırılması qiymətlərin təbii inhisarların tariflərinin istehsalçılar və istehlakçılar üçün optimal səviyyədə tətbiq edilməsinə nail olmalıdır;

- Qiymətlərin səviyyəsinə iqtisadi vasitələrlə təsir göstərilməsi üçün dövlət ilk növbədə ictimai zəruri əmək məsrəflərinin aşağı salınmasına istiqamətlənmiş tədbirlər həyata keçirməlidir. Kənd təsərrüfatında ictimai zəruri əmək məsariflərinin həcminin aşağı salınması, kənd təsərrüfatında istifadə olunan maddi texniki resurs, yanacaq və yağlama materialları, toxum, sürtgü materialları və digər dövriyyə vəsaitlərin əsas fondların alınması ilə bağlı müvafiq subsidiyaların verilməsini tətbiq etmək məqsədə uyğun olardı. Kənd təsərrüfatı məhsullarına xidmət göstərən emal və tədarük qurumlarının fəaliyyətinin rentabellik səviyyəsinin hədlərinə müəyyən nəzarətin qoyulması da vacibdir;

- Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin ən mühüm istiqaməti kimi kredit siyasəti də önəmli rol oynayır. Inkişaf etmiş ölkələrdə federal büdcədən kreditlərin ödənilməsi ilə bağlı vəsaitlərin ayrılması aşağıdakı istiqamətlərdə həyata keçirilir: kənd təsərrüfatında mövsümü xərclərin qısa müddətli kreditləşdirməsi; kənd təsərrüfatı istehsalının uzun müddətli kreditləşdirilməsi; kənd təsərrüfatı məhsullarının girov qoyulması; dövlət ehtiyaclarının ödənilməsi məqsədi ilə kənd təsərrüfatı məhsullarının tədarükü; kənd təsərrüfatı istehsalı sferasında lizinq fəaliyyətinin həyata keçirilməsi.

- Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı bu sahəyə dövlətin müdaxiləsinin forma və metodlarının yuxarıda adı çəkilən tipalogiyasını xarakterizə edərək aşağıdakı nəticələrə gəlmək olar:

- Kənd təsərrüfatı məhsulları istehsalında dövlət tərəfindən tənzimlənməsini stimullaşdırıcı funksiyalarının genişləndirilməsi. Bu proses geniş təkrar istehsalın bütün mərhələlərində, o cümlədən məhsulun istehsalı və istehlakçılara çatdırılmasına qədərki bütün proseslərdə özünü təzahür etdirməlidir.

-kənd təsərrüfatında əmtəəlik məhsulun xüsusi çəkisinin yüksəldilməsi. Bu zaman kənd təsərrüfatının inkişafına dövlət müdaxiləsinin iqtisadi metodlarından effektiv şəkildə istifadə edilməsi.

-ərzaq məhsulları bazarının formalaşdırılmasında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi.

-kənd təsərrüfatının əmtəə istehsalçılarına dövlət yardımının göstərilməsi ilə bağlı əsas tədbirlərin prioritet istiqamətlərinə aşağıdakılar şamil edilməlidir:

-kənd təsərrüfatında yeni texnika və avadanlıqların, o cümlədən toxum sortlarının və damazlıq heyvanların alınması ilə bağlı investitsiya fəaliyyətinə yardım göstərilməsi və bu baxımdan federal məqsədli proqramların işlənib hazırlanması.

-kənd təsərrüfatında torpaqların münbütlüyünün yüksəldilməsi, mineralitiv tədbirlərin həyata keçirilməsi, dövlət mineralasiya sisteminin inkişaf etdirilməsi, eləcədə kənd təsərrüfatında zərərvericilərə və xəstəliklərə qarşı mübarizə tədbirləri ilə bağlı işin effektiv təşkil edilməsi, karantin və baytarlıq xidmətinin işinin yenidən qurulması.

-kənd təsərrüfatında ətraf mühütün qorunması və ekoloji təmiz məhsul istehsalı ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, elmi-tədqiqat işlərinin genişləndirilməsi.

-aqrobiznes sferasında sığorta və kreditləşdirmə fəaliyyətinin yenidən qurulması.

-kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının maddi-texniki resursların əldə edilməsi ilə bağlı xərclərin müəyyən hissəsinin kompensasiya edilməsi, damazlıq, heyvandarlıq sisteminin dəstəklənməsi ilə bağlı dotasiyaların verilməs, elit toxumçuluq və hibrit kənd təsərrüfatı bitkilərinin istehsalına əlverişli şəraitin yaradılması.

-kənd təsərrüfatı və ərzaq məhsulları bazarının inkişaf etdirilməsi və dəstəklənməsi.

-kənd təsərrüfatında ixtisaslı kadrların hazırlanması işinin yenidən qurulması.

Kənd təsərrüfatının istehsalı və emalı, habelə satışı prosesində sığorta sisteminin təkmilləşdirilməsi ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğun olardı:

-ilkin mərhələdə kənd təsərrüfatı müəsisələri tərəfindən istehsal edilən məhsulun təxminən 50%-ə qədərinin sığortalanması prosesinə dövlət yardımının həyata keçirilməsi təklif edilir. Bu prosesin hüquqi təminatının təkmilləşdirmək məqsədi ilə, kənd təsərrüfatında sığorta ehtiyatlarının yaradılması ilə bağlı qanunvericilik aktı qəbul edilməli və həmin qanunvericilik aktı kənd təsərrüfatının dövlət tənzimlənməsinə istiqamətlənmiş tədbirlərlə əlaqələndirilməlidir.

-dövlət büdcəsi vəsaitinin iştirakı ilə kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı risklərin yenidən sığortalanması qaydaları müəyyənləşdirilməlidir.

-dövlətin iştirakı ilə kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı sığorta ehtiyyatlarının formalaşdırılmasının xüsusi qaydaları işlənib hazırlanmalı və təsdiq edilməli, bundan əlavə, istər sahibkarlar və istərsə də dövlət büdcəsindən sığorta ödənişlərinin həyata keçirilməsinə və ondan istifadə qaydalarına nəzarət təmin edilməlidir.

-məhsullar üzrə dövlət büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsi üçün stavkalar müəyyənləşdirilməli və dövlət büdcəsindən sığortalanma sisteminin həyata keçirilməsi ilə bağlı ayrı-ayrı kənd təsərrüfatı məhsullarının siyahısı konkretləşdirilməlidir.

-kənd təsərrüfatı məhsullarının sığorta dəyərinin müəyyənləşdirilməsi zamanı kənd təsərrüfatında orta məhsuldarlığın səviyyəsi və eləcədə, subsidiyalaşdırma stavkaları müəyyənləşdirilməli və bununla bağlı sahibkarlarla 5 ildən az olmayaraq sığorta müqavilələri bağlanmalıdır.

-sığorta müqavilələrinin bağlanması zamanı proqnozlaşdırılan bazar qiymətləri də nəzərə alınmalıdır.

-sığorta təşkilatları tərəfindən həyata keçirilən fəaliyyətə yenidən sığortalanması, mühasibat uçotunun aparılması, kənd təsərrüfatı məhsulları ilə bağlı sığorta əməliyyatlarının təşkili ilə bağlı hesabatlar, dövlət yardımının təminatlı qaydada həyata keçirilməsi və digər məsələlər aid edilməlidir.

-dövlət büdcəsi hesabına subsidiyalaşdırmanın əsas hissəsi kreditlərlə bağlı faiz stavkalarının ödənilməsinə və eləcədə, kənd təsərrüfatı məhsullarının itkisi ilə bağlı risklərin sığortalanmasına yönəldilməlidir.

Fikrimizcə kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinə mikromaliyyə xidmətlərinin göstərilməsi ilə bağlı dövlət fondlarının inkişaf etdirilməsi məqsədə uyğun hesab edilməlidir və bu zaman aşağıdakı prinsiplər əsas götürülməlidir.

-potensial borclular, əsas etibarilə sayı 5-10 nəfərdən ibarət olmaqla sahibkarlıq təbəqələrindən formalaşmalıdır.

-kredit götürən qrupun rəhbəri, bir qayda olaraq fərdi formada borc alanlarla deyil, qruplarla çalışmalıdır.

-əmanətlərin cəlb edilməsi.

-borcların verilməsi ilə bağlı kvotaların yüksəldilməsinin tsiklik xarakter daşıması.

-qrupun borcları ilə bağlı qarşılıqlı məsuliyyətin təmin edilməsi.

-qrupların inzibati müstəqilliyinin qorunub saxlanması və onların idarəetməsində demokratik prinsipi saxlanılması.

Azərbaycanın beynəlxalq əmək bölgüsündə əsas etibarı ilə xammal satıcısı kimi iştirak etməsinin başlıca səbəbləri elmi-texniki təchizatın zəif inkişaf səviyyəsi, emaledici sənaye məhsullarının bir çoxunun dünya bazarlarında rəqabət qabiliyyətinə malik olmamasından ibarətdir. Ölkəmizin xarici ticarətinin xammal yönümlü müasir vəziyyəti, demək olar ki, istehsal potensialının durumu ilə şərtlənir. Ümid edirik ki, hazırlanmaqda olan sənayenin inkişaf proqramında həmin amillər diqqətlə nəzərə alınacaqdır.

Inkişafın təmin edilməsi üçün ölkədə mövcud olan regional disbalansın aradan qaldırılması ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılmasına, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə yönəldilməlidir.

Müasir standartlara cavab verən infrastrukturun yaradılması sahibkarlığın inkişafına ciddi təkan verəcəkdir. Bununla yanaşı, hesab edirik ki, müstəqil ekspertlər tərəfindən Azərbaycanda sahibkarlıq mühitinin monitorinqinin aparılması və onun daha da yaxşılaşdırılması üçün əlavə tədirlər görülməsi məqsədəuyğundur. Fikrimizcə, gələcəkdə də kənd təsərrüfatının dövlət tənzimlənməsi istiqamətində təxirəsalınmaz tədbirlərin davam etdirilməsi xüsusilə azad rəqabət mühitinin dəstəklənməsi ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəlməsinə əlverişli şərait yaradacaqdır.

# ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Fərmanı.
2. Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı. 8 yanvar 2016-cı il.
3. "Azərbaycan 2020: gələcəyə baxış, inkişaf konsepsiyası" Azərbaycan qəzeti, 5 dekabr 2012-ci il.
4. Nazirlər Kabinetinin 2013-cü ilinin sosial-iqtisadi inkişafının yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda prezidentin İ.H.Əliyevin nitqi 15 yanvar 2014-cü il.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Dövlət Proqramı (2004-2008-ci illər). Bakı 2004.
6. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı – 2009.
7. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının layihəsi, 27 fevral 2014-cü il
8. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri 27 fevral 2014-cü il. № 118.
9. İ.H.Əliyevin Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda nitqi. 27 yanvar 2015-ci il.
10. Azərbaycan Respublikasında Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramının layihəsi 1 mart 2014-cü il.
11. Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Bakı 2007. 602 s.

12. Axundzadə L.T., Əsədov A.Ə. Aqrar hüququ. Bakı: Qanun, 2003, 516 s.
13. Allahverdiyev H.V., Qafarov K.S., Əhmədov Ə.M. Iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 447 s.
14. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012-ci il.
15. Azərbaycan iqtisadiyyatı. Nadirov A., Muradov Ş., Ələsgərov A., Nuriyev Ə. və s. Bakı: Elm, 2003, 344 s.
16. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Iqtisadiyyatın dövlət tənzimlənməsi. Ali məktəblər üçün dərslik - B: «Nasir» nəşriyyatı. 2002. 448 səh.
17. Azərbaycanın regionları – 2005-2015 / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2001-2013, 697s.
18. Azərbaycanda sahibkarlığın inkişafının bazar mexanizmləri. AMEA İqtisadiyyat Institutu. Kollektiv monoqrafiya. Bakı 2008, 300 s.
19. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, 3 cilddə. Bakı: Diqesta, I c., 2001, 1038s.; II c, 2001, 1053s.; III c., 2002, 1053 s.
20. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər). Mülkiyyət qəz., 14 fevral 2004.
21. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı – 2005-2015 / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2005 - 2015, 293 s.
22. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərnəşr, 1997, 112 s.
23. Azərbaycanın Statistik Göstəriciləri – 2005-2015 / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2005-2015, 801s.
24. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Monoqrafiya. Bakı 2012, 423 s.
25. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, 2003, 315 s.
26. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, 2006, 380 s.
27. Alıyev İ.H., Məmmədova Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri Bakı, 2007, 277 s.

28. Ataşov B.X. "Ərzaq təhlükəsizliyinin aktual problemləri". Bakı: 2005, 336 s.
29. Balayev R.Ə. Aqrar sahənin və ərzaq bazarının tənzimlənməsi məsələləri. Muasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri. Kollektiv monoqrafiya. Bakı: Elm, 1998, 498s.
30. Bayramov Ə.İ. "İnhisarizm". Bakı: "Elm", 2002, 390 s.
31. 1 yanvar 1996, 1 yanvar 2001, 1 yanvar 2003 və 1 yanvar 2004-cü illərdə Azərbaycan Respublikasında aqrar islahatların gedişi haqqında» bülleten / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: ARDSK-BHM, 1996, 2002, 2003, 2004.
32. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: AzTU-nun mətbəəsi, 2002, 236 s.
33. Cozef E. Stiqlitz. Qloballaşma və onun doğurduğu narazılıqlar, «Iqtisadi Islahatlar Mərkəzi» mətbəəsi. Bakı: 2004.
34. Əlirzayev Ə.Q. Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı. Bakı: 1999, 104 s.
35. Əliyev R., Zeynalov T. Sahibkarlıq fəaliyyətinin maliyyələşməsinin tənzimlənməsinin metodoloji əsasları. Bakı 2001, 152 s.
36. Əliyev I.N. Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı, II kitab. Bakı: «Ziya-Nurlan» NPM, 2001, 122s.
37. Əliyev R.B., Novruzov N.A., Məmmədov M.A. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı: 2003, 432 s.
38. Ərzaq təhlükəsizliyi üzrə informasiya sistemi. Bakı 2007.
39. Əmrahov V.T. Aqrar bazarın formalaşmasının bəzi məsələləri. "Azərbaycan Aqrar Elmi" jurnalı, 2006 (9-10), s. 11-13.
40. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: "Elm", 1998, 343 s.
41. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı: Adiloğlu, 2001, 176 s.
42. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı: «Təhsil» EIM, 2010, 248 s.

43. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı: 2005, 360 s.
44. İbrahimov I.H. Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı: Azərnəşr, 2005, 280 s.
45. İbrahimov E.R. Heydər Əliyev və dövlətin aqrar siyasəti. Bakı: Cənclik, 2003, 776 s.
46. Keyns Con Meynard. Məşğulluq, mənfəət və pulun ümümi nəzəriyyəsi. Ing. dil. tərc. Bakı: Qanun, 2001, 478s.
47. Kənd təsərrüfatı üçün siyasət çərçivə sənədi (Hesabatın layihəsi) / Azərbaycan Respublikası Kənd Təsərrüfatında Özəl Bölmənin inkişafına Yardım Agentliyi. Bakı, Su-Yapı Mühendislik ve Müşavirlik A.Ş. – TÜRKIYE, 2003, 486 s.
48. Kərimli İ.A., Süleymanov N.M. Milli iqtisadiyyatın əsasları (dərs vəsaiti). Bakı: ABU nəşriyyatı, 2001, 308 s.
49. Quliyev R.İ. Iqtisadiyyatın dövlət tənzimlənməsi: nəzəriyyə və modellər. «Respublika» qəz., Bakı, 2005, 4-6 fevral.
50. Quliyev E.A. Kənd təsərrüfatı məhsullarının topdansatış bazarlarının formalaşması problemləri. İ.ü.f.d. alimlik dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiya işi. Bakı, 2009, 307 s.
51. Quliyev E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: Elm", 2013, 151.
52. Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı: Elm, 2004, 792 s.
53. Nadirov A. A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri". Bakı: Elm", 2001, 452 s.
54. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman nəşriyyatı, 2002, 620 s.
55. Novruzov V.T. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli. Bakı: Azərnəşr, 2004, 288 s.
56. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Azərbaycan iqtisadiyyatı: problemlər və perspektivlər. Bakı: Elm, 2002.
57. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı: "Çin iqtisadi möcüzəsi". Bakı: "Gənclik" 2001, 317s.

58. Səmədzadə Z.Ə. Azərbaycanın iqtisadi inkişaf strategiyasında aqrar sektorun rolu / Aqrar islahatlar: nəticələr, problemlər" mövzusunda beynəlxalq konfransın materialları, Bakı, 2001.
59. Səmədzadə Z.Ə. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Bakı, 2010, 228 s.
60. Sadıqov K.F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı: Azərnəşr, 1999, 72s.
61. Salahov S.V. Aqrar sahədə dövlət tənzimlənməsinin konseptual əsasları və prioritetləri / «Azərbaycanda aqrar islahatlar: konsepsiya, təcrübə, perspektivlər» mövzusunda Az.ETKTI və TI-nun 40 illiyinə həsr olunmuş toplu: 2 cilddə, Ic., Bakı: Təhsil NPM, 2002, s. 4-35.
62. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: «Nurlar» Poliqrafiya Mərkəzi, 2004, s. 503 s.
63. Salahov S.V. Transformasiya şəraitində aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi məsələləri. Bakı, MMA-nın mətbəəsi, 2000, 96 s.
64. Yerli iqtisadi İnkişaf Mərkəzi. "Azərbaycanda kənd təsərrüfatı üzrə dövlət tənzimlənməsi sahəsində mövcud vəziyyətin təhlili və onun Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üçün tövsiyələrin hazırlanması" tədqiqat layihəsi üzrə yekun hesabat. Bakı-2006. 156 s.

Rus dilində

65. Абалкин Л.И. Экономические функции государства и методы его воздействия на рыночную экономику // Экономические науки, 1990, №1
66. Авдашова С., Ястребова О. Государственная поддерjка в регионах: состояние и проблемы реорганизации // Вопросы экономики, 2001, №5, с.115.
67. Алиев И.Н. Исторические этапы сельского хозяйства Азербайджана и перспективы его развития. Баку: Ишыг, 2004, 384с.
68. Аакер Д.А. Стратегическое рыночное управление / М.: Питер, 2007. - 495 с.
69. Антропов В.В. Социальная рыночная экономика: путь Германии. М.: ЗАО «Издательство Экономика», 2003, 223с.

70. Анискин, Ю. П. Организация и управление малым бизнесом : учеб. пособие по специальности "Менедјмент орг." / Российская мејдународная академия туризма. - М.: Финансы и статистика, 2005. 151 с.
71. Астапов К. Переход к модели ускоренного развития экономики // Экономист, 2003, №8, с75
72. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Экономика, 2004, 480с.
73. Биншток Ф.И. Государственное регулирование предпринимательской деятельности: Учеб. пособие. М.: ИНФРА – М, 2003, 198с.
74. Бобович И.М., Семенов А.А. История экономики. Учебник. М.: ООО «ТК Велби», 2002, 368с.
75. Богомолов Т. Анатомия глобальной экономики. М.: Экономика, 2003, 216 с.
76. Белых В.С. Прававое регулирование предпринимательской деятельности в России: Монография. М.: Проспект, 2005. с. 25-28.
77. Власова В.М. Основы предпринимательской деятельности экономическая теория: Учебное пособие. М.: Финансы и статистика, 2004. 350 с.
78. Впереди ХХЫ: Перспективы, прогнозы, футурологи. Антология современной классической прогностики. 1952-1999
79. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев: Экспресс-об ява, 2000, 504с.
80. Гарануха Ю.В., Земляков Д.Н. Микроэкономика. Учебник. М.: Дело и сервис, 2002, 296 с.
81. Герчикова И.Н. Регулирование предпринимательской деятельности: М.: Издательство Консалтбанкир, 2002, 704 с.
82. Государственное регулирование рыночной экономики. Ответственный редактор Столяров И. И. Учебное пособие Второе изд. М.: Дело, 2002, 280с.
83. Государственное регулирование экономики. Под редакцией профессора Морозовой Т.Г. М.: Экономика, 2002, 255 с.
84. Дюмулен Н.Н. Всемирная Торговая Организация. М.: ЗАО Издательство Экономика, 2003, 271с.

85. Крылатых Э. Н. Социально-экономические секторы и риски развития сельской местности (Методологические аспекты). М.: Никиновские чтения, 2001, с.8.
86. Крылатых Э.Н., Строкова О.Г. Аграрные аспекты вступления стран СНГ в ВТО. М.: Энциклопедия Российских деревень, 2002, с.165
87. Масленников М.Н. Правовое регулирование предпринимательства в экономике развитых срование предпринимательства в экономике развитых стран // Экономика и жизнь – 2004 - №10. с. 23-26.
88. Малецкий Е.Г. Место и роль инвестиций в аграрной сфере. // Достижения науки и техники в АПК. - 2001г. №7
89. Малецкий Е.Г. О роли инвестиций в повышении эффективности сельского хозяйства. // Экономика сельского хозяйства и перерабатывающих предприятий. – 2001 г. №9
90. Мамедов Г. Земельная реформа в Азербайдјане: правовые и научно-экологические вопросы. Баку: Елм, 2000, 374с.
91. Рубин Ю.Б. Курс профессионального предпринимательства : учеб. для вузов по экон. специальностям и направлениям / М.: Маркет ДС, 2008. - (Университетская серия)
92. Самедзаде З. А. Этапы большого пути. Экономика Азербайдјана за полвека ее реалии и перспективы Баку: «Нурлар», 2004, 936 с.
93. Смирнов А.О. Управление бизнесом: учеб: пособие по программе магистратуры / Новосибирск: Сибирский государственный университет телекоммуникаций и информатики, 2009. - 241 с.
94. Тарасов К.М. Малое предпринимательство в системе рыночных отношений – М.: Экономика, 2005. 320 с.
95. Ушачев И. Г. АПК России: политика стабилизации и экономического роста / Социально-экономические проблемы развития АПК. Сб. науч. тр. ВНИИЭСХ. М.: Экономика и информатика, 2000, с.3-12
96. Управление рисками в предпринимательстве: [монография] / С.Н. Воробьев, К.В. Балдин. - М.: Дашков и К, 2006. - 769, [1] с.

97. Филиппенко А. С. Экономическое развитие цивилизационный подход. М.: Экономика, 2001, 260с.
98. Яковлев, Г.А. Организация предпринимательской деятельности : учеб. пособие для студентов вузов, обучающихся по специальности "Экономика и упр. на предприятии (по отраслям)" / М.: ИНФРА-М, 2010. - 311, [1] с.
99. Чиркин В. Е. Современное государство. М.: Издательство Международные отношения, 2001, 412с.
100. Хоскинг А. Курс предпринимателства. Перевод с английского. М.: Меjдународные отношения, 2005. 350 с.
101. Шеметов, П. В. Менеджмент и маркетинг в домоведении : учеб. пособие "Домоведение" Введение в бизнес и маркетинг / Новосибирск: Сибирский университет потребительской кооперации, 2006. - 106 с.
102. Шамхалов Ф. И. Государство и экономика. Основы взаимодействия (учебник) М.: Экономист, 2000, 382с.
103. Шелягина Н.А. Предпринимателство в условиях рынка. М.: Экономика, 2004. 567 с.